# AZƏRBAYCAN QADIN ŞAİRLƏRİ ANTOLOGİYASI

"AVRASİYA PRESS"
BAKI – 2005

*Bu kitab "**Azərbaycanın aşıq və şair qadınları**"*
*(Bakı, Gənclik, 1991) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni: **Əzizə Cəfərzadə**

Ön sözün müəllifi: **Nigar Rəfibəyli**

Redaktorları: **Tofiq Qaraqaya**
**Leyli Əliyeva**

**894.3611008 - dc 21**
**AZE**
**Azərbaycan qadın şairləri antologiyası.**
Bakı, "AVRASİYA PRESS", 2005, 256 səh.

"Azərbaycan qadın şairləri antologiyası" Azərbaycan qadınlığının poetik salnaməsidir. Salnamə neçə-neçə Azərbaycan şairəsinin çoxəsrlik fəaliyyəti, ilhamı, yanğısı nəticəsində yaranmışdır. Onun səhifələrində aşıq və şair qadınlarımızın könüllərdə, hafizələrdə yaşayan şeirləri boy göstərir.

Kitaba Güneyli-Quzeyli Azərbaycanımızın aşıq və şair qadınlarının poetik dünyasından nümunələr daxil edilmişdir.

**ISBN 9952-421-19-0**

© "AVRASİYA PRESS", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# İŞIQLI HƏYAT HƏSRƏTİNDƏ

Tariximizin qəhrəmanlıq səhifələrində Azərbaycan qadınının öz şöhrəti, öz şərəfli yeri var. "Kitabi-Dədə Qorqud" qəhrəmanı igid Buğaca süd verən anası, Koroğlunun sadiq Nigarı, Qaçaq Nəbinin silahdaşı qoçaq Həcər – xalqımızın iftixarıdır. Məğrur, əyilməz bir qızın şərəfinə Bakıda möhtəşəm qala ucaltmış şair xalqımız vətən torpağının ən füsunkar guşələrinə şairanə adlar verib – Qızbənövşə yaylağı, Qırxqız bulağı, Gəlin qayası...

Xalqımızın keçmişdə müdrik hökmdarı Nüşabə də olub, cəsur üsyan başçısı Rüstəm də, tədbirli dövlət xadimləri Sara xatun da, Tuti Bikə də...

Ancaq xalqımızın keçmişində qadınlarımızın göz yaşlarından doğan dəryalar, ah-nalələrindən buludlanan səmalar, ağılardan parçalanan ürəklər də olub.

Ölülər dünyasının üfunəti içində yaşıl və köməksiz pöhrə kimi əsim-əsim əsən, tapdanan, əzilən, incidilən balaca, zərif bir varlıq – on iki yaşlı Nazlı, Cəlil Məmmədquluzadənin yanıqlı qələmindən doğulmuş kövrək qızcığaz, mömin və küt Hacı Həsənin qızı, bədbəxt İsgəndərin bacısı, şəhvət hərisi fırıldaqçı Şeyx Nəsrullahın "şikarı"...

Kim bilir, bəlkə Nazlının şair təbi vardı? Kim bilir, bəlkə o, başına gələn müsibətləri şeir misralarıyla ifadə etmək istəyirmiş, bacarmırmış? Bəlkə şeir yazmağı bacarsaydı, onu Şeyx Nəsrullahın murdar ağuşuna atmaq istəyən atasına, gözü, ağlı, qulağı mövhumat dumanından tutulmuş atasına bu sözlərlə müraciət edərdi:

*Yalvarram qohum-qardaşa,*
*Bax gözümdən axan yaşa,*
*Baxtımı döndərmə daşa,*
*Vermə məni yada, ata!*
*Salma yanar oda, ata!*

*Kəsmə hər yerdən çaramı,*
*Vurub qanatma yaramı,*
*Gəl keçirmə sən çıramı,*
*Vermə məni yada, ata!*
*Salma yanar oda, ata!*

*Anam boynun büküb ağlar,*
*Bacım sinəsini dağlar,*
*Bacım qızı qara bağlar,*
*Vermə məni yada, ata!*
*Salma yanar oda, ata!*

*Nazlı sənə şirin bala,*
*Haqdan keçib, çəkmə ala,*
*Aldanıb dövlətə, mala,*
*Vermə məni yada, ata!*
*Salma yanar oda, ata!*

Hacı Həsən ağa körpə qızını dövlətə, mala, bu dünyanın nemətinə, sərvətinə deyil, o dünyanın cənnət xülyasına, şəriətin "savabına" qurban vermək istəyirdi. Nazlının bacısı yox idi; onun üçün sinəsini dağlayan – qardaşı dərdli İsgəndər idi. Bu şerin də müəllifi "Ölülər"dəki Nazlı, Mirzə Cəlilin ölməz Nazlısı yox, real həyatda yaşamış, şairə Nazlıdır.

Adlarının eyniliyi təsadüfidir. Acı taleyin, qara bəxtin, yanıqlı yalvarışların eyniliyi təsadüfi deyil – inqilabdan əvvəlki dövrdə qadınlarımızın ümumi müsibəti, faciəsi, aqibətidir.

Sanki şairə Nazlı, Mirzə Cəlil Nazlısının ağrılarını şeir diliylə ifadə edir.

Sanki Mirzə Cəlil Nazlısı neçə-neçə real Nazlının bədii təcəssümü, timsalıdır.

Qarşınızdakı kitab Azərbaycan qadınlığının bir növ poetik salnaməsidir. Bu salnaməni hörmətli alimimiz, yazıçımız Əzizə xanım Cəfərzadə neçə ilin gərgin axtarışları, ağır zəhməti, səyi nəticəsində toplamışdır. Salnamə neçə-neçə Azərbaycan şairəsinin çoxəsrlik fəaliyyəti, ilhamı, yanğısı nəticəsində yaranmışdır.

Sənət, şeir – həmişə zəhmətlə yaranır. Qadın sənətkarın zəhməti bəlkə də ikiqatdır. Ədəbiyyat tarixinin böyük simaları – antik yunan şairəsi Safodan, XX əsrdə yazıb-yaratmış, Nobel mükafatı laureatı Qabriela Mistrala qədər bir çox qadın sənətkarlar həyatlarının və peşələrinin bu ikiqat çətinliyindən dönə-dönə danışmışlar. Sevgilərinə, ailələrinə, əzizlərinə sədaqətlə, ilhamla şeirlər həsr etmişlər. Qələmi, dəftəri, yazı masasını öz əsərlərində dəqiq, mənalı sözlərlə tərənnüm etmişlər. Şərq şairəsinin, islam ölkələrində yaşayıb-yaradan qadın sənətkarın işi isə ikiqat zəhmətdən başqa, həm də, onqat cəsarət, hünər idi.

*Arvadla kişini bağlayır kəbin,*
*Bu işə yol verir şəriət, ayin,*

*Mənimsə kəbinim bir rübaidir!*
*Varmı bu kəbinə yol verən bir din?*

Bu vüqarlı sözləri səkkiz yüz il bundan qabaq söyləmiş Azərbaycan şairəsi Məhsəti Gəncəvi öz sualının cavabını da bilirdi. Bilirdi ki, belə bir kəbinə yol verən din yoxdur və islam dini belə bir nikahın ən qəddar düşmənidir. Bu acı həqiqəti Məhsəti xanım da bilirdi, ondan sonrakı əsrlərdə yaşayıb-yaratmış onlarla başqa şairələr də – Natəvan da, Heyran xanım da, Kəminə də, Qürrətüleyi də, Aşıq Pəri də. Bilirdilər və bilə-bilə "kəbinlərini" rübaiylə, qoşmayla, gəraylıyla, qəzəllə, bayatıyla "kəsirdilər". Bu kəbinin bəhrələri, bu nikahın övladları gözlərimiz qarşısındadır: səhifələri çeviririk, uzaq-uzaq illərin ardından qulaqlarımıza səslər, sədalar gəlir. İncə və zərif qadın pıçıltıları, qəmli zümzümələr, şirin laylalar, təsirli ağılar, bəzən də gülüşlər, şux qəhqəhələr... Bəli, gülüşlər, qəhqəhələr. Çünki ən ağır çağlarda, ən məşəqqətli dövranlarda belə insanlar, xüsusilə qadınlar, gülüşü unutmayıb, şən zarafatdan yadırğamayıblar.

*Çəkməsi cığ-cığ eylər,*
*Evimizi palçıq eylər.*
*Zəhləm gedir o yardan,*
*Hər gecə acıq eylər.*

*Samovar pıqqıldayır,*
*Qəndqıran şaqqıldayır.*
*Zəhləm gedir o yardan,*
*İş bilməz, naqqıldayır.*

*Su götürdüm hovuzdan,*
*Xoşum gəlir tovuzdan,*
*Yar mənə pencək alıb,*
*Astarı qanovuzdan.*

Bu şux, şıltaq bayatılar Şamaxı şairəsi Pərnazındır. Həmin o şairənin ki, 1902-ci ildə dəhşətli Şamaxı zəlzələsinin şahidi olmuş və bu müsibətə də təsirli misralar həsr etmişdir:

*Şəhərin dam öyləri,*
*Əsil tərxam öyləri.*
*Zəlzələ viran qoydu,*
*Dağıldı şam öyləri.*

*Bu gələn arabadı,*
*Qoy gəlsin arabadı.*

*Dünənki cənnət şəhər,*
*Bax, bu gün xarabadı.*

*Dağda biyan varmola?*
*Soyub yeyən varmola?*
*Bu əcəlsiz qırğına,*
*Hayıf deyən varmola?*

"Sevinclə kədər əkiz doğulub" – deyiblər. Belə bir ifadə də var: "Bir gözü gülür, biri ağlayır". Azərbaycan şairələrinin gülən gözləri, xoş saatları da olub. Amma gözləri daha çox qan-yaşla dolub, dərdli-ələmli ayları, illəri, yaxşı günlərini, saatlarını üstələyib. Odur ki, qadınlığın bu poetik salnaməsindən daha çox ah-fəryad səsləri ucalır. Şairələr xalqın ümumi müsibətlərinə – zəlzələlərə, talanlara, müharibə qırğınlarına, ölənlərə, itənlərə yas tuturlar. Şairələr Şərq qadınının ümumi acı taleyinə – hüquqsuzluğa, bərabərsizliyə, mütiliyə ağlayırlar. Bir də hər şairənin, hər qadının öz şəxsi yaraları, şəxsi dərdi, itkisi var.

Böyük Natəvan 17 yaşında dünyadan gedən oğlu Mir Abbasa matəm saxlayır:

*Boyun bəlasın alım, sərv tək yıxılma, oğul,*
*Doyunca görməmişəm getmə, bir zaman, getmə!*
*Çıxaydı kaş gözüm, görməyəydi hicranın,*
*Ölüncə bil edərəm naləvü-fəğan, getmə!*
*Sabahatək oturub çəkmişəm cəfalərini,*
*Boyum bərabərisən indi, əlaman, getmə!*

İyirmi yeddi il sonra 20 yaşında gənc Məşədixanım Leyli, Natəvanın "Ölürəm" rədifli qəzəlinə nəzirə yazıb, nakam taleyinə ağlayır:

*Nişanə qalmadı məndən, qızım da öldü mənim,*
*Gözümə oldu əcəb tirə ruzigar, ölürəm.*

Leyli özünə ağlayır, itirdiyi qızına ağlayır, fəraq içində qoyub getdiyi şair sevgilisinə ağlayır. Bu nə qədər insani bir hissdir. Neçə-neçə qadın dünyadan belə nakam gedib. Amma onların demədiklərini, deyə bilmədiklərini Leyli deyib, bu sözlərlə onları da, özünü də əbədiləşdirib. Poeziya elə insandan dünyada qalan nişanə deyilmi? Bir də, poeziya insanın möhnət, intizar, həsrət üzərində qələbəsi deyilmi?

XVII əsrdə beş Azərbaycan qızını əsir aparıblar. Onlar vətəndən uzaqlarda həsrət və möhnət içində ömürlərini başa vurublar. Bu beş

qəlbin əzabları – üç əsrin sarsıntıları, qeyli-qalı arasında çoxdan itib, əriyib, unudulub. İtib? Əriyib? Unudulub? Yox, bu beş “Yesir qız”ın biri – Gülşad şairə imiş; özünün və rəfiqələrinin qüssələrini qələmə alıb və beş qəlbin harayı itməyib. Didilib tökülmüş cüng səhifələrindən, gül ləçəyi kimi zəif bir “ah”, bir giley, bir həsrət nəğməsi, üç əsrin başı üstdən gəlib bizə, bu günə çatıb:

*Göydən ötən bölük-bölük durnalar,*
*Bizdən salam olsun Əcəm elinə.*
*Yaşıl geymiş sarı telli durnalar,*
*Bizdən salam olsun Əcəm elinə.*
*Beş qız idik bir arada, bu yerdə,*
*Ya ilahi, dərman elə bu dərdə.*
*Canım durna, hər vətəndə, hər eldə,*
*Bizdən salam olsun Əcəm elinə.*

XVII əsrdən, “İstanbul şəhərindən – Qostəntəniyyə”dən gələn bu qəmli sədaya, XIX ərdə Tehrandan başqa bir şairənin yanıqlı səsi səs verir:

*Mən aşığam qara bax,*
*Qara salxım, qara bağ,*
*Tehran cənnətə dönsə,*
*Yaddan çıxmaz Qarabağ.*

Bu şeir Ağabəyim ağanındır. İbrahimxəlil xanın qızı, İran hökmdarı Fətəli şaha ərə verilmiş Azərbaycan qızının “qızıl qəfəsdə” yazdığı şeir.

Bir-birinin müasirləri olan şairələrimiz bəzən şeirləşmiş, bir-birinə poetik cavablar yazmışlar. Müxtəlif şairələrin yaratdıqları “Ağam canı” rədifli qəzəllər buna ən yaxşı misaldır. Amma bu kitabda biz başqa bir səsləşməni də eşidirik: bir-birindən xəbərsiz olan, bəzən, hətta ayrı-ayrı dövrlərdə yaşamış şairələrin mövzu və tale səsləşmələrini...

Şairə Bəsti atasına, anasına, qardaşına, bibisinə, xalasına yalvarır, “yaşı əlli, ağ tükü qaşından bəlli, acı sözlü, zəhər dilli bir ağ yala məni verməyin” – deyə fəryad qoparır.

*Zəhər qatdılar aşıma,*
*Bəlalar gəldi başıma,*
*Baxmadılar göz yaşıma,*
*Satdılar kaftara məni*
*Ağ yal canavara məni.*

– deyən Əsmər, sanki Bəstinin səsinə səs verir, atasından, anasından, qardaşından, əmioğlusundan gileylənir.

Və elə bil ki, üçüncü bir şairə bu bəxtiqara qızı təsəlliylə ovundurur:

*Gövhər deyər, zornan ərə verilən*
*Bu dünyada nə bir sənsən, nə də mən.*

Çadra müsəlman geyim "moda"sının müəyyən bir ünsürü deyildi: o, əsarət rəmzi, mütilik timsalı, qadının öz üstündə daşıdığı fərdi, səyyar zindanı idi. Müsəlman evlərində əndərun və birun adlı iki hissə olurdu. Pəncərəsiz sal divarlarla küçədən, bayırdan gizlədilmiş içəri hissə – əndərun – qadınların yaşadığı yer, bütün ömürlərini sürdükləri dar və məhdud bir sığınacaq idi. Çadra yalnız geyim ünsürü olmadığı kimi, əndərun da yalnız memarlıq istilahı deyil. Çadra da, əndərun da – həyat tərzi, əxlaq və anlaq norması, islam şərqinin qadına olan "fəlsəfi" münasibəti idi.

Bu kitabı varaqladıqca düşünürdüm: şairələrimizin çoxunun ömrügünü əndərunda keçib, həyatlarını qara çadra altında yaşayıblar. Bəs onda nə qəribə haldır? Bütün dünyadan təcrid olunmuş, sal daşlarla, kor, pəncərəsiz divarlarla ayrılmış əndəruna Azərbaycan qadınları bayırdakı geniş dünyanın bütün duyğularını, sevinc və kədərlərini keçirə biliblər, çadranın qara pərdəsi altından yer üzünün bütün rənglərini, çalarlarını görə biliblər, seçə biliblər...

Başqa dinlər kimi islam dini, insanın fərdini, "mən"ini öldürməyə çalışıb. Bu cəhətdən şəriət ehkamları qadınlara qarşı daha amansız olub.

İnsanın böyüklüyü, barışmazlığı və qüdrəti ondadır ki, o, həmişə öz mənliyi, qüruru uğrunda üsyana qalxıb. Bu insanlıq üsyanında qadınlığın da öz payı var. Bəzən "üsyan" sözün müstəqim mənasında qiyam, vuruş olub, qurbanlar aparıb. Belə şəhidlərdən biri Tahirə Qürrətüleyidir. Amma insan ləyaqəti uğrunda döyüşün zahirən görünməz, səssiz, sakit formaları da var. Şəriətin dünyanı qadına haram elədiyi bir dövrdə sevgi haqqında, həyat haqqında öz sözünü pıçıltıyla belə olsa da demək fədakarlıqdır, hünərdir. Çünki bu zəif pıçıltılar əsil şerə çevrilirsə, deməli onlar qəlbin çırpıntılarından doğulub. Qəlbin çırpıntıları isə, təbil zərbələrindən fərqli olaraq eşidilməzdir.

Əlbəttə, kitabdakı şeirlər nə kəmiyyət, nə də keyfiyyət baxımından eyni ölçüdə deyildir. Ancaq ən yaxşı şeirlərdə şairələrin məni, fərdi duyulur: hər birinin öz səsi, öz sözü eşidilir.

Ağabəyim ağanın qəzəlindən iki misra hifz olunub. Bu beytdə narın meh kimi yüngül, güclə sezilən bir təəssüf var:

*Əfsus ki, yarım gecə gəldi, gecə getdi,*
*Heç bilmirəm ömrüm necə gəldi, necə getdi.*

Ağabəyim ağanın zərifliklə etdiyi giley qarşısında Şəhrəbanunun şikayətləri nə qədər ehtiraslı və çılğındır:

*İşvə bilməz, qəmzə bilməz, naz bilməz,*
*Sevgi bilməz, söhbət bilməz, saz bilməz,*
*Söz eşitməz, qaş anlamaz, göz bilməz,*
*Ana, məni bir nadana verdilər,*
*Günahıma, babalıma girdilər.*

*Qoyun deyil qoyunlara qatam mən,*
*Öküz deyil çovdarlara satam mən.*
*İgid deyil qucaqlaşıb yatam mən,*
*Ana, məni bir nadana verdilər,*
*Günahıma, babalıma girdilər.*

Azərbaycan şairələri bundan da kəskin dillə danışmağı bacarırlar. Aşıq Pəri həddən artıq canfəşanlıq eləyən aşiqi "ağlına dua yazdır" – deyə yerində otuzdurur.

Zərif, məlahətli olmağı da bacarır şairələrimiz. Heyran xanımın bu misralarında nə qədər incə bir qadın işvəkarlığı var:

*Ey sərv-qəddü simtən,*
*Şəkkər ləbü qönçə dəhən,*
*Doğrusu sən çox gözəlsən,*
*Biz də bir az pis deyilik.*

Fatma xanım Kəminə sadəlövh bir səmimiyyətlə:

"Ey gözüm, Əhmədə bax, gör nə qəşəng oğlandır" – deyə, hisslərini gizlətmir.

Şairə Zeynəb isə azad insan hissini təbiiliklə ifadə edir:

*Gəl eşit Zeynəb sözünü,*
*Yoldan yığ yarın gözünü.*
*Çox da incitmə özünü,*
*Götür məni qaç, İsmayıl!*

Hər şeir – bir insan xarakteri, bir qadın temperamenti, bir taledir!

Duymağı, sevməyi bacaran, bəzən hissləri uğursuzluğa düçar olan, bəzən yarından, bəzən övladından, bəzən vətənindən ayrı düşən qadınlar... Daha çox ağlayan, amma gülməyi də bacaran, iztirab çəkən, ümid bəsləyən, arzularla yaşayan, düşünən, duyan qadınlar... Həyatlarını, hisslərini şerin diliylə əbədiləşdirmiş, ömürlərinin şerə dönmüş qəlpələrini bizə yadigar qoyub getmiş şairələr...

Dünyanın hər üzünü görmüş, şux bayatıdan hüznlü qoşmalara qədər hər ovqatda şeirlər yazmış Bəsti təqribən yüz il ömür sürüb. Ömrünün bir əsrini başa vurarkən Bəsti sevincini, dərdini, duyduqlarını çoxdan unutmuş, yaşıdlarının, müasirlərinin çoxunu torpaqlara tapşırmış, qəribə bir “vaxt qürbətinə” düşübmüş. Bu “vaxt qürbətində” onu tanıyan qalmayıb. Şairə qəribə bir nisgillə:

*Aşıq Bəsti mənəm,*
*Ellər tanımır*

– deyir və bu yaşında belə sırf qadın psixologiyasına məxsus bir işvəylə əlavə edir:

*Sinnim doxsan olub*
*İllər inanmır.*

Bir əsrlik ömrün müdrik təcrübəsindən Bəstinin başqa bir poetik və dərin obrazı da yaranıb:

*Məleykə boyludu, şirin ləhcəli,*
*Əzəldən tamaşa olan bu dünya.*
*Qoca cadugərdi, aldadar səni,*
*Cavanlıq donunda qalan bu dünya.*

Zənnimcə, bu obrazı yalnız qadın sənətkar kəşf edə bilərdi.

Azərbaycan şairələrini oxuyun, tanıyın, sevin. Onlar bu sevgiyə layiqdirlər.

***Nigar Rəfibəyli***
*1 fevral 1973-cü il*

# MƏHSƏTİ XANIM GƏNCƏVİ

*Ədəbiyyatımızda ilk şairə hesab edilən Məhsəti xanım Gəncəvi böyük şairimiz Nizami ilə həmvətən və həməsr olmuşdur. Şairənin əlimizdəki rübailərində əsas mövzular məhəbbət, insan, xüsusən qadın hüquqsuzluğuna qarşı mübarizə, dövr və zəmanədəki haqsızlıqdan şikayət və fəlsəfi mülahizələrdən ibarətdir.*

## RÜBAİLƏR[1]

Necə gəzdim səni, andım, soruşma,
Hicrini qəmxanə sandım, soruşma!
Nə qədər vəslinə yetən əlimlə
Öz başıma vurdum, yandım, soruşma!

⌘
Qəlbinə eşqdən söz yazan bir kəs
Bir ləhzə ömrünə puç deyə bilməz,
Bir həmdəm aradıq ömrümüz boyu,
Bizə həmdəm oldu yanıq bir nəfəs.

⌘
Xoşbəxtdir rüxünə rüx qoysa hər kəs,
Rüxün eyləyəni şah edə bilməz.
Mən oyuna baxım, yoxsa rüxünə?
Bu halla neyləyim, mat qalmayım bəs?

⌘
Xalqın başında gər olsan da bir tac,
Ağladar səni də bir gün ehtiyac.

[1] Tərcüməsi Nigar Rəfibəylinindir.

Xalqın dərdinə qal, ona yaxın ol,
Qorx o gündən özün olasan möhtac.

⌘
Eşqin mənbərinə çıxandan ki biz
Eşqdən başqa söz bilmədik hərgiz.
Bizim bu mənzilə ayaq qoymasın
Eşq ilə yanmayan, buz kimi hissiz.

⌘
Könlümə yar oldu bu gecə dilbər,
Yalqız gecələrdən şikayət eylər.
Ey gecə, kədərim olsan da, getmə,
Səadət də olsan, gəlmə, ey səhər!

⌘
Şam başından yanar, göz yaşı tökər,
Gəldiyi qapıdan o çıxıb gedər.
Başınla öyünmə, şamə diqqət et,
Məhv olur başıyla ayağa qədər.

⌘
Səndən ayrılmama tədbir tökdülər,
Hicrində belimi iki bükdülər.
Hədər olmazmı bu çalışdıqları,
Sabah biz səninlə qovuşsaq əgər?

⌘
Nəmli gözlərimdən axan gilələr,
Xəncərdən damlayan al qana bənzər.
Qəlbim kabab olmuş, tökür qanlı su,
Kababdan qanlı su damlamaz məgər?!

⌘
O günəş üzünə and olsun, nigar,
And olsun ətirli saçlarına, yar!
Pərişan qəlbimin çəmənzarını
Hər gecə gözümün yaşı sulayar.

⌘
Nə üçün sən məni atıb getdin, yar,
Hicrində eylədin min dərdə düçar.
Gəl məni şad eylə vüsalınla sən,
Səndən qeyri mənə yanan kimim var?

⌘
Hicrində gündüzüm gecə oldu, yar,
Zamanın əlindən könlüm qan ağlar.
Göndər xəyalını bizə bir gecə,
Görsün necə üzür məni intizar.

⌘
Gecələr ürəyim od tutub yanar,
Ahü fəğanımdan cahan odlanar.
Könlümdən xəbərin yoxdur, qorxursan,
Dilinə gətirsən, yanar dilin, yar!

⌘
Olarsa Misir, Rum, Çin sənin, ancaq
Bil ki, bütün dünya sənin olacaq.
Kefini kök saxla, çünki son qismət
On arşın kəfəndir, üç arşın torpaq!

⌘
Dözülməz bir acı zəhərdir fəraq,
O, şövqi, həvəsi yandırır ancaq.
Ölüm can qurtarır, böyük cəfadır
Dünyada əzizdən, yardan ayrılmaq.

⌘
Özgədən heç zaman gözləmə kömək,
Quru budaq kölgə salmaz, ey ürək.
Qənaət əzizlər, tamah xar edər,
Az olan şeylərə qənaət gərək.

⌘
Dedim: “Məsləhət ver bizə, ey ürək!
Şirin meydən içək, acıdan içək?”
Dedi: “Acıdan iç, yoxsa Şirinə
Vurğun deyilsən ki, sən də Fərhadtək”.

⌘
Gözəl, bax, bir mənə, bir sən, nə xoş hal
Nuş edək şərabı coşsun cah-cəlal.
Gecə yar zülfü tək uzansın, fələk!
Sübhün açarını sən quyuya sal!

⌘
Neyləyim eşqinlə xarabam, məstəm,
Ciyərim kababdır, özüm şikəstəm,
Camalın həsrəti yandırır, lakin
Sənə yol tapmıram, ey boyu bəstəm!

⌘
Dərdlə, qəmlə keçir sənsiz hər gecəm,
Yandırır yuxusuz gözlərimi nəm.
Zülfün tək qarışar yuxularım da,
Nərgizlərin kimi yuxuya getsəm.

⌘
Dün kaşi kuzəmi daşlara çaldım,
Sərxoşdum, bilmədim, əlimdən saldım,
Kuzə dilə gəlib dedi ki: “Mən də –
Sənin kimi idim, bu günə qaldım”.

⌘
İstədim Əcəmdən namə göndərəm,
Qəlbim qan ağladı, boğdu məni qəm.
Qəlbimin qanıyla yazdım məktubu,
Həm məktub ağladı, həm mən, həm qələm.

⌘
Nədən səni belə yandırdılar, şam,
Yaddan çıxartdılar burda bir axşam?
Sən özün dilə gəl, neyləsin, əgər
Yaranmışsa ancaq yanmaqçün adam?!

⌘
Torpaq ələyənin mən aşiqiyəm,
Dilim gəlmir açıb sirrimi deyəm.
O, torpaq ələyib qızıl axtarır,
Mən əlimdə qızıl onu gəzirəm.

⌘
Olum, sabah yeli, mən sənə qurban,
Mələk balasına xəbər ver, aman!
Söylə ki, intizar içində, yazıq –
Məhsəti yol üstə gördüm verir can.

⌘
Könlüm ayrı düşdü o nurlu aydan,
Bəzənmişdi vüsal ümidiylə can.
Onsuz yaralıdır ürəyim mənim,
Görünür, bu hökmü vermiş yaradan.

⌘
Yarın damarını çərtəndə, aman,
Diqqət et, incitmə, sən, ey qanalan!
Qoluna vurduğun hər bir neştərin,
Ucu ürəyimə sancılır, inan!

⌘
Məni kam almağa qoymadı zaman,
Gücü çatan qədər elədi divan.
Deyəsən əhd etmiş, dolandıqca hey,
Məni də özüylə hərlətsin, dövran.

⌘
Sənə göndərdiyim məktubu, canan,
Qanlı göz yaşımla yazmışam, inan!
Bu qədər dərdimin hekayətini,
Bilmirəm heç nə cür eyləyim bəyan!

⌘
Mənə mey ver, fələk qəmlidir yaman,
Ey yarım, öldürdü məni bu hicran.
Mənim kimi şadlıq sevəni neçün,
Badəsiz, canansız əzir bu dövran?

⌘
Dad ürək əlindən, dad eşq əlindən!
Çoxları tək düşdüm bu möhnətə mən.
Ürəkdir səbəbi bu ahü zarın,
Dad ürək əlindən, dad eşq əlindən!

⌘
Bağ alışıb-yandı qırmızı güldən,
Bir gül köynəyidir ömrümüz həmən;
Əcəlin küləyi yırtmadan onu,
Gül ilə badəni buraxma əldən.

⌘
Əlimdə qədəhlə sənin küçəndən
Hər gecə, sevgilim, sərxoş keçdim mən.
Eşqi şərab kimi tökdüm qədəhə,
Huşa getdim, düşüb sındı əlimdən.

⌘
Gözlərimdən qan yaş axıtdım dünən,
Göylərə sovurdum torpaqları mən,
Kimin duasıdır, bilmirəm, ey dost,
Ki, ölmədim sənin dərya qəmindən.

⌘
Toxunma könlünə biçarə gülün,
İncitmə qəlbini avarə gülün.
Səbanın eşqiylə olmuşdur, ey dost,
O qanlı köynəyi sədparə gülün.

⌘
Meyxanə önündə xumar gözlərin
Dün müjdə verirdi aşiqə min-min.
Zülfünə fərman ver, ağır zəncirdən
Xilas etsin canın bu divanənin!

⌘
Xərabat yeridir igid ərlərin,
Burda yeri yoxdur bədgöhərlərin.
Hörmətlə qədəm qoy bu yola, çünki
Yeri deyil bura hiyləgərlərin.

⌘
Yetməzmi qəribə verdin işgəncə?
Cəfanın hüdudu olmazmı, səncə?!
Demişdin Gəncədə kama yetərsən,
İndi bu mən, bu sən, bax, bu da Gəncə!

⌘
Gül yola baxırdı, rəngi solmuşdu,
Bülbülün eşqiylə gözü dolmuşdu.
Bayaq bəzəndiyi yaşıl paltarı,
İndi parçalayıb dəli olmuşdu.

⌘
Ey ağıllı qoca, deyilsən naşı,
Torpaq ələyinin cavandır yaşı.
De yavaş ələsin, çünki bu torpaq,
Pərviz bədənidir, Keyqubad başı.

⌘

Heç pozan olmadı qəza-qədəri,
Doğradı ümidi eşqin xəncəri,
Eşqin badəsini içdim, can verdim,
Heyhat, tapılmadı eşqin gövhəri!

⌘

Yudun xətaləri, sən ey lütfkar,
Qulluq sırğan bütün qulaqlarda var.
Günahın yükünü götür, ey Allah,
Dar gündə kimsəni sən eyləmə xar!

# RƏZİYYƏ GƏNCƏVİ

*Rəziyyə Gəncəvinin əsərlərinə XIV əsrdə Cəlaləddin Xəlil Şirvaninin tərtib etdiyi "Nüzhətül-məcalis" adlı məcmuədə rast gəlindiyindən alimlər onun XII-XIII əsrlərdə yaşadığını təxmin edirlər.*

## RÜBAİLƏR[1]

Yolun torpağıtək eyləsən də xar,
Yenə də qulunam, ey əziz dildar!
Qərqəm göz yaşına, mərhəmət qılıb,
Alsan ağuşuna məni, nə olar?

⌘
Yuxum yox, getmə sən, canan, gözümdən,
Getməyir göz yaşı bir an gözümdən.
Çünki sən gözümü etmisən məskən,
Sevincdən yaş damır hər an gözümdən.

⌘
O zülfün ahımtək uzundur, canan!
Adətin gözəldir, özün mehriban.
O xumar gözünə mailəm sənin,
Sürmədən heç minnət çəkməyib bir an.

⌘
Tellərin baş əyib öpür səməni,
Bəzəyib səmənlə mişki-xütəni.
Deyirlər ki, xətdir ağ üzündəki;
Xətdir o, gətirib öldürsün məni.

[1] Tərcüməsi Xəlil Yusiflinindir.

⌘
Sənin şah üzünə baş əydi bahar,
Hərə bir xidmətçün öndə durdular.
Nazın vəzir oldu, qaşın qapıçı
Ləlin də arada saqidir, ey yar!

⌘
Ayı səndən artıq saymayır könlüm,
Ey sənəm! Hüsnündən doymayır könlüm.
Ləbindən bir busə alandan bəri
Şəkərdən dadmağa qoymayır könlüm.

⌘
Yolunda həyatım bir zillət oldu,
Bir anlıq vüsalın min afət oldu.
İntizar süfrəndə könlümün qanı
O şirin ləbinə bir şərbət oldu.

⌘
Şagirdəm saçına düyün vurana,
Ustadam hüsnünə büsat qurana.
Gözümdən o qədər yaş tökmüşəm ki,
Səqqayam qapında xadim durana.

⌘
Gördüm evə gedir məsti-məstanə,
Yanında bir neçə yadü-biganə,
Yetirdim özümü mən çırpdım ona,
Necə şama vurar özün pərvanə.

# GÜLŞAD

*“Təsnifi-Gülşad” adlı yeganə əsərindən başqa əldə heç bir yazısı mövcud olmayan Gülşad, təxminən XVI əsrin sonu, XVII əsrin birinci yarısında yaşadığı ehtimal olunur. Yeganə əsəri əsarətdə, ağır, ələmli həyat keçirən, ata-ana qucağından, doğma yurdundan qoparılıb qəribliyə aparılan “yesirlərin” dərdinə tərcümandır.*

**TƏSNİFİ-GÜLŞAD**

Göydən ötən bölgü-bölgü durnalar,
Bizdən salam olsun Əcəm elinə!
Yaşıl geymiş sarı telli durnalar,
Bizdən salam olsun Əcəm elinə!

⌘
Bizi apardılar tatar xanına,
Fitva verdilər yesirin qanına,
Bir namə göndərdim Məşhəd kanına,
Bizdən salam olsun Əcəm elinə!

⌘
Bizi göndərdilər Şahisərdən,
Rum ölkəsi varid oldu yesirdən,
Ol Şamü Hələb, şəhri-Misirdən,
Bizdən salam olsun Əcəm elinə!

⌘
Beş qız idik bir arada, bu yerdə,
Ya ilahi, dərman elə bu dərdə!
Canım durna, hər vətəndə, hər eldə,
Bizdən salam olsun Əcəm elinə!

⌘

Axan çaylar yesirlərin yaşıdır,
Ahu-naləm göydə mələk eşidir.
Canım durna çərxü fələk işidir,
Bizdən salam olsun Əcəm elinə!

⌘

Budur gəldi yesirlərin karvanı,
Çağırıram, ya mövlana, ya qəni,
Qara geydi əcəm pirü cavanı,
Bizdən salam olsun Əcəm elinə!

⌘

Bizi ayırdılar ata-anadan,
Ya rəbbim, sən qurtar bu qəmxanadan,
İstanbul şəhrindən, Qostantinadan,
Bizdən salam olsun Əcəm elinə!

⌘

Bu sözü söyləyən yanar özündən,
Yaş yerinə qan tökülər gözündən,
Məlik, qan Gülşadın sözündən,
Bizdən salam olsun Əcəm elinə!

# SAHİB SULTAN DÜNBÜLİ

*Sahib Sultan xanım Şahbaz xan Dünbülinin qızıdır; Güney Azərbaycanın Dünbül şəhərində yaşamışdır. Yüksək şeir istedadına malik olan bu qız incəsənət sahəsində çox qabiliyyətli imiş. Mənbələrdə şahzadə Həsənəli Muradın tərifi münasibətilə bir şerinə rast gəlinir. Şerin iki variantda tərcüməsi oxuculara təqdim olunur. Haqqında başqa məlumat yoxdur.*

***

O güllü bağçanıza yaxın olsa da əğyar,
Bu məni nə qorxuya, nə də bir dərdə salar.
Çünki mən də bir zaman sizə yaxın olmuşam,
Elə bu yaxınlıqdan bir arzu kam almışam.
Var olsun bu cahanın şahənşahı şahzadə,
Ağıllılar içində cavan Mahmud dünyadə.[1]

***

Rəqib oldu şaha yaxın, qəm edərəm... Bilin fəqət,
Bir vaxt mənə məxsus idi o yaxınlıq, o məhəbbət.
Bu cahanın şahənşahı ol şahzadə Mahmud ki var –
Başındakı pir ağlıdır, alnındasa – enməz vüqar.[2]

---

[1] Tərcüməsi Nigar Rəfibəylinindir.
[2] Tərcüməsi Hidayətindir.

# FATMA XANIM ANİ

*Təbrizli Xacə Sədəddin Hüseyncanın qızıdır. İstanbulda doğulub böyümüş və təhsil görmüşdür. Deyilənə görə şeir divanı varmış. Fatma xanım Ani 1710-11-ci illərdə Yeni Şehirdə vəfat etmişdir. Şərqin məşhur qadın şairlərindən bəhs edən bütün mənbələrdə haqqında məlumat mövcuddur.*

**QƏZƏL**

Fəramuş etdi xeyli dəm məni yad etmədən qaldı,
Mənim çox sevdiyim, məhzunu dilşad etmədən qaldı.

Nola təmirinə qəsd etməsə şahi-cəhanbanim,
Bilür kim, xatiri-viranim abad etmədən qaldı.

Qalıbdır bəhri-qəmdə dil, fələk, yox sahili-məqsud,
Heyflər... Ruzigarım bana imdad etmədən qaldı.

Düşəndən rahi-eşqi-yarə zarü natəvandır dil,
Səri-kuyində halim yarə fəryad etmədən qaldı.

Neçün dər pey olur Ani ki, hali-Qeysi bilməzmi?
O bimarə yetirdi kəndini irşad etmədən qaldı.

# XƏDİCƏ SULTAN XANIM

*Xədicə Sultan xanım Həsənəli xan Dağıstaninin qızı, "Riyazüş-şüəra"nın müəllifi Əliqulu xan Valehin əmisi qızıdır. Əmisi oğlu ilə sevişmiş, onunla eyni bir mədrəsədə təhsil almışdır. Şairə Nadir şahın hakimiyyəti dövründə İsfahanda yaşamışdır.*

***

Mən saqiyəm – şərab hazır,
Təşnə aşiq, bax ab[1] hazır!
Ləl dodağım sudur sənə,
Buyur mənim ləllərimə,
Ləllərimlə şərab hazır!
Gözəlliyin qarşısında
Günəş özü nə karədir,
Buyur mənəm, ömür gedir,
Buyur mənəm, günəş hazır![2]

---

[1] Ab – su

[2] Tərcüməsi Hidayətindir.

# GÜLGƏZ

*Əsas etibarilə bayatıçı kimi tanıdığımız Gülgəz adlı sənətkarımız haqqında mənbələrdə heç bir tərcümeyi-hal məlumatına təsadüf olunmur. Hansı əsrdə yaşadığı belə məlum deyildir. Bayatılarına XVIII əsrdə üzü köçürülmüş cünglərdə rast gəlinir.*

## BAYATILAR

Seyvanın qur ucada,
Kor möhtac quru cada.
Gülgəzin göz yaşından
Qalmadı quru canda.

⌘
Bağında ha səndəli,
Mən dəli, ha sən dəli,
Gülgəz, yarana dəysin
Təbibin hasand əli.

⌘
Gülgəzin gül adaşı,
Mey daşı, gül a daşı,
Yıxar bülbül öyünü,
Kim asta gülə daşı.

⌘
Gülgəzinə qıy davar,
Mehman üçün qıy davar,
İtirməmiş ağlını
Bir kamanın qıy da, var!

# AĞABƏYİM AĞA AĞABACI

*Ağabacı təxəllüsü ilə farsca və azərbaycanca şeirlər yazan şairə Ağabəyim ağa, Qarabağ xanı İbrahimxəlil xanın qızı, Xurşidbanu Natəvanın bibisidir. Təxminən 1780–1781-ci illərdə Pənahabadda (indiki Şuşa) anadan olmuşdur. 1801-ci ildə İran hökmdarı Fətəli şaha ərə verilmiş və ömrünün sonuna kimi vətən həsrəti çəkdiyi Tehranda yaşamış, 1832-ci ildə orada vəfat edərək, Darül-iman adlandırılan Qum şəhərində dəfn olunmuşdur.*

## BEYTLƏR

**1**

Əfsus ki, yarım gecə gəldi, gecə getdi,
Heç bilmədim ömrüm necə gəldi, necə getdi.

**2**

O kəs bəxtəvərdir ki, xoşbəxtdir ki, ey canan,
Özünə mənzil salıb yaxın yerdə bağından.

**3**

Sənin o gül bağçanın ətirlidir havası,
Mənim də bu könlümün yalnız odur dəvası.

**4**

O səfərə çıxanda mən qüssəyə dalaram,
Dəvəsinin boynunda özüm bir zəng olaram.

**5**

Ey naseh, nəsihətin mənə əbəsdir, əbəs,
Ətəkləyər sözlərin atəşimi, – söndürməz.

**6**

Hüsnünün tərifini həşrə qədər yazsalar
Nə tərifin qurtarar, nə həsrətim azalar.[1]

***

Mən aşığam qara bağ,
Qara salxım, qara bağ,
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

[1] Tərcüməsi Nigar Rəfibəylinindir.

# GÜLLƏR PƏRİSİ

*1790-cı ildə Borçalının Faxralı kəndində anadan olmuşdur. Evdar, kəndli qadın olan Güllər Pərisi saz-söz aşiqi olmuş, deyilənə görə 135 il ömür sürmüşdür. Aşıq şerinin qayda-qanunlarına, el havalarına bələd olduğu əsərlərindən bəllidir.*

**QARDAŞ**

Qarsa tərəf baxıb-baxıb ağlaram,
Vurulub köksümə yaralar, qardaş!
Sinəm üstün çalın-çarpaz dağlaram,
Dolanır könlümdə haralar, qardaş?!

Eşqin badəsini yaman içibsən,
Dərd əlindən türk elinə qaçıbsan,
Qohumdan-qardaşdan niyə keçibsən?
Divan işə baxıb aralar, qardaş!

Qəlbim qövr eyləyir köhnə yaradan,
Çox keçməz, çıxarsan qorxu-qaradan,
Sıra dağlar çəkilsəydi aradan,
Görünərdi gözmə oralar, qardaş!

Pəriyəm, dərdinə dözə bilmirəm,
Savadım çatmayır, yaza bilmirəm,
Sənsiz bu dünyada gəzə bilmirəm,
Gəlməsən bacılar saralar, qardaş!

## QAFQAZ CANİŞİNİNƏ

*Qardaşı üçün xahişə gələrkən*

Hökmdarsan, hüzuruna gəlmişəm,
Amandı, qardaşım eldən ayırma!
Qocalıb anamız gözü yoldadı,
Bülbülü çəməndən, güldən ayırma!

Tapılmırdı, vətənindən qaçmışdı,
Tərlan idi yuvasından uçmuşdu,
Yad ölkəyə, qəribliyə düşmüşdü,
Bağışla, o tuti dildən ayırma!

Pəriyəm, gəlmişəm sizə minnətə,
Amandı, qardaşım salma zillətə,
Çəkib cəzasını, düşüb qürbətə,
Yaşılbaş sonanı göldən ayırma!

***

...Qadir Allah, gəl rəhm eylə bu çağa,
Qoyun necə tab gətirir bıçağa?
Qoyallar qəbirə, bükəllər ağa,
Nəkraillər sual etsə nə deyim?

# HEYRAN XANIM

*XIX əsrin əvvəllərində yaşamış (1790–1860) görkəmli Azərbaycan şairlərindən biri də Heyran xanımdır. Şairənin Azərbaycan və fars dillərində olan 4500 beytlik divanı onun həyatı haqqında müəyyən həqiqətləri öyrənməkdə kömək edir.*

*Heyran xanım Füzuli ədəbi məktəbinin məharətli davamçılarındandır. O, əruz vəzninin müxtəlif oynaq bəhrlərindən istifadə etmiş, heca vəzninə yaxın bəhrlərdə bir sıra şeirlər yazmışdır.*

## QƏZƏLLƏR

Könlüm quşu ol zülfi-pərişan arasında,
Biçarə qalıb cənnətü niran arasında.

Gör kim necə sərgəştə qalıb valehü tənha,
Ol xali-xəta ilə Bədəxşan arasında.

Tüğyan eləyib dərdü qəmim, bu dili-zarım
Bir kəştiyə bənzər qala tufan arasında.

Dil zülf ilə rüxsarına çün qıldı tamaşa,
Avarə qalıb küfr ilə iman arasında.

A, gör nə əcəb möcüzədir kim, necə bitmiş
Bir sümbüli-tər atəşi-süzan arasında.

Ey dil, eləmə qəm ki, onun yoxdu təfavüt
Kuyində çu dərviş ilə sultan arasında.

Çün yar qılıb lütfünü kəm, hanı o həmdən,
Ta sülh qıla yar ilə Heyran arasında.

* * *

Yarın ləbi, gör, ləli-Bədəxşani bəyənməz,
Dürci-dəhəni qönçeyi-xəndani bəyənməz.

Hər kim görə dəndanlərin gahi təbəssüm,
Həm gövhəri, həm lələi-qəltanı bəyənməz.

Yarın məhi-ruyini görən ruyi-zəmində
Göydə dolanan mehri-dirəxşanı bəyənməz,

Ol zülfi-səmənsayə baxan dövri-rüxündə
Gülzarıdəki sünbüli-reyhani bəyənməz.

Yarın qədini görsə əgər qumriyi-bidil,
Gülşəndə bitən sərvi-xuramanı bəyənməz.

Hər kəs ki, tutulub kuyi-vüsalində təməkkün,
Billah, verələr təxti-Suleymanı, bəyənməz.

Ey şahi-zaman, şahi-cahan, gərçi Züleyxa,
Görsə üzünü, Yusifi-Kənanı bəyənməz.

Hər kəs ola carubəkəşi-dərgahi-canan,
Bil bunu yəqin, təxtdə soltanı bəyənməz.

Heyran əgər tutsa vətən yar qapısında
Gəlməz gözünə rözeyi-rizvanı bəyənməz.

* * *

Bir namə yazım, badi-səba yarə yetirsin,
Şərhi-qəmimi ol büti-xunxarə yetirsin.

Hicran əlimi saldı ayaqdan məni-zari,
Daruyi-vüsalin mənə bir çarə yetirsin.

Səbrim kəsilib, yar mənim canımı alsın,
Ya şad eləsin vəsl ilə, didarə yetirsin.

Dünyadə və üqbadə görüm mətləbə yetsin,
Hər kəs məni ol yari-vəfadarə yetirsin.

Bir yol verin, ey möhnəti-hicran ki, peyamım,
Ta badi-səba ol gülü gülzarə yetirsin.

Yüz həsrət ilə bu dili-hicranə giriftar
Əzm etdi özün ol güli-bixarə yetirsin.

Yüz geyş ilə səddi-rəh olub xaric-sitəmkar,
Qoymadı özün ol gülə biçarə yetirsin.

Gəl, tanrı üçün bunca sitəm eyləmə izhar,
Qoy, yarə özün bu dili-avarə yetirsin.

Bikəsliyimə rəhm eləsin xaliqi-biçun,
Heyrani o şəhbazə digər barə yetirsin.

* * *

Könlün diləsə bu dili-viranə dağılsın,
Çək naz ilə ol zülfünə bir şanə, dağılsın.

Min aşiqi zəncirə çəkib, bavərin olmaz,
Bir tarixi ur çöllərə divanə dağılsın.

Bu bəzm ara cəm çəkər həsrəti-saqi,
Ey piri-muğan, əmr elə, peymanə dağılsın!

Məst oldu çu üşşaq sənin ləli-ləbindən,
Nə məsrəfi var bizlərə meyxanə dağılsın.

Ol iki ləbin vəsfini çək rişteyi-nəzmə,
Ver badi-səbayə ki, bu dövranə dağılsın!

Zülfün girehi çünki dolub mürği-dil ilə
Ol keşməkeşi qoyma gülüstanə dağılsın!

Xali-siyəhin mülki-Bədəxşanı qılıb fəth,
Fərman deyə yaz, səfheyi-İranə dağılsın.

Yoxdur o sənəm, onda dü əbruyi-xəminə,
Biz səcdə edək, qoy bütü bütxanə dağılsın.

Heyran, çü yanarsan o qədər şəmə müqabil,
Bir vəz ilə çək şölə ki, pərvanə dağılsın.

* * *

Olubdu ğəm yatağı şad gördüyün könlüm,
Dağıldı qüssədən abad gördüyün könlüm.

Diyari-ğəmdə giriftarü dəstgir olu,
Kəməndi-firqətə, azad gördüyün könlüm.

Fəraq dərdinə axtardı, tapmadı çarə,
Cəmi-hikmətə ustad gördüyün könlüm.

Səriri-vəsldə Xosrov sifət oturmuşdu,
Olubdu kuhdə Fərhad gördüyün könlüm.

Fəraqi-möhnətə düşüb və pərşikəstə olub,
Visal seydinə səyyad gördüyün könlüm.

Hücumi-möhnəti-qəmdən süpehri-əlayə,
Yetirdi naləvü fəryad gördüyün könlüm.

Çəkib şərarələr, etdi vücudumu heyran,
Misali-kureyi-həddad gördüyün könlüm.

* * *

Ey sitəmkar, məni rüsvayi-cahan eyləmisən,
Gözümün yaşını çün Dəclə, rəvan eyləmisən.

Həmnişan eyləmisən düşməni, ey mayeyi-naz,
Rəşkdən canım alıb, bağrımı qan eyləmisən.

Gün kimi arizinə zülfi-çəlipanı salıb,
Günü gör əbri-siyəh içrə nihan eyləmisən.

Naz ilə, işvə ilə seyr eləyib gülzari,
Göstərib möcüzə sən, sərvi rəvan eyləmisən.

Bir canım var idi, ey şux ki, aldın o zaman,
Özgə can dəxi bu bikəsdə güman eyləmisən?

Qaşların tiği-sitəm almış ələ, kirpiyin ox,
Öldürsən məni nahəq yerə, qan eyləmisən!

Neçin, ey şux, niqabın götürübsən üzdən,
Ruyi-xurşidvəşin xəlqə əyan eyləmisən?

Almısan əqlimi sərdən mənim, ey afəti-can,
Qəddimi möhnəti-hicrindən kaman eyləmisən!

Həsrəti-vəslüvilə, ey məhi-mən, Heyranı
Başı yerdə, gözü yolda nigəran eyləmisən.

* * *

Seyr edin, gərdəni minayə baxın!
Sərimi saldı nə sevdayə, baxın!

Zülfi-mişkini salıb arizinə
Gün küsuf eyləyib, ol ayə baxın!

Can alar qaşı, tökər kirpiyi qan,
Mərhəba ol oxa, ol yayə, baxın!

Qəmzəsi qanlar içib, məst olub,
Can alan nərgisi-şəhlayə baxın!

Əksi-mey çöhrəsini al qılıb,
Açılıb, ol güli-həmrayə baxın!

Gör bənəfşə açılıb, ya ki salıb
Xətti gün arizinə sayə, baxın!

Bükübən qamətimi dal eləyib,
Sərv tək ol qədi rənayə, baxın!

Hicri ol mah rüxün Heyranı
Saldı Məcnun təki səhrayə, baxın!

* * *

Eşqində nəzar, həm qəmin mən,
Qayətdə lətifü nazənin sən.

Sən cümlə gözəllərin içində
Xurşidcamal, məhcəbinsən.

Vəslində qalıb zəbanım aciz,
Tərifdə mahi-biqərinsən.

İnsan da olurmu böylə incə,
Ey şux, məgər ki, huri-eynsən?!

Sən tək hanı gövhər, ey pəriru?!
Lölöi-tərü düri-səminsən.

Hər hüsn desən varındı, amma
Nə fayidə, xuyi atəşinsən.

Yarın səni atdı getdi nakam,
Heyrani-fəqir, sən qəminsən!

* * *

Ol ləl ləbindir, ya nabatdı?
Ya mənbəi-çeşməyi həyatdı?

Bir busə bu aşiqə əta et,
Möhtacdı, nə versəniz zəkatdı.

Tən et məni, ya nəvaziş eylə,
Hər nə desən aşiqə nicatdı.

Can verməyə hazıram yolunda,
Hicrin üzü könlümü qanatdı.

Sənsiz gözümün yaşı dayanmaz,
Hər qətrəsi Dəclədi, Fəratdı.

Dözməm bu fərağına cahanda,
Çün ayrılığın mənə məmatdı.

Eşqin kədəri, qəmi azaldar,
Mehrin boğulanlara qanatdı.

Əfsus ki, tutmur eşqilə səbr,
Bir yerdə görünməyən təzaddı.

Heyran, yenə döz, səbirli ol sən,
Kim səbr elədi, o, kama çatdı.

* * *

Yetişib müjdeyi-canbəxş ki, canan gəliri,
Canibi-gülşənə ol sərvi-xuraman gəliri.

Ayrılıq dərdi məni saldı ayaqdan, yarım
Etməyə bu dili-pürdərdimə dərman, gəliri.

Əsibən badi-səba zülfi-siyahin dağıdıb,
Mehr tək mah üzü oldu dirəxşan, gəliri.

Qaməti sərv-səhi, zülfi kəmənd-dilü can!
Üzü gül, qaşı kaman, kirpiyi peykan gəliri.

Çün təbəssümlə olub ləl-ləbi dürrəfşan,
Səhni-gülzar olub gülləri xəndan gəliri.

Görsədib arizini, aləmi pür nur qılıb,
Gün tülu etdi, üfüqdən məhi-taban, gəliri.

Xəncəri-naz ilə qəmzə oxun almış əlinə
Aşiqin qəsdinə bir afəti-dövran gəliri.

O nə vəqtdir deyələr, yar ötər şövkətilən,
O nə gündür deyələr: ol şəhi-xuban gəliri.

Gər yetişsən o şəhin xidmətinə, dön başına,
Elə, Heyran, canüvi sən ona qurban, gəliri.

* * *

Ya rəb, kərəm et, ol büti-mehparə qayıtsın,
Bir rəhm eləsin bu dili-bimarə, qayıtsın.

Bu dil ki ona mənzil idi, oldu xərabə,
Əzm etsə əgər yar, dəxi hara qayıtsın?

Şanə çəkibən çin-çin elə, sal üzə zülfün,
Qüllab kimi ucları rüxsarə qayıtsın.

Mürği-dili-zarım genə avarə qalıbdır,
Zülfün xəmin aç, ta ki, bu avarə qayıtsın.

Gəl rəhm elə, qoy aşiqi bir yarə yetişsin,
Ərzin eləsin ol büti-xunxarə, qayıtsın.

Çün kövkəbi-bəxtim yetişib nəhs məqamə,
Bir əmr elə, ta sabitü səyyarə qayıtsın.

Əhd et, edəsən canuvu sən sidq ilə qurban,
Heyran, yar əgər bir də bu gülzarə qayıtsın.

* * *

Ey fələk dərdü qəmim şərhini cananə yetir,
Səbt qıl, mülk xəracini o sultanə yetir.

Daha yox təbü təvan, cismi-zəifimdə mənim,
Ya ki, al canımı, ya dərdimi dərmanə yetir.

Ruhpərvərdi ləbi vəqti-təbəssümdə, səba!
Ruhu bu təndən alıb, ol ləbi-xəndanə yetir!

Gördü ol zülfü könül, oldu pərişan əhval,
Bu pərişanlığımı zülfü pərişanə yetir!

Zülfü ruyin elədi məzhəbimi süst mənim,
Ya məni kafər elə, ya da ki, imanə yetir.

Getdi ol Yusifi-məhru, gözüm, ağlama az,
Xuni-nabi-ciyərin, cəhd elə, ümmanə yetir.

Bunca, Heyrani-həzin, salma ayaqdan özünü,
Gülşəni canda bitən sərvi-xuramanə yetir.

* * *

Zülfün xəmi açılsa əcaib kəmənd olur,
Yüz seydi-dil o silsilədə paybənd olur.

Tirələşər həva dəxi, dağları çən tutar,
Övci-səmayə dudi-dilim çün bülənd olur.

Etdi Səhəndi xak ilə yeksan gözüm yaşı,
Xarü xəs ilə seyl yolu hiç bənd olur?

Bülbül fəğanü nalə çəkər, huşdan gedər,
Hər vaxt kim, o ləli-ləbin nimxənd olur.

Ləli-ləbində varmı məgər çeşmeyi-həyat?
Vər nə bu növilə nə şəkər, nə də qənd olur.

Başdan ayağa cümlə tənin dilpəsənddir,
Hər dilrübadə biri əgər dilpəsənd olur.

Heyrani-natəvanı əziz eylə lütf ilə;
Qədrini bil, hər aşiqi kim dərdmənd olur.

* * *

Ey çərx, mənim ahi-şərərbarıma rəhm et!
Hicrana yanan sineyi-əfkarıma rəhm et!

Sübhə kimi əncüm sayaram fikri-rüxündə,
Hicran gecəsi dideyi-bidarıma rəhm et!

Qürbət ələmi, yar fəraqı məni aldı,
Qürbətdə qalan cani-giriftarıma rəhm et!

Tənha qalıban bikəs olub, yardən ayrı,
Bikəsliyimə, həsrəti-bisyarıma rəhm et!

Əşk ilə edib hər tərəfə seyl rəvanə,
Çün əbr sifət çeşmi-gühərbarıma rəhm et!

Hicrani-rüxi-yar məni saldı ayaqdan,
Çatdır məni ol munisi-qəmxarıma, rəhm et!

Yüz zəhmət ilə xamuş olub bu dili-viran,
Heyran, fəğan etmə, dili-zarıma rəhm et!

* * *

Sərvdir qamətin, ey mah, üzün bir güldür,
Dövrəsində üzünün zülf və ya sünbüldür.

Qamətin vəsfi, camalın sözü dillərdə gəzər,
Hüsnünə nəğmə qoşan gülşən əra bülbüldür.

Danə tək etdi könül mürqini ol xalın əsir,
Zülfünü boynuma zəncir eləsən, qabildir.

Çəkmişəm dəhrdə hər növ bəlalər, əmma,
Ayrılıq dərdi mənimçün hamıdan müşgüldür.

Vəslin, ey yar, sanardım özümə abi-həyat,
Kim dedi zəhri-fəraqində məni zar öldür.

Soruşursan nəsəjini bu yazıq Heyranın,
Bir Əli xadimidir, cümlə cahanə bildir!

Naxçıvan şəhrinin əşrafına çatsa həsəbi
Əslinə varsan əgər, tayifəsi Dünbüldür.

* * *

Ey badi-səba, sərv boy, ay üzlümü görsən,
Mən quldan o sultana salamlar yetirərsən.

İnsafa gəlib halımı hərgah soruşarsa,
Can çəkməyimi sorğusuna müjdə verərsən.

Misrin o gözəl Yusifinə könlümü verdim,
Bir sor ki, Züleyxa nə üçün düşdü nəzərdən.

Məcnun da sənin yarını gər görsə, əzizim,
Öz Leylisini bir daha anmaz bunu bil sən.

Ey vah, nə edim, sevgilimi aldı əlimdən,
Axırda fələklər də kəsildi mənə düşmən.

Tanrım da bilir, zərrəcə torpağını yarın,
Hətta bu cahan mülkünə tərcih eyləməm mən.

Axırda əgər ümmidi-vəslin hədər olsa,
Göylər alışar, od tutar odlu nəfəsimdən.

Ahımla bütün dağları, səhraları billah,
O kinli ürəklər kimi zülmətli görərsən.

Tut barı əlimdən, dolanım başına, dilbər,
Arzum da, təmənnam da budur, ey üzü rövşən.

Ey gül, daha Allah da bilir istəmir Heyran
Sənsiz yaşamaq, duymamısan dərdini qəlbən.

* * *

Görsə Ay, ya ki, Günəş nuri-cəmalini sənin,
Sovurar öz başına xaki-məhalini sənin.

Saydı aşıqlar o gül çöhrəni qəlb ayinəsi,
Qiblə etdi ürəfa əbri-hilalini sənin.

Harut öz sehrini yaddan çıxarar, görsə əgər
O gözəl gözlərini, seyrü vüsalini sənin.

Dirilik çeşməsidir sözlərin ariflər üçün,
Daha üstün sayır onlar ləbi-alini sənin.

Tutmağa can quşunu tor ilə dən lazımdır,
Dedilər tor saçını, dən isə xalini sənin.

Xızr tək ölməz olar bağrına kim bassa yəqin
O gül əndamını bir də pərü balini sənin.

Tanrı odla çiçəyi yan-yana xəlq etmiş ki,
Dərdli Heyran ətrindən duya halini sənin.

* * *

Əsiri-möhnəti-hicran mənəm, mən.
Qəribü zarü sərgərdan mənəm, mən.

O gülzari-visalindən uzaqda,
Çü bülbül ruzi-şəb nalan mənəm, mən.

Nə mənzil, nə məkan, nə xaniman var,
Cahanda xəstəyi-dövran mənəm, mən.

Sənin hicrin ilə, ey şəmsi-taban,
Buludtək daima giryan mənəm, mən.

Bu məclisdə olub pərvanə misli,
O nari-eşqilə suzan mənəm, mən.

Əsiri-zülfün içrə yox mənəm tək,
Sədaqətlə sənə qurban mənəm, mən.

Qanıma təşnəsən sən, ey sitəmkar,
Üzünə valehü Heyran mənəm, mən.

* * *

Qəmi olmaz o kəsin, yarı mehriban olsa,
Yüz təəssüflər əgər mən kimi nalan olsa.

Qoy ürək-hicrdən atəşlərə yansın nə qəmim,
Demərəm uf da gözüm yaşı dönüb qan olsa.

Məni kim qarğadı yarəb, onu düşsün dərdə,
Neylərəm mən ümidim bağçası viran olsa?

Vəslə yoxdur gümanım, səbr edərəm, ya rəbbim,
Ol rəqibin də işi ah ilə əfğan olsa.

Qəmi-hicrinə dözən dəhridə yoxdur mən tək,
Ümidim min gül açar yar mənə mehman olsa.

Taleyin əmri budur, incimə ondan Heyran,
Eşqinə kim inanar, vəslətin asan olsa.

* * *

Ey badi-səba, gedib güzər qıl,
Əfqan eləyib cahani kər qıl.

Gər naləni dinləməzsə, fövrən,
Ahəngi-təraneyi-digər qıl.

Ey göz, daha durma, qanlı yaş tök,
Ey naleyi-biəsər, əsər qıl.

Söylə: "büti-səngdil, sən Allah,
Bu aşiqinə bir az nəzər qıl!"

Gördün ki, sənə cavab yoxdur,
Bu sözlərimi de, müxtəsər qıl:

“Ya kəs başımı və ya apar sat,
Ya könlümü eşqdən bədər qıl!”

Sonra qayıdıb sən ahın ilə
Heyrani-həzinə bir xəbər qıl!

**MÜXƏMMƏS**

Dustan! Hali-dili-zarimi dildarə deyin,
Şərhi-əhvalımı ol yari-sitəmkarə deyin!
Ruhu cismimdən alan ol büti-xunxarə deyin!
Bəlkə bir rəhm edə bu ahi-şərərbarə, deyin!
Məni hicran ələmi saldı nə odlara, deyin!

Vəh ki, girdabi-bəla içrə şikəst oldu tənim,
Qərqi-tufan oluban, həddən ötübdür ələmim.
Yoxdu bir yari-vəfadar, bu dəm tutsun əlim,
O sitəmkarə belə ərz eyləyin dərdü qəmim,
Qalmışam qürbət ara, bikəsü qəmxarə, deyin.

Etdi dərmaninə möhtac o məhparə məni,
Qoydu bu çöllər ara bikəsü avarə məni.
Mübtəla etdi fəraqə genə xunxarə məni,
Gər ki, sizdən xəbər alsa o gözü qarə məni,
Əli yardan üzülüb, oldu günü qarə deyin!

O cavanə ki, qədi sərvi-dilaradır onun,
Üzü gül, xali siyəh, zülfü çəmənsadır onun,
Yusifi-dəhr ki, şeydası Züleyxadır onun,
O təbibə ki, ləbi ləli-Məsihadır onun.
Çarəsiz dərdimə, şayəd, eyləyə çarə, deyin!

Olmaz ol yari-vəfadarə qərin huri mələk,
Qəmi-hicrində məni-qəmzədəyə yoxdu kömək,
Ümidim vardı ki, ol mah rüxü bir də görək,
Bürci-sədi şərəfindən ayırıb, çərxi-fələk,
Kokəbi-bəxtimi saldı genə idbarə deyin.

Dustan! Saldı ayaqdan məni hicran sitəmi,
Fələyin möhnəti, həm ayrılığın dərdi, qəmi.
Yandırıb bağrımı, həm çak qılıbdır sinəmi,
Etdi pamali-sitəm canımı qürbət ələmi,
Zəhri-hicran eləyib bağrımı sədparə, deyin!

Yarəb, ol bir də görər yarı kənarində dəxi?
Qönçeyi-gül açılıb baği-baharində dəxi,
Xali yer yoxdu onun cismi-fikarində dəxi,
Qalmadı tabü təvan cün dili-zarində dəxi.
Eləsin rəhm bu Heyrani-giriftarə, deyin!

## MÜSTƏZAD[1]

Ol sərvi-sərəfraz ki, boylandı qapımdan,
Nur saldı cəhanə.
Oxşatdım onun qəddini gördükcə xuraman,
Bir sərvi-rəvanə.
Parlaq üzü məşriqdə edən dəmdə təcəlla,
Qəlb oldu pərişan.
Oldu ciyərim parə o kirpiklər ucundan,
Od düşdü bu canə.
Gülşəndə boy atdı o qızılgül kolu azad,
Qönçə verib açdı.
Min güllə o gülzari edib xürrəmi-xəndan,
Həm getdi xəzanə.

[1] Tərcüməsi M.Soltanındır.

Tuti özü, qumru özü, bülbül özü labüd
Cəm oldu pərəfşan.
Yarpaq özü, meyvə özü, yüz rəngilə əlvan
Gəlmiş bu cahanə.
Leyli kimi aşiqləri bitaqət edibdir,
Ol türreyi-tari.
Yəqub kimi məskəni olmuşsa da Kənan,
Gəlmişsə fəğanə.
Yusif kimi Misr içrə qızıl təxtdə sultan,
Olmuş o yeganə.
Gah sevgi diyarında olub Xosrovü Pərviz,
Fərhad kimi gah.
Tale əlinə tişə verib zari-pərişan,
Bədbəxti-zəmanə.
Bir dərdə giriftar olarkən iki aşiq,
Olmuş biri xoşbəxt.
Kamincə cahan, digərinin qisməti hicran,
Min dərdə nişanə.
Heyran sənin eşqinlə doğulmuş, a gözəl yar!
Şövqinlə yaşardı.
Eşqin həvəsi verdi onun ömrünə payan,
Torpaqda nəhandır,
Bədbəxti-zəmanə!

# AŞIQ PƏRİ

*XIX əsrin birinci yarısındakı aşıq şerinin ən görkəmli nümayəndələrindən biri olan Aşıq Pərinin həyatı və yaradıcılığı haqqında məlumat verən mənbələr, şairənin XIX əsrin əvvəllərində Araz qırağındakı Maralyan kəndində yaşadığını və sonralar Şuşaya gəldiyini qeyd edirlər.*

*Adolf Berjenin göstərdiyinə görə Aşıq Pəri 1829-cu ildə 18 yaşında imiş. Buna əsasən şairənin təxminən 1810-1911-ci illərdə doğulduğunu güman etmək olar. Eyni zamanda bütün mənbələr onun çox gənc ikən vəfat etdiyini göstərirlər.*

*Aşıq Pəri əsasən aşıq şeri səpgisində lirik şeirlər yazmışdır. Onun bütün əsərləri bizə gəlib çatmamışdır. Əlimizdə olan əsərlər isə Pərinin istedadlı bir şair olduğunu bildirir.*

## QOŞMALAR

Mürşidi-kamildən dərsimi aldım,[1]
Can götürüb bu meydana gəlmişəm.
Mürği-səməndərin aşinasıyam,
Od tutuban yana-yana gəlmişəm.

Müxtəsər nə deyim, naşısan, naşı!
Tutubdur yaxanı eşqin ataşı,
Bu təriflər zənənə nə yaraşı,
Həq bilir ki, mən mərdana gəlmişəm.

Pünhanıda bir azarım var mənim,
Gözlər yolda intizarım var mənim,
O kəlməndən xiridarım var mənim,
Sən sərrafsan, mən də kana gəlmişəm.

[1] Müasirlərindən şair Tüfeyliyə cavabdır.

Zənbur olar şanda, belə məkanda,
Çox ariflər manda gənci-pünhanda,
Bülbül – abadanda, bayqu – viranda,
Əndəlibəm – gülüstana gəlmişəm.

Pərizadə əl götürməz canından,
Dərsin alıb sahibkamal yanından,
Külli-işin mərifətin kanından,
Bəzm içində mən fəğanə gəlmişəm.

***

Eşitmişdik, qulluğuna yetişdik,[1]
Gördük ki, düşmüsən dildən-dilə sən.
Unutmayıb müsəlmanlıq şərtini,
Matəm tutub bir insafa gələsən.

Bu işdə Qədirin[2] vardır rayı,
Yetən kəslər ona deyir sevdayı.
Aralığa düşüb məhərrəm ayı,
Layiq deyil onda deyib güləsən.

Yaxşı yetər imamı fəryadına,
Belə işin ləzzəti nə, dadı nə.
Adam bildik biz də gəldik adına,
Adamlığı qanmayıbsan hələ sən.

Ey Pəri, təcil et sualında sən,
Nöqsan yetiribsən kəmalında sən,
İmdi zurna çalmaq xəyalındasan,
Onu gərək axirətdə çalasan.

***

Şayistədir, ey mürşüdi-kamilim,[3]
Dostlar arasında etibar ola.

[1] Bu mənzumə şair Cəfərqulu xan Nəvaya müraciətlə yazılmışdır.
[2] Cəfərqulu xanın xidmətçisi
[3] Məhəmməd bəy Aşiqə yazılmışdır.

Şair olan ustadından dərs ala,
Ziddü cinsü rədifdə pərgar ola.

Sən ki, bizə namə yazdın ibtida,
Canı dost yolunda eylədim fəda.
Ovsafi-aləmdə yektadır, yekta
Mələk hicranında bərqərar ola.

Cəvabi-xəttindən olmuşam xoşhal,
Ərz eyləyim qulluğuna vəsfi-hal,
Şənilə şövkətin olsun bizaval,
Gərək xidmətində xidmətkar ola.

Mayiləm hüsnünün xoş irənginə,
Yetə bilmən təcnisimin dənginə.
Sallam səni məhşərin cənginə,
Arif bu yerlərdən xəbərdar ola.

Pəri idim eşq içində aşikar,
Aralıqda yaxşı olur səbəbkar,
Bu cəng meydanında eylərəm şikar,
Əgər Məhəmməd tək səd həzar ola.

***

Katiblərin şahı dəftər içində,[1]
Qələm ilə nazik əllər oynaşır.
Fitnəli, fellisən, nazü qəmzəli,
Dəhanında şirin dillər oynaşır.

Eşqinin əlindən gedərəm dada,
Dərdim olur gündən-günə ziyada,
Şiveyi-rəftarın düşəndə yada
Bağrımın başında millər oynaşır.

---

[1] Şair Mirzə Həsən Mirzaya.

Dad elərəm, haray naşı əlindən,
Yandı cigər eşq ataşı əlindən,
Mən nə deyim gözüm yaşı əlindən,
Üzüşür sonalar, göllər oynaşır.

Adam var dolanır məkrin içində,
Adam var dolanır zikrin içində,
Sənin kamalında, fikrin içində
Əcaib, qəraib hallar oynaşır.

Pəriyəm, xəlq ara olmuşam bacı,
Kimsənin kimsəyə yox ehtiyacı,
Bəlxü Buxaranın, hindin xəracı,
Zənəxdanda siyəh xallar oynaşır.

***

Nə yatıbsan ləhaf bəstər içində,[1]
Bimarmısan, nədir bəs halın sənin?
Eşqin mərəzinin mən təbibiyəm,
Bəyan eylə mənə əhvalın sənin.

İsmi-şərifiniz dada yetişsin,
Mətləb alıb hər murada yetişsin,
Xaliq özü bir imdada yetişsin,
Hifzində saxlasın zavalın sənin.

Bar ilahım gülzarına qıymasın,
Xəstə olan bimarına qıymasın,
Şirin-şirin güftarına qıymasın,
Bağışlasın qaşi-hilalın sənin.

Bir məsəldir: bağban olan bar çəkər,
Əndəlibin həm meyli gülzar çəkər,
Allahına bəndə ahü zar çəkər,
Qəm çəkmə, kamildir kamalın sənin.

---

[1] Şair Mirzə Həsən Mirzaya.

Mən Pəriyəm, eşqə zaram neyləyim,
Dərdi-dildən xəbərdaram, neyləyim,
Burdan ora intizaram, neyləyim,
Şəfalansın nuri-vüsalın sənin.

***

Çanaqçı mülkündən səfər eylədik,
Mənə qənim oldu yollar, ağlaram.
Şəcər gəldi, urdu, şikar eylədi,
Tökər didələrim sellər, ağlaram.

Nagahandan böylə düşdüm dərdə mən,
Necə çəkim eşq üzünə pərdə mən?
Gözü yaşlı gəldim Tağaverdə mən,
Pərişan olubdur tellər, ağlaram.

Bir şahandaz şahvarım gedibdür,
Kəsilübdür ixtiyarım gedibdür.
Köksü dağlu bir tavarım gedibdür,
Quruyub lal olub dillər, ağlaram.

Bir Pəri dil aramında qan ağlar,
Çəkilib sinəmə dügünlü dağlar,
Ölübdür bülbülüm, lal olub bağlar,
Saralıb-sovulub güllər, ağlaram.[1]

### *Məhəmməd bəy Aşiqə*

Ruşən gecəsində, xoş bir saatda,
Namə gəldi bu səhrayə sevdiyim.
Yaxşılıq yazılsa yaman dəftərə,
Nə deyərsən bu binayə, sevdiyim.

[1] Bu şeir Aşıq Pərinin çox sevdiyi Badamın vəfatı münasibətilə yazılmışdır.

Hər qul öz yerinin bünyadı olu,
Oxuyan kəslərin savadı olu,
Dərdlinin fələkdən amadı olu,
Minnət elər bu dünyayə, sevdiyim.

Ərzi tulanidi, bu müxtəsəri,
Çoxları eşqdən olub sərsəri.
Anlayıb əhli-dil olandan bəri,
Ömr baqi getdi zayə, sevdiyim.

Ey Pəri, müxtəsər bir cavab eylə,
Şayəstədi rücu edən aqilə,
Rəqiblər danışır inqilab ilə,
Qoşulmaram mən hərcayə, sevdiyim.

## GƏRAYLILAR

Zalım Şəcər dad əlindən,
Sən ha nahaq qan eylədin.
Zülmilə könlüm şəhrini,
Gör necə viran eylədin.

Saymadın sultanı, xanı,
Eyləyibsən nahaq qanı.
Badam kimi novcəvanı,
Yer ilə yeksan eylədin.

Necə qıydın gülzarına,
Pünhan keçən iqrarına,
Saldın yollar kənarına,
Dörd yanı al-qan eylədin?

Pərinin dərdi tüğyandı,
Sakin yeri Maralyandı,
Gülüm qonçasında yandı,
Bülbüllər əfğan eylədi.

## DEYİŞMƏLƏR

**N ə v a**

Sən ey Pəri, məlik pərvərdəsisən,
Həmişə deyirdin, biz çakər ona.
Nədən ötrü bizdən kənar gəzərsən.
Nə mane olubsan sərasər ona?

**A ş ı q  P ə r i**

Nə şayistə bu sözləri danışmaq
Büsyardır mərdi-xidmətkar ona.
Saymırdın sultanı, xanı, paşanı,
Nə şah bir söz deyər, nə sərdar ona.

**N ə v a**

Nə xoş güftarı var, nə xoş sadədir,
Bu dərdim hamıdan min ziyadədir,
Doğrudur, dibaçə məlikzadədir,
Bəs nədən deyirlər zülmkar ona?

**A ş ı q  P ə r i**

Xanzadəsən, mən tanıram sözündən,
Əyri demə, doğru söylə düzündən,
Zalımlıqda xəbərin yox özündən,
Hər yerdə deyərlər rahbər ona.

**N ə v a**

Arifəm bu yerdə yarı görəndə,
Mən nə deyim, bu düxtəri görəndə?
Əql itirdim, sən əğyarı görəndə,
Neçin göstəribsən etibar ona?

**A ş ı q  P ə r i**

Dağam gül yanında xarı görəndə,
Tərlan oylağında sarı görəndə,
Sən ki eşq əhlini karı görəndə,
Pəriyəm duaçı aşikar ona.

* * *

**Məhəmməd bəy Aşiq**

Qarşıda Pəri yeri,
Dizaqda Pəri yeri,
Haçan olar, biz evdə
Saldıraq Pəri yeri?

**Aşıq Pəri**

Qəlyanın səri yeri,
Eşqin əsəri, yeri,
Ağlına dua yazdır,
Olma sərsəri, yeri!

**Məhəmməd bəy Aşiq**

Yeri, sərsəri, yeri,
Anla sirr, səri yeri,
Sərvim, qoynuna girsəm,
Ollam sərsəri yeri.

**Aşıq Pəri**

Aşığam Maralyana,
Od düşüb Maralyana.
Necəsən bir ah çəkim,
Dağlarda maral yana.

# TAHİRƏ QÜRRƏTÜLEYN

*Əsil adı Zərrintac olan Tahirə Qürrətüleyn qəzvinli Hacı Molla Salehin qızı idi. 1819-cu ildə ruhani ailəsində doğulub, təlim-tərbiyə almış, dərin bilik və savad sahibi olmuşdur. Ərəb, fars və Azərbaycan dillərində mükəmməl savad, təhsil almış bu qız, Babilərin başçısı Mirzə Məhəmmədəli Babın təsirilə həmin hərəkata qoşulmuş, sonralar hətta bir neçə dəfə dövrünə görə mütərəqqi ictimai çıxışlara, üsyanlara başçılıq etmişdir. 1852-ci ildə İran şahənşah hökuməti tərəfindən edam edilmişdir.*

***

Üz-üzə bircə anlığa qalsaq inan ki, ey nigar,
Qüssə qəmin nədir tamam eyləyərəm mən aşikar.

Firqətin incidir məni gözlərimin axır yaşı,
Dəclə kimi, bulaq kimi sanki şəlalə biqərar.

Eşqini həkk edib, həzin qəlb evinin qumaşına,
Saxlamışam əriş-əriş, bəsləmişəm damar-damar.

Görməyə gül camalını gəzmədiyim nə yer qalıb?
Hər tərəfi dolaşmışam sanki qanadlı ruzigar.

Qəlbini gəzdi Tahirə tapmadı səndən özgəsin,
Səndin əzizi munisi soyuqlu qış, həzin bahar.

# ZÖHRƏ XANIM

*Zöhrə xanımın anadan olduğu və vəfat etdiyi tarix dəqiq məlum olmasa da, onun XIX əsrdə yaşadığı təxmin edilir. Usmi sülaləsindən gənc və gözəl Hüseyn xanı sevmiş olan Zöhrə xanım Qacar əmirləri xanədanından idi.*

*"Çəkib rüxsarə yapunci, edər can qəsdin, ol yağı" mətlə ilə başlayan qəzəldən başqa Zöhrə xanımın əlimizdə heç bir əsəri olmadığı üçün şəxsiyyəti və yaradıcılığı haqqında söz söyləmək çətindir. Lakin bu bircə qəzəl də öz məlahət, bədii gözəlliyi və dil zənginliyilə oxucunu heyrətləndirir.*

***

Çəkib rüxsarə yapuncu, edər can qəsdin ol yağı,
Könül Dərbəndini çapdı, qoyanda başə Qaytağı.

Dağıstan dağını gör-gör, sığınmaz dağı köysümə,
Qara geymiş Qumuq xalqı, tutubdur Dəşti-Qıpçağı.

Bitən hər gül olur xoşbu, taalallah, bu mənzildə,
Gülüstani-İrəm bulmuş, məgər bu Qübbə torpağı.

Ləbi-ləli-şəkərbarın təkəllümdən, təbəssümdən,
Sanasan bağ ara titrər səbadan lalə yarpağı.

Gözüm yaşini mən billəm, yıxar könlüm evin axır,
Olur əlbəttə viran, olsa hər mənzil su oynağı.

# QONÇABƏYİM

*Təxminən 1827-ci ildə Naxçıvanda Ehsan xanın ailəsində anadan olmuşdur. Onun atası rus zabitləri ilə dost olmuş, A.Qriboyedov İrana gedərkən onlarda qonaq qaldığı kimi, gürcü şairi Barataşivili də dönə-dönə Ehsan xanın sarayına gəlmiş və burada Qonçabəyimlə tanış olmuşdur.*

*Qonçabəyim 1837-ci ildə Naxçıvanda təşkil edilmiş rus məktəbinə daxil olmuş, rus və fars dillərini yaxşı öyrənmişdir.*

*Deyilənə görə, Qonçabəyim İbrahim bəy adlı bir zabiti sevmiş, lakin 1844-cü ildə sevmədiyi Şamil xana ərə verilmişdir. Güman edilir ki sonralar dillərə düşmüş "Şahzadə İbrahim" dastanına daxil edilən və "Bəyim" dilindən deyilən şeirlərin bir qismi də məhz Qonçabəyimindir.*

Hicran sənətkarı, qəm xəridarı,
Qəddar olan biiqrara, de gəlsin.
Yenə təzələsin didar didarı,
Ciyər oldu həzar para, de, gəlsin.

Ərzi-halım yazdırmışam ərzədə,
Qara bağrım yar zədədir, yar, zədə.
Bir müddət də qaldıq İmamirzədə[1]
Eylədi dərdimə çara, de, gəlsin.

Aşiq olan məşuqəyə mirasdı,
Eşq oduna nahaq yanmaq əbəsdi,
Bizim məskənimiz Tunü Təbəsdi,
Qərib düşdüm bu diyara, de, gəlsin.

Aşiq bilər məşuqənin halını,
Qismət olsa, ələ alaq əlini,
Gözləməkdən bimürvətin yolunu,
Gözümdə qalmadı qarə, de, gəlsin.

---

[1] İranın Məşhəd şəhərində şiəliyin 12 imamından biri olan İmam Rzanın türbəsinə işarədir.

Bizə səg rəqiblər deyirlər asi,
Mövlayə bağladıq yəni ixlası,
Mən Bəyiməm, İbrahimin butası
Gizlin deyil, var aşkara, de, gəlsin.

***

Ey ağalar, məni necin qınarsız?
Eləsə dərdimə bu dərman eylər.
Eşqə düşənləri axırda bu dərd,
Əridər, incəldər, natəvan eylər.

Görüm aralıqda yox olsun yaman,
Üzüm payəndazdır, başım tərciman,
Səndən qeyri mənim dərdimə dərman
Nə Əflatun bilər, nə Loğman eylər.

Göz yaşımdan ərzə yazdım Səttara,
Bəlkə bizi qəm-qayğudan qutara,
Sinə açıq, zülf pərişan, üz qara,
Məni belə görən sənə man eylər.

Şəri qoyub xeyrə qədəm basarlar,
Həqqünnas sözlərə qulaq asarlar,
Təsəddüq veribən qurban kəsərlər,
Bəyim İbrahimə can qurban eylər.

Yeddi tuman, yeddisi də zəncirə,
Qorxum budu dal qapıdan xan girə,
Qoca kaftar bihəyanın əlindən,
Bəyim yazıq yenə düşə mincirə.

Ey mənim laləzar çiçəkli bağçam,
Gülüstan qoynunda fəvvarə vuran.
Sularla həmsöhbət olmaq istərəm
Qorxuram ki, ərim çıxa o yandan.

Könül verib səntək cavan sevmişəm,
Halım qanub, dərdə yanan sevmişəm.

# GÖVHƏR, YAXUD "GÖVHƏR" ADLI ŞAİRƏLƏR

*Təzkirəçi M.Tərbiyət Gövhər haqqında yalnız bunu yazır ki, "Azərbaycanlı xanımlarındandır, bu 2-3 beyt onun fəxriyyəsindəndir". Lakin mənbələrdə Gövhər adı ilə bir neçə beytə və qoşmaya rast gəldik. Bunlardan birisi məşhur şairəmiz Natəvanın bibisi, Ağabəyim ağanın bacısı, İbrahim xanın qızı Gövhər ağadır. O, fars və Azərbaycan dillərini çox gözəl bilmiş, Natəvan əqrəbasının əksəriyyəti kimi, arabir şeir söyləmişdir. Onun məscid bina etdirməsi ilə əlaqədar İbrahim Tahir və başqalarının tərif və mədhiyyələri nəzərə alınarsa, həmin fəxriyyənin məhz Gövhər ağa tərəfindən yazıldığını ehtimal etmək olar. Lakin realist üslubda, aşıq tərzində azərbaycanca yazılmış başqa şeirləri Gövhər ağanın adı ilə bağlamaq doğru deyildir. Buna görə də bu əsərlərin müəlliflərinin hər birini ayrılıqda, mənbələrdə yazıldığı şəkildə oxuculara təqdim edirik.*

## I. GÖVHƏR AĞA:

Şoma dər xanemane-xod bemanid
Ke (ma?) bixaneman budimo rəftim.[1]

## II. GÖVHƏRBƏYİM:

Ənbər saçan tellərimi küləklərə verərsəm!
Səhradakı ahuları öz toruma salaram.

[1] Siz öz evinizdə salamat qalın
Ki, biz evsiz-eşiksiz idik, getdik.
(*Tərcüməsi Hidayətindir*)

Əgər şəhla gözlərimə nazla sürmə çəkərsəm
Bütün yerlə, bütün göylə qara torpaq olaram.

Yolum düşsə kəlisaya tərsa qızlarını da
Öz dinindən çəkindirib öz yoluma salaram.

Bir balaca qəmzəm ilə can verərəm aləmə,
Xəbər edin Musanı da – möcüzəmlə mən varam!

Gözəl göyərçin olsam da əslində bir şahinəm,
Ənqa padşahını da mən şikarımtək çalaram.

* * *

Əgər səbayə verəm zülfi-ənbər əfşanı.
Kəməndimə salaram çöldə cümlə ceyranı.

Əgərçi sürmə çəkəm bu xumar gözlərimə,
Toza büründürərəm mən tamam dünyanı.

Əgər düşərsə güzarım bir an kəlisayə
Əqidəmə çəkərəm düxtərani-tərsanı.

Yarımca işvə ilə min ölüyə can verərəm,
Bu möcüzəm mat edər, şübhəsiz, Məsihanı.

Əgərçi kəkliyəm, amma uçuşda şahbazəm
Bir anda ovlayaram padişahi-ünqanı.

## III. Şirvanlı Gövhər:

Ərşə dayanıbdır ahım,
Yandım, a bədbəxt bacılar.
Zəlzələ bir gör neylədi?
Öldüm, a bədbəxt bacılar.

Zalım fələk qırdı belim,
Xan atamdan üzdü əlim,
Oxşamağa gəlmir dilim,
Yandım, a bədbəxt bacılar.

Getdi igid qardaşlarım,
Sirrim, sözüm, sirdaşlarım,
Uşaqlıqdan yoldaşlarım,
Öldü, a bədbəxt bacılar.

Gövhər deyər: talan oldu,
Yandı Şirvan, viran oldu,
Anam halı yaman oldu,
Soldu, a bədbəxt bacılar.

***

Bacım Xavər, mən yazığam,
Heç soruşma əhvalımı.
Zornan ərə verən gündə
Kəsdilər qeylü qalımı.

Günüm keçir gündən acı,
Qara geydim, yazıq bacı,
Qaynanam baxır qıyqacı,
Tökür dəymişü kalımı.

Gövhərəm, kimsənəm yoxdu,
Dərdim sinəmdə çox-çoxdu,
Günüm gözlərimə oxdu,
Ərim lap tarı zalımı.

***

Bizdən salam olsun aşıq Əsmərə,
Yetişən namənə ay qurban olum.
Allah səni bədnəzərdən saxlasın,
Olmasın əməyin zay, qurban olum.

Eşq əhlisən, pirim verib badanı,
Ala gözlü gəlin, alım qadanı,
Çox qarğıma zalımlıqda atanı,
Olmaz mənimkinə tay, qurban olum.

Gövhər deyər: zornan ərə verilən,
Bu dünyada nə bir sənsən, nə də mən.
Əlindən gəlirsə tarı üçün sən,
Bədbəxt gəlinləri say, qurban olum.

***

Gəl sənə söyləyim, ay əziz ana,
Dərdi-dilim qaldı, sinədə qaldı.
Atam verdi məni qoca kaftara,
Həsrətli dərdlərim sənə də qaldı.

Gözüm yaşı çaylar oldu göllə ndi,
Əmim vəkil oldu, qazı allandı,
Qəm karvanı yeriş etdi, yollandı,
Dağ-düyün çəkildi sinədə qaldı.

Gövhər deyər: qız-gəlinlər ağladı,
Yas tutub dərdimə, sinə dağladı,
Xırda bacılarım qara bağladı,
Günlər, aylar keçdi, sənədə qaldı.

* * *

Zalım fələk, səni görüm yanasan
Qannara boyandı daşı Şirvanın.
Duman gəlib Fit dağını bürüdü,
Bəlalar çəkibdi başı Şirvanın.

Gahdan ağa soyub, gah paşa soyub,
Talanlar, qırğınlar boş yurdda qoyub,
Gözəl gəlinnəri saf cana doyub,
İgidləri olub naşı, Şirvanın.

Gövhər çəkər ahü nalə ürəkdən,
Beli sınıb, qolu düşüb biləkdən,
Fələk vurub, quşu uçub tüləkdən,
Gözlərindən axar yaşı Şirvanın.

***

Qız deyər ki, mən xoşam,
İçməmişdən sərxoşam,
Çaylar kimi gər coşam
Öyünü yıxaram, oğlan!

Gəlin deyər: mən güləm,
Bağçadakı bülbüləm,
Saçları tər sünbüləm,
Öyünü tikərəm, oğlan!

Qız deyər ki, gülöyşəyəm,
Boynu bükük bənövşəyəm,
Ürəyi nazik şüşəyəm,
Əl vurma, sınaram, oğlan!

Gəlin deyər ki, asıyam,
Gəlinlərin mən xasıyam,
Qaynanamın balasıyam,
İncitmə, küsərəm, oğlan!

Gövhər deyər: seçmərəm,
Heç birindən keçmərəm,
Təşnə olsam içmərəm!
Gözlərin öpərəm, oğlan!

* * *

Səhər-səhər seyrə çıxdım,
Yar səni gördüm, ha gördüm.
Boynu bükük bənövşədən,
Əlimlə dərdim, ha dərdim.

Dərdindən olmuşam naçaq,
Ömrümdə bir güldüm haçaq?
Dal gərdəndə qucaq-qucaq
Telləri hördüm, ha hördüm.

Dərdliyəm, məni dindirmə,
Gözlərim yaşın sildirmə,
Sirrim əğyara bildirmə,
Kuyində gördüm, ha gördüm.

Şirvanlı Gövhərdir adım,
Aşıq Səməddir ustadım,
Ərşə dirənib fəryadım,
Ürəkdə dərdim, ha dərdim.

* * *

Zərəfşan, toyun mübarək!
Mənim qara gözdü bacım.
Danışan dilinə qurban,
Mənim şirin sözdü bacım.

Ətəyində ətəkliyin,
Başda titrər gülpərəyin,
Boğazaltın, sinəliyin,
Köynəyində düzdü, bacım!

Gövhər bacın sənə qurban,
Gül yarına ellər heyran,
Toyunda, ay nazlı ceyran
Aşıq Səməd süzdü, bacım!

* * *

Toy adamı, yaxşı baxın,
Qaşları kaman gəlinə,
Naz-qəmzəsi canlar alır,
Gözləri ceyran gəlinə.
Mübarək deyin toyuna,
Taxtda Süleyman gəlinə,
Hörmət edin, izzət edin,
Birgünlük mehman gəlinə.

Əl vurub, cərgə qurub,
Hamı yığılıb başına,
Heç kim göz çəkə bilmeyir,
Heyran olub göz-qaşına.
On beşin keçmiş gözəlin,
Durna kimi duruşuna.
Şux yerişi maral təkin,
Heyranam, heyran gəlinə.

Gövhər deyər: min afərin,
Dolanar, boyunu sevər.
Şad ürəklə bu gözəlin
Toyunda oxuyub gülər.
Öpər, sinəsinə basar,
Sirrin-sözün yəqin bilər.
Ötürər gərdək dalına,
Dilər şövkət-şan gəlinə.

## IV. Gövhər xanım:

Xəzan olmuş bu baxçamda
Nə gəzirsən, sarı bülbül?
Gəl görünmə gözlərimə,
Ağlamayım barı, bülbül.

Duman alıb dörd yanımı,
Qəm-qüssə üzüb canımı,
Yarım pozub peymanımı,
Mehman edib sarı, bülbül.

Gövhərəm bitməz əfqanım,
Kimsəyə gəlmir gümanım,
Ölüb-itmir mənim canım,
Yoxmuş qeyrət arı, bülbül.

# XURŞİDBANU NATƏVAN

*1830-cu ildə Şuşa şəhərində anadan olmuşdur. Qarabağın axırıncı hakimi Mehdiqulu xanın qızıdır.*

*Natəvanın qohumlarından – bibisi Ağabəyim ağa, əmisi Nəva, dayıları Hali və Müsahib də şair olmuşlar. Belə bir ailədə yetişən Natəvan, hələ çox gənc ikən ədəbiyyat və incəsənətə böyük həvəs göstərmiş, dövrünün istedadlı şairi və rəssamı olmuşdur.*

*Natəvan ədəbi fəaliyyətə təxminən XIX əsrin 50-ci illərində başlamışdır. Onun Azərbaycan və fars dillərində çoxlu qəzəlləri və lirik şeirləri vardır. Natəvanın divanı bütünlüklə gəlib bizə çatmasa da, əldə olan əsərlərinə əsasən böyük sənətkar olduğunu müəyyən etmək çətin deyildir. O, Füzuli məktəbinin ən mahir davamçılarından biridir.*

*Natəvan Şuşa şəhərindəki ədəbi qüvvələri birləşdirmək məqsədilə 1872-ci ildə "Məclisi-üns" adlı bir ədəbi məclis təşkil edir və uzun müddət onun rəhbəri olmuşdur.*

## QƏZƏLLƏR

Fələk renginə bənzər bu bənəfşə,
Tutub səhraları hər su bənəfşə.

Neçin gülşənlərin tərkin qılırsan,
Düşübsən çöllərə dilcu, bənəfşə?

Belə qəddin bükülmüş pirlər tək,
Deyirsən sübhü şam: yahu bənəfşə.

Səni şövqi-bahar aşüftə qılmış,
Çəkər aşiq olan qayğu, bənəfşə!

Dilər ətrin könül badi-səbadan,
O zülfi-yar tək xoşbu bənəfşə.

* * *

Nədəndir səndə əylənməz güli-dövran, xuda hafiz,
Mənə həm gəldi getmək növbəti, yaran, xuda hafiz!

Cahanda olmadı bir də görəydim mah ruxsarın,
Nə qədri cəhd qıldım, olmadı imkan, xuda hafiz!

Neçin sən tərki-mehr etdin, vəfadan əl çəkərlərmi?
Məgər əhdə vəfa etməz məhi-xuban, xuda hafiz!

Rəqiblər qoymadı yetsin əlim bir daməni-vəslə,
Xəyalilə keçirdim ömrümü nalan, xuda hafiz!

Nə səbrü taqətim qaldı, nə əqlü huş bilmərrə,
Onunçün çeşmi-pürxunum olur giryan, xuda hafiz!

O gün kim məhşəri-kübra olur, vəhm et o gündən kim,
Tutub damanını dildən çəkim əfqan, xuda hafiz!

Üzüb əl Natəvan candan ki, ta ümmidi-vəsl etməz,
Dili qəmgin, cigər pürxun, olub suzan, xuda hafiz!

* * *

Qoyubdur intizarında, neçin gəlməz, neçin gəlməz?
Həmişə ahü zarında, neçin gəlməz, neçin gəlməz?

Üzüldüm karivanımdan, əl üzdüm xanimanımdan,
Fələk incir fəqanımdan, neçin gəlməz, neçin gəlməz?

Gedibdir qafilə salar, olubdur gözlərim xunbar,
Nə bir yarü, nə bir qəmxar, neçin gəlməz, neçin gəlməz?

Könüldə ahü zarım var, səbrü nə qərarım var,
Deməz bir dilfikarım var, neçin gəlməz, neçin gəlməz?

O zülfü nərgisi-məstə, könül çoxdandı pabəstə,
Məni hicran edib xəstə, neçin gəlməz, neçin gəlməz?

Səri-kuyin gəzər könlüm, güli-ruyin sevər könlüm,
Vüsalın çox dilər könlüm, neçin gəlməz, neçin gəlməz?

Alıbdır canımı hicran, olubdur gözlərim giryan,
O məhvəş, nazənin canan, neçin gəlməz, neçin gəlməz?

Mənə hicran məşəqqətdir, fəraqın dərdi möhnətdir,
Nigarım xeyli müddətdir neçin gəlməz, neçin gəlməz?

Əzizim, göz yaşım qandır, işim fəryadü əfqandır,
O yarım harda mehmandır, neçin gəlməz, neçin gəlməz?

Yanar canım fərağından, tutar könlüm sorağından
Ki, çıxsın yar otağından, neçin gəlməz, neçin gəlməz?

Əlimdə ixtiyarım yox, gedib, səbrü qərarım yox,
Yanımda gülüzarım yox, neçin gəlməz, neçin gəlməz?

Səba, ol məhliqa dilbər, alıbdır canımı yeksər,
Könül ancaq onu istər, neçin gəlməz, neçin gəlməz?

Yetibdür ərş üzə dadım, tutub dünyanı fəryadım,
Mənim ol sərvi-azadım neçin gəlməz, neçin gəlməz?

Qalıbdır Natəvan nalan, gecə-gündüz olur giryan,
Onun yox dərdinə dərman, neçin gəlməz, neçin gəlməz?

* * *

Varımdı sinədə dərdü qəmi-nihan ölürəm.
Fəda olum sənə, gəl eylə imtəhan, ölürəm!

Fəraqdan gecələr yatmaram sabaha kimi
Xəyali-zülfünə bağlı gedibdi can, ölürəm.

Bahari-hüsnün ara gör necə xəzanəm mən,
Bahar laləsi tək bağrım oldu qan ölürəm.

Vərəq-vərəq dilü can hicrin içrə odlandı
Misali-gəncəfə səd parə oldu can, ölürəm.

O xaki-payini mən aşiyana etmiş idim,
Vətəndən ayrı düşüb, indi laməkan ölürəm.

Dedin ki, çək əlini damənimdən, – əl çəkdim,
Tərəhhüm eyləmədin axır, ey cavan, ölürəm.

Çəkərdim həsrətini, görmədim xudahafiz,
Olubdu indi işim naləvü fəğan ölürəm.

Fəda o qamətinə kim, qəza nə xoş çəkmiş,
Qədər büküb belimi, eyləyib kaman, ölürəm.

Fəraqdan tükənib tabü taqətim, billah,
Vüsalə yetməz əlim, zarü Natəvan ölürəm.

* * *

Əgərçi xoşdu mənə ətri, həm səfası gülün,
Cəfası çoxdu, nə hasil ki, yox vəfası gülün.

Cəfayi-xarı görüb köçdü bağdən bülbül,
Görən kim oldu bu gülşəndə aşinası gülün?

Xəzanə meyl elədi, almadı vəfa nəzərə,
Yetişdi bülbülə çox-çox qəmü cəfası gülün.

Tökər sirişk əvəzində gözüm üzə al qan,
Olubdu çünkü könül zarü mübtəlası gülün.

Yazılsa nöqtəbənöqtə, deyilsə hərfbəhərf,
Qutarmaz həşrə qədər halü macərası gülün.

Üzari-alinə baxdıqca qan olur dillər,
İlahi, həddən aşır möhnətü bəlası gülün.

Xəta yoluna düşüb bülbülə cəfa qıldı,
Xətaya saldı özün aqibət xətası gülün.

Cahanda zərrə qədər olmaz, ey könül, xəndan
Ki, xuni-bülbül əgər olmasa qəzası gülün.

Tutardı xuni-cigərdən olaydı gər sirab
Günəş tək hər tərəfi, Natəvan, ziyası gülün.

* * *

Olmuşam dəhri-bəla içrə bu gün divanə mən,
Varmadım meyxanəyə, sındırmadım peymanə mən.

Əhdlərdən keçmədim, peymanlər sındırmadım,
Lacərəm bimehrlər tək, olmuşam əfsanə mən.

Tərki-gülzar etmişəm, bülbül kimi mən, ey rəqib,
Aqibət bir guşə içrə gəlmişəm əfqanə mən.

Eşq rüxsarında bir dəm vəslilə şad olmadım,
Hər tərəf seyr eylədim, düşdüm əcəb hicranə mən.

Qəm yükün çəkməkdən, ey dil, bir dəm azad olmadım,
Hərçi cəhd etdim, nə hasil, yetmədim cananə mən.

Duş gördüm kim gəlibsən külbeyi-ehzanıma,
Ol zaman nəzr eylədim canü-dilim qurbanə mən.

Görməyim düşvardır, vallah, səni, bil, ey rəqib,
Zülfə bağlı qoy gedim, axır düşüm zindanə mən.

Dövrü dönmüş dövr dövran etmədi kamımca ah!
Düşmənimdir, bilməzəm kim netmişəm dövranə mən.

Varü yoxumdan qalan ancaq mənim bir can idi,
Natəvan, daxi dedim: sərf eyləyim mehmanə mən.

* * *

Səhərgəh nagahan gördüm dili-zarım nihan ağlar.
Sirişki-alilə hərdəm çəkər ahü fəğan ağlar.

Sual etdim: nə baisdir çıxıb əflakə əfqanın?
Tökər xuni-cigər çeşmin, axar hər yan rəvan ağlar?

Könül huşyar imiş məndən, dedi: Badi-səbadan sor!
Sərasimə qalıb heyran, çəkər ah, əlaman, ağlar.

Səbadən sordum əhvalı ki, ey hər haldan agah.
Nə vaqedir, səni tarı, olub dil natəvan ağlar?

Dəxi badi-səba, gördüm, bəsi dilgiru nalandır,
Təkəllüm yox bəyan etsin, qalıbdır bizəban, ağlar.

Tutulmuş nitq güftarı, dedi: Ey Natəvan xəstə,
Necə şərh eyləyim halı ki, cümlə insü can ağlar.

Gəzirdim bağü səhranı, pərişan halilə, gördüm
Dəyib badi-xəzan sərvə qurumuş, bağban ağlar.

Zəban sözdən qalıb xali, tərəhhüm etdim əhvalı.
Gözümə tar olub dünya, dəmadəm cismü can ağlar,

Bəli, gər gül budağına toxunsa tünd badi-dəhr,
Pərişan olsa gül bərgi, edər bülbül fəqan, ağlar.

Pozuldu rövnəqi-gülşən, dağıldı zinəti bağın,
Düşüb tabü təravətdən, gül ağlar, gülsitan ağlar.

Düşəydi çərx gərdişdən, olaydı dəhri-dün viran,
Bəşər tab eyləməz hərgiz, zəminü asiman ağlar.

İlahi, görməsin gözlər, yaman gündür belə günlər,
Aman verməz qəmü möhnət, hamı pirü cavan ağlar.

Firavandır qəmim, şərhin bəyan etmək deyil mümkün,
Yaz, ey müstovfiyi-aləm, müdam əhli-cahan ağlar.

Midad olsa əgər dərya, qələm olsa əgər əşcar,
Başa yetməz qəmim şərhi, qələm hər ləhzə qan ağlar.

Tənim rəncur, dil xəstə, dəxi bir qəmgüsarım yox,
Kimə şərh eyləyim dərdim, gedər tabü tavan ağlar.

Bəli, çün kövkəbi-tale vəbal etsə fələk içrə,
Nühusətlə qiran eylər, olur gün gər yaman ağlar.

Bu divani-qəzavətdir, müqəddər ruzi-əzzəldən
Ki, hər dəm növbənöv qəmlər yetər, bu Natəvan ağlar.

Kəsilmiş taqətü tabım, başımdan əql məhv olmuş,
Gözüm əşki rəvan zahir, könül daim nihan ağlar.

Dəvasız dərdi-bidərman, qalıb məhzunü sərgərdan.
Ərəstu ilə həm Loğman, Fəlatuni-zaman ağlar.

Təmamən dərdü qəmlərdən fəraqın dərdi əfzundur,
Onunçun Natəvan hər dəm olub nalan, qan ağlar.

* * *

Könül qanın gözümdən navəki-qəmzən rəvan eylər,
Məsəldir mərdüm içrə: “Məst olan, əlbəttə, qan eylər”

Könül, bil kim, o çeşmi məst olub heç bir xəta etməz,
Yəqinimdir, əgər, qan etmiş olsa, qanə-qan eylər.

Əgər qaşü gözün xişm eyləsə, ey mahi-nov, bir dəm,
Könüldə fitnələr peyda olur, hər dəm fəğan eylər.

Nihani baxmağından iztirabi-könlüm əfzundur,
Nə cadudur ki, hər dəm kəşfi-əsrari-nihan eylər?

Uçub mürği-dilim qonmuş səri-zülfi-pərişanə,
Bəla sərmənzilində gör nə qafil aşiyan eylər?

Üzün dövründə zülfün küfrə bənzər, tutmuş imanı,
Hərami xeylini kim böylə gəncə pasiban eylər?

Səba zülfün nəsimin gər aparsa vadiyi-Çinə,
Xötən səhrasını mişkin edib ənbərfəşan eylər.

Rəqibim görməsin bir nəşə, ya rəb, cami-işrətdən
Ki, məndən bisəbəb ol şuxi məstü sərgiran eylər.

Deyirlər: dərdi-eşqin adəm öldürməz, – dürüstdür bu
Və lakin əmr eylər, mən kimi zarü Natəvan eylər.

* * *

Şuri-eşqin başıma axırı sevda gətirir,
Bu müşəxxəsdi ki, eşq aşiqə sevda gətirir.

Tari-zülfündi məni böylə giriftar eləyib,
Nə gələ başimə ol zülfi-mütərra gətirir.

Gül üzün görmək əgər mümkün olaydı bir dəm,
Hər zaman görmək onu nuri-təcəlla gətirir.

Qaşü göz, növki-müjən fitnə üçün cəm olmuş,
Ox atıb, tiğ çəkib hər biri dəva gətirir.

Könlümü qarət edər öylə ki, tari-zülfün
Rumə sanki həbəşi leşkəri-yəğma gətirir.

Naqənin varmı şüuri bula aşiq kuyin?
Onu Məcnunə tərəf cəzbeyi-Leyla gətirir.

Yusifin sanma, dübarə görə Yəqub üzünü,
Mehr bazarına gər getsə, Züleyxa gətirir.

Yusifi Misridə gər aldı Züleyxa nəqdə,
Nəqd can aşiq olan əldə mühəyya gətirir.

Sidq qəlb ilə nisar etmiş idin can nəqdin,
Natəvan, müjdə, bu gün qətlinə fərma gətirir.

* * *

Səni kimdir sevən bica, qərənfil?
Sənə mən aşiqi-şeyda qərənfil.

Səni gülşən ara aşiftə gördüm,
Yəqin bildim tutub sevda, qərənfil.

Belə pəjmürdə hal ilə durubsan,
Düşər güllər ara qovğa, qərənfil.

Driğa kim, vəfasızdır bu gülşən,
Gedər bu tələti-ziba, qərənfil.

Üzündən pərdeyi-nazın kənar et,
Unutma aşiqi haşa, qərənfil!

* * *

Mənə bədtərdi düzəxdən, əzizim, gülsitan sənsiz!
Odur hər sünbülü süsən gözümdə bir tikan sənsiz!

Vəfasız dəhri-dun içrə əgər şəkkər qəzam olsa,
Olur zəhri-həlahil, tutiyi-şirinzəban sənsiz!

Səbəb noldu ki, məndən mehr kəsdin, mehriban bülbül!
Olur qumri kimi ku-ku yenə virdi-zəban sənsiz!

Xoş ol günlər ki, vəslindən edərdim kami-dil hasil,
Olunca mübtəla hicrə, çıxaydı kaş can sənsiz!

Əlif tək sərv qəddin, can içində getdi, gəmxarim,
Necə aram tutsun, bilməzəm, cism içrə can sənsiz!

Çıxar sübhü məsa əflakə dudi-şöleyi ahim,
Zəbani-halimə giryan olur gərrubiyan, sənsiz.

Nəzər qıl, qönçəyi-lalə misalı bir-biri üstən
Çəkilmiş sinəmə, gör kim, necə daği-nəhan sənsiz!

* * *

Yıxıb bu könlüm evin, eyləyib viran getmə,
Yoxumdu tabütəvan firqətə, cavan, getmə!

Fəda olum sənə mən, səndən ayrıla bilməm,
Yəqin fəraqın edər qəddimi kaman, getmə.

Səninlə roşən idi qəlbim, ey gözüm nuri,
Güman ki, təng ola canimə bu cahan, getmə!

Boyun bəlasın alım, sərv tək yıxılma, oğul,
Doyunca görməmişəm, getmə, bir zaman, getmə!

Çıxaydı kaş gözüm, görməyəydi hicranın
Ölüncə bil edərəm naləvü fəğan, getmə!

Səbahədək oturub çəkmişəm cəfalarını,
Boyum bərabərisən indi əlaman, getmə!

Yəqin əl çəkəcək dustu aşinalərdən,
Divanə tək düşəcək çöllərə anan, getmə!

Səninlə kim açılıb qəlbimin şükufələri
Mürüvvət eylə, əzizim, edüb xəzan, getmə!

Tərəhhüm eylə mənə, dərdü möhnətim çoxdur,
Qoyub bu hicr bəla içrə Natəvan, getmə!

Di yumma gözlərini, qoy görüm doyunca barı,
Gözümdə cari edib əşk həm rəvan, getmə.

* * *

Dilbəra, dərdi-dilimdən belə ünvan etdim
Ki, qəmi-hicrdə dil mülkünü viran etdim.

Mümkün olmaz mənə vəslin bilirəm həşrə kimi,
Ol səbəb məskənimi kuhi biyaban etdim.

Eşq sultanı mənim qətlimə fərman gətirib,
Etmədim tərki-vəfa, taəti-fərman etdim.

Səri-kuyində qoyub başımı bir uf demədim,
Səri-sidqilə dilü canimi qurban etdim.

Ya təbib adını tərk eylə, təbabət etmə,
Ya mənim dərdimi tap, gör niyə tüğyan etdim?

Yoxdu bir kimsə məgər dərdimi bilsin, ya rəb
Ki, mən öz qanım ilə dərdimə dərman etdim!

Dərdi-hicrində gözüm yaşı tutub dünyanı,
Nuh tufanı kimi gör ki, nə tufan etdim!

Natəvan, etmədi ol səngdilə naləm əsər,
Gecə-gündüz nə qədər naləvü əfqan etdim.

* * *

Səninlə, ey büti-məhruy, mehriban mən idim,
Ənisü-munis idim, yari-mehriban mən idim.

Cəmalının gülünə nişi-xar tapmadı əl
Ki, hüsn bağına peyvəstə bağban mən idim.

Səriri nazdə sən xabi-naz edən gecələr,
Səbahədək səri-kuyində pasiban mən idim.

Səbəb nə oldu məni hicrə mübtəla qıldın?
Nisar edən səri-kuyində cismü can mən idim.

Rəvadı bunca çəkim dərdi-firqətin, axır,
Visal günləri, ey dust, kamran mən idim.

Bəla xədənginə, neylim, məni nişan qıldın,
Rəqib tənəsinə xatiri-nişan mən idim.

Səlamət əhli nə bilsin nədir məlaməti-eşq?
El içrə şöhrəti-eşq ilə dastan mən idim.

Driğ, yanmadı yar, görmədi fəraq odunu,
Neçün güman eləməz eşqdə yanan mən idim.

Həmişə vəslin ilə şadü xürrəm olmuşdum,
Bu hicr oduna yanan zarü Natəvan mən idim.

* * *

Nə mən olaydım, ilahi, nə də bu aləm olaydı,
Nə də bu aləm ara dil müqəyyədi-qəm olaydı.

Nə hicr atəşinə odlanıb yanaydı dilim,
Nə eşqin içrə könül böylə şad xürrəm olaydı.

Nə sərv qəddin olaydı, nə həsrətilə gözüm kur,
Nə ruzgar fəraqində qamətim xəm olaydı.

Nə bəhr olaydı, nə ümman, nə böylə göz yaşı cari,
Nə gül üzündə, ilahi, bu növi şəbnəm olaydı.

Nə gül olaydı, nə gülzari-gülşənin dəxi seyri,
Nə xar möhnəti, bülbül, səninlə möhkəm olaydı.

Nə çah olaydı, nə zindan, nə karivan güzəri,
Nə Yusifi bu bəladə görən bir adəm olaydı.

Nə bəzm olaydı, nə bazari-Yusif əhvalı,
Nə rəhgüzərdə Züleyxa qəm ilə həmdəm olaydı.

Nə ah olaydı, nə əfsus, nə parə-parə könül,
Nə Natəvanın, ilahi, həvası dərhəm olaydı!

* * *

Yenə ya rəb nə qəmgindir mənim bu şad olan könlüm,
Rumuzi-eşqdən agah olub, ustad olan könlüm.

Görübdür yarı əğyarə olubdur məhvi-nəzzarə,
Edibdir sinəsin parə, mənim abad olan könlüm.

Niyə peymanədən keçdin, niyə zəncirdən qaçdın?
Nədəndir çöllərə düşdün, mənim bərbad olan könlüm?

Fəraqın ruzi-məhşərdir, sərasər möhnətü qəmdir,
O zülfün kiymi dərhəmdir, mənim azad olan könlüm.

Baxın bu Natəvan zarə, günü bəxtim kimi qarə,
Gəzər Məcnun tək avarə, mənim naşad olan könlüm.

* * *

Nə oldu bülbülə kim, qıldı gülsitan tərkin?
Unutdu güllərini, etdi aşiyan tərkin.

Kim ilə munis olubdur, kimə salıb meylin?
Rəvamidir eləmək yari-mehriban tərkin?

Könül ki, xari-cəfadən həmişə nalandır.
Yaralıdır, eləməz naləvü fəğan tərkin.

Çirağı-rövşəni-bəzmi-ümid ikən, ya rəb,
Səbəb nə oldu, o məh etdi həmzəban tərkin?

Baxarmı qeyrilərə çeşmi piri-Kənanın?
Edərmi aşiq olan Yusifi zaman tərkin.

Sənin fəraqinə canımda tabü taqət yox,
Təni-füsürdə, əziza, edərmi can tərkin?

Cəhanı tərk eləməz kim ki, aşiqi-candır.
Həyatdan üzüb əl, eyləməz cahan tərkin.

Qərari-canım idi, kəsdi can təvanəsini
Üzüldü qüvvəti-can, etdi Natəvan tərkin.

***

Nə ev xəyalı, nə də fikri-aşiyanə mənə
Ki, bəsdir ünsi-fərağət misalı lanə mənə.

Səni görəndə şadam, görməyəndə zar oluram,
Visalın ilə sevindi, demə, bəhanə mənə!

Ölüncə qəlbimə dağdır məhəbbətin fikri
Ki, yadigar kimi qalsın bu dağ nişanə mənə.

Bu ruzigardə mən zarü binəva qaldım,
Qəribədir, verir üz möhnəti-zəmanə mənə.

Pənahgahıdı çox Natəvani-qəmzədənin,
İlahi, qalsın həmişə bu asitanə mənə!

* * *

Bilən bu dərdimi yoxdur bu halətdə, bu halətdə.
Tutubdur könlümü möhnət bu firqətdə, bu firqətdə.

Neçün əhvalımı bilməz o mahi-mehriban, ya rəb?!
Nədən heç dadıma yetməz bu müddətdə, bu müddətdə?

Gedibdir taqətim dizdən, tükənmiş nur həm gözdən.
Neçün ülfət kəsib bizdən bu qürbətdə, bu qürbətdə.

Deyin yari-vəfadarə, o çox uymasın əğyarə,
Kərəm qılsın məni-zarə bu xiffətdə, bu xiffətdə.

Ataram sərü samanı, dağıdaram bu viranı,
Yolunda qoymuşam canı bu möhnətdə, bu möhnətdə.

Gözümdə intizarım var, dilimdə iztirabım var,
Rəqiblər yar, mən əğyar bu qəflətdə, bu qəflətdə.

Vətəndən ayrılıb getdim, rəhi-eşq içrə seyr etdim,
Mən hicrində cana yetdim bu həsrətdə, bu həsrətdə.

Məni qoydu fəraqında, həmişə iştiyaqında,
Həyatın sonku çağında, bu üsrətdə, bu üsrətdə.

Dolandım hicr dağında, əyildim qəm otağında,
Xəyal hüsnün sorağında bu saətdə, bu saətdə.

Xəyalım yar ilə getmiş, dilim hicr ilə odlanmış,
Cəsəd həm Natəvan qalmış bu zillətdə, bu zillətdə.

* * *

Ey dust, yararmı böylə iqrar?
Yar olduğum idi, oldum əğyar,

Sən qeyrilər ilə üns tutdun,
Bilməm niyə yarını unutdun?

Sən qeyr ilə həmzəbanü yekdil,
Əmma, mənə rüzgar müşkil.

Bəsdir mənə verdiyin bu xiffət
Əğyar arasında, bimürüvvət!

Birəhmlik etdiyin yamandır,
Bir rəhm elə kim, aman, amandır!

Bax bir fələkə, gör indi, zinhar,
Gör kimlər ilə edibdir iqrar?

Əfsus ki, keçdi ruzigarım,
Ahım sənə çatmaz, ey nigarım!

Biganəlik etmə, aşinayəm,
Dərgahinə kəmtərin gədayəm.

Hər an ki, məni bu halə salmış,
İndi belə qeylü-qalə salmış.

****

Ey güli-susən, səni bir natəvan çəkmiş məgər?
Bir məhi-ali məqama bəndivan çəkmiş məgər?

Beylə tarik rəng ilə girmiş o qəsrə bilməyib,
Sillələr rüxsarinə ol bağban çəkmiş məgər?

Çünki bu gülşəndə sərgərdən gəzənlər çoxdu, çox,
Ol səbəbdən pasibanlar xoş nişan çəkmiş məgər?

Rəngü buyindən müzəyyəndir büsati-bəzmi-gül,
Xameyi-nəqqaşi-qüdrət gülsitan çəkmiş məgər?

Bu qədər lütfü nəzakət kim sənin hüsnündədir,
Lütfi-təbilə səni ol Natəvan çəkmiş məgər?

# AŞIQ HAMAYIL

*Aşıq Hamayıl təxminən XIX əsrin birinci yarısında Şəmkir mahalının Dəllər-Cırdahan kəndində kasıb bir kəndli ailəsində anadan olmuşdur. Bir çox əsərlər yazdığı məlum olsa da, əldə yalnız bir neçə qoşması vardır. Bu qoşmalar onun Vaqif və Dilğəm yaradıcılığının təsirilə yazdığını göstərir.*

## QOŞMALAR

Əmim oğlu, məndən heç utanmadın,
Üç ay keçdi bir yaylağa gəlmədin.
Yüz min cəfa ilə köç eylədim mən,
Ordan endim Ağbulağa, gəlmədin.

Demədin, dağdadır bir sərvinazım,
Bir bəyaz sinəlim, bir ağboğazlım,
Ay qara tərlanım, mənim şahbazım,
Şikar üçün sən ovlağa gəlmədin.

Mən səni istərəm hamıdan əziz,
Mən sənin yanında oldum bir kəniz,
Ətri-can bəslədim, güllərdən təmiz,
Bülbül olub qoxlamağa gəlmədin.

Varlılar yarıyla çəkdilər ləzzət,
Sən yada düşdükcə, mən çəkdim həsrət,
Niyə belə etdin, ay gəda xislət,
Şamama dərməyə tağa gəlmədin.

Mənim adım Həmayıldır, həmaya,
Sinəm bənzər həm ulduza, həm aya,
Mənə vədə verdin: “Gəlləm bir aya”,
Bağlandın arana, dağa gəlmədin.

***

Başına döndüyüm sərvi-salatın,
Yetgin yemiş, şirin bar bizə göndər.
O gözəl bağçada heyvadan, nardan,
Gilas tez yetişir, nar bizə göndər.

Seyrana çıxanda gözüm qamaşır,
Zülfün kəməndinə qəddim dolaşır,
Güldən, ireyhandan bir dəstə döşür,
Zülfün arasında, yar, bizə göndər.

Başına döndüyüm, ay nazlı xumar,
Yaşılbaş ördəklər göllərə cumar,
Səfalı yaylaqdan bu könlüm umar,
Yaylıq arasında qar bizə göndər.

# AŞIQ BƏSTİ

*Bəsti Kərbəlayı Bayramalı qızı XIX əsrin təxminən 30-cu illərində Kəlbəcər rayonunun Levi kəndində yoxsul ailədə anadan olmuşdur. Aşıq Ələsgər və Ağdabanlı Qurban kimi ustad aşıqların məclislərini dinləmiş, onlardan el ədəbiyyatını dərindən öyrənmiş və şeir deməyə başlamışdır.*

*Qoşduğu mahnıları göz yaşları axıdaraq oxuduğundan az sonra gözləri tutulmuş və el arasında çox vaxt "kor Bəsti" adı ilə tanınmışdır.*

*Uzun müddət Basarkeçər, Daşkəsən, Gədəbəy və Samux rayonlarında aşıqlıq etmiş, şagirdləri olmuş və bir çox aşıq yetirmişdir.*

*Ömrünün axırlarına yaxın yenidən doğma kəndinə qayıtmış və 1936-cı ildə, təxminən 100 yaşlarında vəfat etmişdir.*

## QOŞMALAR

A bəy, nə gəzirsən hallı-havalı,
Süleyman mülkünün yiyəsi kimi.
Nədəndi yaxşının başın kəsməyə,
Hazırsan xəncərin tiyəsi kimi?

Güvənməyən dövlətinə, varına,
Lənət olsun qeyrətinə, arına,
Haxdan zəfər dəysin bürcü-barına,
Lüt qalginən palaz iynəsi kimi.

Ağladım doyunca, gülmədim haşa,
Bir ah çəksəm, dağlar gələr baş-başa.
Bəsti deyər: səni də düş ataşa,
Yan Novruz şamının piltəsi kimi.

***

Acı rüzgar döydü ömür qapımı,
Qara döndü ağ dövranım, a Qurban.
Dağlarımı duman aldı, çən aldı,
Zülmət oldu asimanım, a Qurban.

Bu yazıq canımı gətirdi cana,
Ədalətsiz divan, zalım zamana,
Atəşə pərvanə, oxa nişana,
Piltəyə şam oldu canım, a Qurban.

Tər şamama bu tağlardan kəsildi,
Ömr ağacı budaqlardan kəsildi,
Tütək səsi bulaqlardan kəsildi,
Hayıf oldu Xan çobanım, a Qurban.

Aylarım bəd gəlib, illərim nəsdi,
O azca ülfəti fələk də kəsdi,
Dünya zindan oldu, məhbusu Bəsti,
Yaşamağa yox gümanım, a Qurban.

***

Məleykə boyludu, şirin ləhcəli,
Əzəldən tamaşa olan bu dünya.
Qoca cadugərdi, aldadar səni,
Cavanlıq donunda qalan bu dünya.

Qananı eyləyib talahsız, baxtsız,
Əyibdir qəddini, qocaldıb vaxtsız,
Çoxlarını qoyub eyvan-otaqsız,
Varlının dərdinə qalan bu dünya.

Qəmnən pay götürdüm, naldən qismət,
Görmədim bir ləzzət, çəkdim əziyyət,
Canda eşq ataşı, dildə məhəbbət,
Bəstini odlara salan bu dünya.

***

Zülmü şəbahətdə bəylərin tayı
Olmaz bu dünyada, olmaz, ay olmaz!
Nə yar yara yetər, bir murad alar,
Bir kimsə vay olmaz, olmaz, ay olmaz!

Hər nə görsə deyər: külli-var mənim,
Alma mənim, heyva mənim, nar mənim,
Söndürdü çırağım biilqar mənim,
Çeşmim kimi bir çay olmaz, ay olmaz!

Çox axtardıq, tapammadıq bir çara,
Bəylər günümüzü eylədi qara,
Bunlar ki var, Bəsti, daha dağlara,
Nə yaz gəlməz, nə yay olmaz, ay olmaz!

***

Varmı ürəyinə zalım dövranda,
Fələyin əlindən zədə dəyməmiş?
Namərdin ucundan, nadan dilindən,
Çatıb qulağına hədə dəyməmiş.

Demirəm mələyəm, nə də ki göyçək,
Sözümdə yalan yox, gerçəyəm, gerçək,
Ötməyib böyrümdən bir erkək milçək
Astanama soltan, gədə dəyməmiş.

Bəstiyəm odlara qalandı canım,
Bu tənəyə necə dözüm dayanım?
Gəlmədi ağ günüm, təzə dövranım
Düşmən ağzın yummaz pedə[1] dəyməmiş.

---

[1] Paya

* * *

Yaxşı tanı Ələsgəri, Qurbanı,
Neçə belə nər aşığı bilginən.
Qiymət qoysan gəraylıya, qoşmaya,
Nəzmimdəki yaraşığı bilginən.

Vaxtsız daşım qürbət elə atıldı,
Nə dərd desən mənim üçün tapıldı,
Ağlamaqdan gözlərim də tutuldu,
Getdi gözün nur işığı bilginən.

Heç bilmirsən nələr yatır sinəmdə,
Mən çəkəni çəkməz Əsli, Kərəm də,
Şirin can çürüdü möhnətü qəmdə,
Bəsti görüb Sənan dağı bilginən.

* * *

Məcnunsuz çöllərin Leylisiyəm mən,
İtkin yarın sorağına düşmüşəm.
Yaxşı Aşiq ilə gəzir çəməndə,
Təkərinin qırağına düşmüşəm.

Şirinin beynində eşqin əsəri,
Fərhad qayalara vurur düsəri,
Kirpik qatlamıram, o gündən bəri,
Yata bilməm, qəm dağına düşmüşəm.

Əslini yandırıb közləyən fələk,
Namərdlik məqamın gözləyən fələk,
Bəstini ölüncə izləyən fələk,
Öldür qurtar, ayağına düşmüşəm.

## GƏRAYLILAR

Yarın qanlı köynəyi tək,
Qızarır yol üstə lalə.
Xançobanı gətir dilə,
Bir şirin can istə, lalə.

Dərdim dönüb hekayətə,
Canım dözər bu zillətə,
Yar məzarın ziyarətə,
Gəlib dəstə-dəstə lalə.

Hara getsən gələrəm mən,
Ahu kimi mələrəm mən,
Bəsti deyər: ölərəm mən,
Bu dağlardan getsə lalə.

***

Müxənnətə can deyənin,
Dili düşsün, dili düşsün.
Vədəsiz göy zəmisinə,
Dolu düşsün, dolu düşsün.

Dil dedim, ağladı cahan,
Bir sirrim qalmadı nəhan,
Yurdun olsun yerlə yeksan,
Üstən elin yolu düşsün.

Düşmənlə kim peyman bağlar?
Sinəmdən getməyib dağlar,
Bu Bəstini qoyub ağlar,
Zalım bəyin qolu düşsün.

***

Dağ üstündən çəkdin dağı,
De, nəydi günahım, dağlar?
Sən mənə kəsildin yağı,
Tutsun səni ahım, dağlar!

Qara gəlibdi dövranım,
Əl vurma, tökülər qanım,
Hanı mənim Xan çobanım,
Oydu qibləgahım, dağlar!

Niyə belə yazdı fələk?
Ayrılığa dözmür ürək.
Bəsti kimi sən də qal tək,
Olmasın pənahın, dağlar!

* * *

Bəstinin ah-nalasından,
Oyan, dağlar, oyan, dağlar!
Qan damır dağ lalasından,
Sən də qana boyan, dağlar!

Kəkliklərin qaqqıldaşı,
Ayağı qan eylər daşı,
Sel-sel olub gözüm yaşı,
Hünərin var dayan, dağlar!

Bəylər bizi gətdi cana,
İgidləri saldı qana,
Ayrım eli zülmətxana,
Bəs necədi o yan, dağlar?!

* * *

Səndən axır abi-kövsər,
Suyun baldı Çobandağı.
Bəzənmisən gəlin kimi,
Nə calaldı, Çobandağı?

Kəkliklərin qonur daşa,
Qaqqıldaşa-qaqqıldaşa,
Hər görən eylər tamaşa,
Bir xəyaldı, Çobandağı.

Hər dürlü çiçək sinəndə,
Tapılmaz qeyri çəməndə,
Bahar fəsli Bəsti səndə,
Qonağ qaldı, Çobandağı.

* * *

Bir qəmli bülbüləm,
Güllər inanmır.
Məcnunsuz Leyliyəm –
Çöllər inanmır.

Göz yaşım sel olur,
Göllər inanmır,
Bir qərib yolçuyam,
Yollar inanmır.

Deyirəm həsrətəm,
Qollar inanmır.
Sözüm dastan olub,
Tellər inanmır.

Aşıq Bəsti mənəm –
Ellər inanmır!
Sinnim doxsan olub,
İllər inanmır!

***

Sənə qurban olum, ata,
Vermə bir ağyala məni!
Qulaq as ahü nalədə,
Vermə bir ağyala məni,
Salma qeylü qala məni!

Gün çıxanda günnən durram,
Təndir sallam, hana qurram,
Cütə getsəm, igid yorram,
Bibi, çəkmə ala məni,
Salma qeylü qala məni.

Qurbanam qohum-qardaşa,
Rəhm et gözdən axan yaşa,
Puç ömrü vurmadım başa,
Ana, vermə çala məni,
Salma qeylü qala məni!

Yaşı keçib olub əlli,
Ağ tükü qaşından bəlli,
Acı sözlü, zəhər dilli,
Dilə tutma, xala, məni!
Ana, vermə çala məni!

Oğlan, de bir nədir adın?
Bilmədim eşqinin dadın,
Allahım versin muradın,
Salma qeylü qala məni,
Atam verir çala məni.

Bəsti deyər: yandım, yandım,
Allah adı olsun andım,
Zəhər şərbətindən qandım,
Atam saymır bala məni,
Salıb qeylü qala məni.

# NİMTAC XANIM

*Cənubi Azərbaycanın Səlmas şəhərindəndir. Anadan olub vəfat etdiyi tarixi dəqiq bilinmir. Respublika Əlyazmaları İnstitutunda saxlanılan mənbələrdən birində Nimtac xanım haqqında bir qeyd vardır. Bu qeyddən anlaşılır ki, şairə XVIII əsrin sonu, XIX əsrin birinci yarısında yaşamışdır. 1812-ci ildə Səlmasda baş verən bir qətlü qarəti həssas şairə ürəyi ilə təsvir etmişdir.*

***

İranlılar Kəyan təxtin istəsələr, hər qış, bahar,
Gərək öncə yurdlarında Gavələri axtaralar.

Böyük adam özü kimi böyük işlər görsə əgər,
Qüvvəsiylə müşkillərə halallığın özü çatar.

Əndəlisdə namaz əhli namazını başlayanda
Qüdsdə o dəm coşmalıdır, daşmalıdır qızıl qanlar.

Ah, iranlı şikəst olub, mərhəmət yox zəmanədən,
Əgər yüz yol, rəng çəksən də zahirinə, nə xeyri var?

Bu heyrətdən parçalandı sınmaz əcəm pərdəsi də,
İndi gəlin, indi görün nə gündədi bu qadınlar?!

Gözəl Rəştin zənanları – qara saçları pərişan,
Açar sizin eyibləri... Günahınız sizə çatar?

Üzüaçıq qalıb nədən Urmiyanın gözəlləri,
Çarəsizlik hara çatıb? – Bazarlarda yer tapıblar.

Ah, səlmaslı, ciyərləri qana dönmüş bacılarım,
Qardaşların qanı ilə saçlarını qızardıblar.

Təzə bir Nuh gəmisiylə təzə tufan qopmalıdır –
Çöhrənizdən qızıl, qanlı ləkələri yuyar, yuyar...

Azadlığı bağlayıblar qılıncların dəstəyinə,
Kişi gərək qılıncına təkyə edə, sadiq qala.

Xilqətin öz qanunudur: bir ölkə ki, bir millət ki,
Qurşanıbdır rahatlığa, eyş-işrətə zəlil olar.[1]

---

[1] Tərcüməsi Hidayətindir.

# FATMA XANIM KƏMİNƏ

*Fatma xanım Kəminə Fəna təxəllüslü Ağa Mirzə Bəybabanın qızıdır. Təzkirəçilər ona Şərqin Məhsəti, Nigar xanım, Nuricahan bəyim, Ayişə, Teyyübə kimi şairələri içərisində fəxri yer vermişlər. Müctəhidzadənin yazdığına görə, vaxtilə şairənin sağlığında onun tam divanını görmüşdür.*

*Bütün mənbələrdən aydın olur ki, Fatma xanım Kəminə "Qarabağın üçüncü şaireyi-möhtərəməsidir".*

*Şuşada 1840-1842-ci illərdə anadan olmuş, 1898-ci ildə sentyabrın əvvəllərində orada vəfat etmişdir.*

## QƏZƏLLƏR

Cana, bu nə cadudur qaşü göz arasında,[1]
Nitqim tutulur görgəc, hərdəm söz arasında.

Gər, görsə Züleyxavu Yusif səni bəzmində,
Məbhut qalar onlar yüz min qız arasında.

İnnab ləbin, cana, təşbih edib aşiqlər,
Nar dənəsidir, guya, düşmüş buz arasında.[2]

Ey dil, eləmə artıq, nalən yerinə yetdi,
Saldın özün odlara, yandın köz arasında.

Əhdində vəfa varsa, məbhut nə durmuşsan,
Var guya, yügür-yort ta canın öz arasında.

Xuni-cigərim gözdən ol qədr rəvan olmuş,
Laf etmə Kəminə çox gültək üz arasında.

---

[1] Qəzəl Abbasqulu aqa Bakıxanov Qüdsiyə nəzirədir.

[2] Rəvayətə görə Xurşidbanu Natəvan narı dənələtdirib buzxanaya tökər və əmələ gələn narlı buz parçalarını "Məclisi-üns" yığıncaqlarında süfrəyə verdirərmiş, buz parçasındakı nar dənələri şam işıqları altında yaqut kimi parlarmış, Kəminə buna işarə edir.

* * *

Xali-mişkinə baxın arizi-canana düşüb,
Deyəsən bir həbəşi səfheyi-İrana düşüb.

Mürği-dil daneyi-xalın görəli nalə çəkər,
Qisməti ruzi-əzəl ah ilə əfqanə düşüb.

Arizi-aldədir xali-siyahi əlhəq,
Xəti mişkin necə kim laleyi-nemanə düşüb.

Ey gözüm, ruyi yüzündə bax o xali-siyəhə,
Xəbər et mürği-dilə kim: odu, bir danə düşüb!

Mürği-dil, daneyi-xalın həvəsilə düşmüş,
Həlqeyi-zülfə ki, zəncirə çu divanə düşüb.

O kaman qaşə qoyub qəmzə oxun türk yüzün,
Şəhrə aşub salıb hər biri bir yanə düşüb.

Görəli dil səri-zülfini könül bənd oldu,
Misrdə Yusifi-Kənan necə zindanə düşüb.

Derimiş dilbər kim, könlü degil məndə müqim,
Dil dönüb qanə o gündən ki, bu böhtanə düşüb.

Nöqteyi-xalü gözü qaş yığılmış ruyə,
Dövrdə zülfi-Kəminə kimi peykanə düşüb.

* * *

Fəraq atəşinə yandırıb zəmanə məni,
Bəlavü dərd, ilahi, gətirdi canə məni!

Bu qədri cövrü cəfayə fələk görüb tabım,
Edibdi ğəm oxuna müttəsil nişanə məni.

Zəbani-tən açıb üstümə ədu hər yan,
Tükəndi səbri-dilim, gətdilər amanə məni.

Tifaqımı dağıdıbdır bu çərxi-bədkirdar,
Edib məclisi-əğyarda fəsanə məni.

Görəndə zülf ilə xalın, deyər könül mürği:
O dami-zülfə salur axiri bu danə məni.

Qutar bu qeydi-fənadən, məcaz seyrindən,
İlahi, indi yetir mülki-cavidanə məni.

Kəminə etməz idi bak əhli-aləmdən,
Müqəyyəd eylədi axır yenə zəmanə məni.

***

Saqiya, mey ver ki, mən meyxanədə küllənmişəm,
Qəm hücumundan qaçıb bir küncdə gizlənmişəm.

Şuri-eşqin eyləyib divanə, müddət gəzmişəm,
Bağlayıb dil həlqeyi-geysuyə ta, dincəlmişəm.

Zülfi-kəckarın salıb sevdayə könlüm, sud yox,
Tari-muyin kimi, tari-muyindən incəlmişəm.

Sinəmi hər ləhzə tiri-qəmzən ilə qılma çak,
Mən də vaxtında sənin tək naz ilə bəslənmişəm.

Məst sanma, eyləmə tənə mənə hər dövrdə,
Çeşmi-məxmurun məni məxmur edib millənmişəm.

Bir əyağ ilə əlim tut, eyləmə birəhmlik,
Çox oturdum sümmi-bükmün imdi ta dillənmişəm.

Çun xəzan olmuş fəraqində tənü cani-həzin,
Açılıb zəxmi-dərun gül-gül, əcəb güllənmişəm.

Çəm-xəmindən piçtabə gəldi könlüm rişqəsi,
Fikri-sərvi-qamətindən rast ikən xəmlənmişəm.

Qan olub könlüm mənim bu badeyi-səhba kimi,
Dürdi-mey tək şişədə çoxdan qalıb lillənmişəm.

Bir sənubər qamətü gülpeykərü Leylivəşin,
Valehü heyranıyam Məcnunsifət çöllənmişəm.

Oldu zülfün telbətel, yetdi dimağa buyi-müşk,
Açılıb könlüm, Kəminə, gör necə tellənmişəm.

* * *

Eşqdə sud etmədim, düşdüm dəxi sevdayə mən,
Tapmadım bir sud, oldum böylə bisərmayə mən.

Beytüləhzanə Züleyxa tək girib qəm çəkməyim,
Boş deyil ondan düşüm Məcnun kimi səhrayə mən.

Canü ağuşin açıb, qəmlər basıb qan könlümə,
Cümlə ətfali-qəmə ta olmuşam bir dayə mən.

Arifi-saliklərin peşminə dəlqin vermərəm,
Dəhrdə, tanrı bilir, yüz ətləsü dibayə mən.

Bulmamışkən əhli-ürfanım mülaqin dəhrdə,
Uğradım nahaq yerə bir şuxi-bipərvayə mən.

Kuyi-eşqə girməyə könlüm dəxi etməz həvəs,
Rah püraşubdur düşdüm əcəb sevdayə mən.

Xaki-kuyi-dərgahi-Nəvvab olaydım kaş ki,
Bilmişəm bəxtimi yetməm rütbeyi-əlayə mən.

Abışa bilmiş Qaradağı Kəminə dağlanıb,
Odalı sərkar Növrət, Bakiyə həmsayə mən.

# RƏNCUR ŞAHNİGAR XANIM

*Rəncur 1850-ci ildə Qazaxda yetişmiş şairə Şahnigar xanımın təxəllüsüdür. O, Qazax mahalının Ağköynək kəndinin sakini Kazımağa Qiyasbəyovun qızı, Paşa ağa Dilbazovun qadını idi. Şahnigar xanım Qazaxda nəqşbəndi təriqətinə başçılıq edən şair Seyid Nigarinin təsiri altında dini mahiyyətli şeirlər yazmışdır. Ərinin və yeganə qızı Abihəyat xanımın vəfatına qəmli şeirlər – mərsiyyələr də söyləmişdir.*

*1899-cu ildə vəfat etmişdir.*

## QƏZƏLLƏR

Nigara, rövzeyi-hüsnün kimi aləmdə bağ olmaz,
Çəkən ol hüsni-hicranın ərir, gözündə yağ olmaz.

Güli-ruyin fərağından, əzizim, min fəğan ilə,
Edən fəryad şəbgiri olur, bülbülü zağ olmaz.

Sərasər yer üzün tutmuş, xüruc eylər səmavətə,
Çıxar şamü səhər zarım, könül bir dəm fərağ olmaz.

Sənin tək bir şəhi-ziba bulunmaz kainat içrə,
Mənim tək sinəsi hicran odundan dağ-dağ olmaz.

Konun zəxmi-fəraqindən bu cismi-natəvan içrə,
Təbiba, gəzsən əndamım sərapa cayi-sağ olmaz.

Vücudin sərbəsər qıldın müzəyyən rəxti-xab içrə,
Könül, bil, aşiqi-sadiq cahanda bu sayaq olmaz.

Oyan bu xabi-ğəflətdən, fəğan et, xəstə Rəncuri,
Fəğandan aşiqin könlü yarım ləhzə iraq olmaz.

***

Türfə naməndən, şəha, gəldükcə hər güftarə ləfz,
Dəm urur dərman beyindən can verir bimarə ləfz.

Kim edər həmta anı aləmdə min simü zərə?
Kim verər nisbət dəxi min lölöi-şəhvarə ləfz?

Zülməti-hicrinlə ğəmnak idi çeşmin mərdümi,
Şükrillah kim bu gün ğərq eylədi ənvarə ləfz.

Kuyi-gülzarın vəfasından verür hər ləhzə bu,
Abi-kuyindən rəvan eylər dili-pürnarə ləfz.

Var idi min dərdim ol dərmani-Loğmandan füzun,
Dəmbədəm eylər müalic dərdi-min düşvarə ləfz.

Bəndeyi-üftadənəm ləfzinlə, şahim, qıl nəzər,
Zərrəcə aləmdə sərdən olmasın avarə ləfz.

Himməti-arinlədir əlhəmdülillah nisbət ol,
Xəstə Rəncurun sərində kaseyi-sərşarə ləfz.

***

Yağmasa hicran, gözüm, yanmaz könül hər dağilən,
Əyməsə hicran əyilməz qədd dərd olmaq ilən.

Sən necə Loğman idin azdur bildin dərdimi?
Çun təbib təşxis edər hər dərdi nəbz almaq ilən.

Xəsteyi-hicranınam gər görməsəm didarını,
Olmazam sakin vüsalın ğeyrindən sormaq ilən.

Gər bu xəstə üzrə nagəh lütf edüb qılsan güzər,
Can bular behbudi-feyzi-məqdəmin bulmağ ilən.

Gərçi qıldın seyr, ey dust, çeşmələr dövründə, mən
Təşneyi-didarınam, doymaz könül irmaq ilən.

Məclisi-nadana dəvət qılma, ey zahid, məni,
Bülbülə nöqsandır həmməclis olmaz zaq ilən,

Eyləmə minbəd çox azarü ibram, ey rəqib,
Yoxdu xofim fitnə-əhlilə cahan dolmaq ilən.

Himməti-Seyyid Nigarilə təriqi-eşqdə,
Şükrlillah tökdüm əğyarın gözün barmaq ilən.

Xəstə Rəncurəm mənə lütfi-xuda yar olsa gər,
Var qəsdim hər zaman əğyari kor qılmaq ilən.

***

Həmd kim dəstindən, ey şəh, gəldi bir feyzanə xət,
Gün kimi aləmdə sərdən tab edər hər yanə xət.

Şükrlillah kim, nigara, eylə zənn eylər könül,
Nisbət ol gündən münəvvər ayeyi-Quranə xət.

Eylərəm həm dəmdə vird ol həşt cənnət buyini,
Hövzi-Kövsərdən saçar su atəşi-hicranə xət.

Hər zaman kim xəttinin tovf eyləyib məzmunini
Oxuram bağrım çəkər hər ləhzə min büryanə xət.

Ol mübarək kuyin üzrə odlu könlüm nagəhan,
Atəşi-hicran əlindən yazdı xunəfşanə xət.

Dediyim dərman üçün bir namə göndərdim dəxi,
Xuni-çeşmimdən yazılmış tən edər mərcanə xət.

Xəstə Rəncurun bu gün var isə, üzrü qıl qəbul,
Himmət et kim, ya vəli, dil verməsin nöqsanə xət.

# ZİBA XANIM LƏLİ

*XIX əsrin ikinci yarısında yaşayıb yaradan Ziba xanım Mustafaxan qızı Ərdəbili, Ləli təxəllüsü ilə rübabi parçalar, bir qədər də şəxsi səciyyə daşıyan qəzəllər yazmışdır.*

*XIX əsr cünglərindən birində və mənbələrdəki bir sıra başqa qeydlərə əsasən Ziba xanım Ləlinin bir müddət İrəvanda yaşadığını, arasıra Qarabağa – Şuşaya gəldiyini, müasirlərindən Fatma xanım Kəminə, Gövhər bəyim, Qəmərbəyim Şeyda kimi şairlərlə tanış olduğunu, şeirləşdiyini söyləmək mümkündür. Onun "ağam canı" rədifli qəzəlinə Qarabağ şairlərindən Kəminə, Şeyda və Novrəs nəzirə və cavablar yazmışlar.*

*Ziba xanım Ləli savadlı, klassik Azərbaycan ədəbiyyatına bələd bir şair olmuşdur.*

## QƏZƏL

Pərişan eylərəm zülfi-pərişanı, ağam canı,
Pərişan eylərəm məcmui-dünyanı, ağam canı.

Xəyali-vəslimə hər kim düşə, canından əl çəksin,
Bu sevdayə düşən tərk eyləsin canı, ağam canı!

Əgər turi-təcəlla eyləsəm, bu abü tab ilə,
Şüayi-ruyim ilə məhv dünyanı, ağam canı!

Adım Ziba, sözüm şirin-şəkər, gözlərim şəhla,
Fəramuş eyləyib hüsnüm Züleyxanı, ağam canı.

Sənin tək aşiqü-məşuq yox, Ləli, bu aləmdə
Qamu aşiqləri eşqin edib fani, ağam canı.

# GÜLƏNDAM

*Deyilənə görə Aşıq Ələsgərin "Güləndam" rədifli qoşması məhz bu bayatıçı Güləndam xanıma qoşulmuşdur. Həyatı rəvayətlərlə doludur. Bir müddət qaçaq Dəli Alının dəstəsində olmuş, Dəli Alının bacısı oğlu Zeynalabdinin ömür-gün yoldaşı imiş. Onun Aşıq Bəsti ilə görüşlərindən də danışırlar. Uzun ömür sürüb.*

**BAYATILAR**

Eləmi mərdə məni,
Salmısan dərdə məni.
Namərdə qul olmaram,
Qurban kəs mərdə məni.

⌘
Eləmi oyan yeri,
Yatmısan, oyan, yeri!
Yüz gün sel oya bilməz,
Bir gün qəm oyan yeri.

⌘
Baxça barsızdı, gülür,
Heyva narsızdı, gülür.
Ürəyim qan ağlayır,
Üzüm arsızdı, gülür.

⌘
Qarşısında tək də var,
Yoldan enən tək də var.
Bəxtəvər cüt başına,
Heç demirsən, tək də var.

# MAH XANIM

*XIX əsr qadın şairlərindəndir. Şəkidə yetişmişdir. Müasirlərindən Mahtab xanım, tanınmış şair Mustafa ağa Şuxi və başqaları ilə şeirləşmişdir.*

*XIX əsrin ortalarında, bəlkə də II yarısında yaşayıb yaratdığı ehtimal olunur.*

*Bir sıra qoşma, çarpara və satirik şeirləri mövcuddur. Klassik ədəbiyyata və xalq şerinə yaxından bələd şair olmuşdur.*

## QOŞMALAR

Könül, sən pətəyə hər daş atanda,[1]
Bilmədinmi arı şanın gözləyər?
Qaçaq atın saxlar, igid tüfəngin,
Xanzadalar adın, sanın gözləyər.

Ağaların bağçası var, barı var,
İlxısı var, atı, malı, varı var.
Kasıbın da namusu var, arı var,
Ədəb-ərkan saxlar, yaxın gözləyər.

Ağayi-Şuxinin qayğısı azdır,
Kəllə-mənqo olub, canı nasazdır.
Dedim: öz əlinlə qəbrini qazdır,
Ehtiram saxlayan canın gözləyər.

---

[1] Şair Şuxiyə yazmışdır.

Mah xanımam iqrarımda duraram,
Yolda azanların boynun vuraram,
Qoca kaftar, sənə bir ox vuraram,
Dəymişin tökülər, kalın gözləyər.

***

Ey həbəş oğlu, dur tez ol geyin,
Od tutub canım, yandırar məni.
O biinsaf yar heç xəbər tutmaz,
Öldürər axır intizar məni.

Ol bığı burma, əyri xəncərli,
Söz verib getdi, bivəfa çıxdı,
Məndən özgəsini qapında qoysan,
Eyləməzmi bəs şərmsar məni?

Bir dəsmal atdı, bağrıma basdım,
Öpdüm, ağladım, göz yaşım sildim.
Gözlədim gələr, axtarar tapar,
Bu dərdi-qəmdən qurtarar məni.

Namusdan, ardan dəm vuran oğlan,
Sözündə möhkəm olgünən barı.
Başda papağın yaylıq olmasın,
Müxənnəs gülər, dost qınar məni.

Sən həbəş oğlu, yetir ərzimi,
Mah xanımdan dili-şeydaya.
Ver bu dəsmalı bığı burmaya
Qoymasın haşa, ah-zar məni.

***

Ağzın baldı, dilin şəkər Mahitab,
Genə ciyərimin başı söküldü.
Gündüz qərarım yox, gecələr bixab.
Kor oldu gözlərim, belim büküldü.

Genə yarpaqlılar durmuş qəsdimə,
Ya Allahım, damən düşdü dəstimə,
Bu hicran ləşgəri gəldi üstümə,
Hər tərəfdən hücum etdi töküldü.

Hicranın oduna olmuşam kabab,
Gündüz qərarım yox, gecələr bixab.
Başın üçün doğru sözdür, Mahitab,
Ürək paralandı, cigər söküldü.

Mah xanımam bu sinəmi dağlaram,
Öz yaramı öz əlimnən bağlaram,
Gecə-gündüz sızıldaram, ağlaram,
Qəm carisi sinəm üstə çöküldü.

# MAHTAB XANIM

*Bir qoşmasından başqa onun haqqında əldə heç bir məlumat yoxdur. Mövcud mənbələrə istinad edərək yalnız onu demək olar ki, Mahtab xanım Mah xanımın müasiri imiş. XIX əsrdə Şəkidə yaşayıb yaratmışdır. Qoşması nikbin ruhludur, aşıq şeri tərzinə meyil etdiyini göstərir.*

## QOŞMA

Başına döndüyüm, ay Mah xanım,
O güllü bağlara varmışam bu gün.
Gecə-gündüz cani-dildən sevdiyim,
Qönçə güllərini dərmişəm bu gün.

Səhərdən varmışdım o gözəl bağa,
Bir tuti quş gəlib qondu budağa,
Mübarək qədəmin basdın otağa,
Gizlincə sirrimi vermişəm bu gün.

Dolanıb başına, düşüm ayağa,
Bir canım var, yara verim sadağa,
Əlimdə piyalə qabaq-qabağa,
Yarım yuxuda görmüşəm bu gün.

Mahtabam, yaman günüm keçildi,
Dolandı saqilər, badə içildi,
Gözün aydın olsun, baxtım açıldı,
Bir ali nəsibi sevmişəm bu gün.

# FATMA

*Şairənin Şirvanlı olduğu, XIX əsrdə yaşadığı yeganə qoşmasının yazıldığı cüngdəki bəzi qeydlərdən aydınlaşır. Nəqşbəndi təriqətinə mənsub imiş.*

**QOŞMA**

Qəni mövlam səndən dilək eylərəm,
Mənim əfəndimə bir yol ver gəlsin.
Ömür keçdi, belə günü neylərəm,
Mənim əfəndimə bir yol ver gəlsin.

On beş aydı bəkləmişəm yolları,
Rəvan oldu, axdı çeşmim selləri.
Aman Allah, sən sevindir qulları,
Mənim əfəndimə bir yol ver gəlsin.

Məlaiklər yaşıl əba gətirsün,
Ənbiyalar müşkül işin bitirsün.
Qadir Allah səni bizə yetirsün,
Mənim əfəndimə bir yol ver gəlsin.

İsmail payinə üzünü sürtər,
Qüssələr üz verib günbəgün artar,
Düşməmiş səhraya Məcnundan betər,
Mənim əfəndimə bir yol ver gəlsin.

Ağlamaqdan cigər dönübdü qanə,
Təbib yoxdur dözüm dərdi-hicranə,
Əfəndim gəlməsə ollam divanə,
Mənim əfəndimə bir yol ver gəlsin.

Dağlar başı duman imiş, qar imiş,
Müxlisüvün işi ahu-zar imiş,
Bu məclisdə övliyalar var imiş,
Mənim əfəndimə bir yol ver gəlsin.

Ərzimə yazmadım xana, soltana,
Bağladım sidqimi qadir sübhana,
Fatmayam qapuva gəldim dərmana,
Mənim əfəndimə bir yol ver gəlsin.

# XANBİKƏ

*Şairə Natəvanın Xasay xan Usmiyevdən olan qızıdır. Xanbikənin həyatı və yaradıcılığı haqqında əlimizdə demək olar ki, elə bir material yoxdur. XIX əsrin ortaları, XX əsrin əvvəllərində yaşamışdır.*

***

Ey nuri-düçeşm, ata, anə,
Saldın şərəri-fəraq canə.

Ata və ana, bacı və qardaş,
Ahi yetişibdir asimanə.

Sənsən oların müradi daim,
Ey bəhri-dilə düri-yeganə!

Sanma ki, fəraq səndədir tək,
Bu dərdə düşüb hamı zəmanə.

Ata, ana, qardaş ilə bacı,
Daim gətirir adın zəbanə.

Zənciri-məhəbbət iki başdır,
Səbr et dəxi düşmə sən fəğanə.

Süst eyləmə etiqadi-simur,
Əfsusilə gəlmə son amanə.

Qəm çəkmə, vüsalə tez yetərsən,
Oğlan gərək hicr ara dayanə.

Hamı öpürük nənən əlindən,
Ver busə özün bu halə anə.

# MƏŞƏDİ XANIM LEYLİ

*XIX əsrin sonu XX əsrin əvvəllərində yaşamış və çox az ömür sürmüş Məşədi xanım Leyli 1892-ci ildə Bakıda anadan olmuş, 1912-ci ildə aprel ayının 30-da buradaca vəfat etmişdir. Mənbələrdə Leylinin iki qəzəli mühafizə olunur. Hər iki qəzəl, Natəvan pərəstişkarlarından olan bu şairənin qabiliyyətli, sadiq və nəcib bir insan olduğunu bildirir.*

## QƏZƏLLƏR

Edim ya rəb, nə çarə, məndən ol cananım ayrıldı,
Bu hicrandidə canımdan o şirin canım ayrıldı.

Gedib seyr etməyə əğyarlarla bağə, büstanə,
Günah etməm desəm: məndən, əgər, yəzdanım ayrıldı.

Əgər küsmüb, əgər xişm etməüb, incimüb, ey dil,
Gülündən bəs neçün bülbüli-xoşxanım ayrıldı?

Füzundur Leylidən, Şirindən, Əzradən ənduhim,
Mənim Fərhadü Qeysim, Vamiqü Sənanım ayrıldı.

Nə noi səbr edim hicranına Məcnunun, ey Leyli,
Həyatım, ruhum ayrıldı, şəhim, sultanım ayrıldı.

***

Halal qıl məni, ey şairi-fikar, ölürəm,
Edib daha məni gürgi-əcəl şikar, ölürəm.

Zəmanə qoymadı bir dəm deyim, gülüm, danışım,
Gözümü qoydu mənim səndə intizar, ölürəm.

Bahari-ömrümü dövrani-dun xəzan etdi,
Olundu işrətimin rəxti tarü-mar, ölürəm.

O ağlayan gözüvə gözlərim fəda olsun,
Dayanma, al kəfənim, hazır et məzar, ölürəm.

Məni bağışlagilən, çox xəcalətəm səndən,
Cəfamı çəkmisən, əfsus, səd həzar, ölürəm.

Nişanə qalmadı məndən, qızım da öldü mənim,
Gözümə oldu əcəb tirə ruzigar, ölürəm.

Qızımla mən sənə, ey aşiqim, fəda olduq,
Bu bir qəzəl sənə məndəndi yadigar, ölürəm!

Halal qılgilən, ey Qeys, xəstə Leylini
Görüm ola sənə pərvərdigar yar, ölürəm.

# QƏMƏRBƏYİM ŞEYDA

*Keçən əsrin son rübündə Şuşada anadan olmuşdur. Tezliklə atasını itirmiş və dayısının himayəsinə keçmişdir. Dayısı onun gimnaziyada təhsil alması üçün şərait yaratmışdır. Qəmər bəyim Vəzirova olduqca cəsur, at minən, tüfəng atan, dövrünün soyğunçu qaçaqlarına qarşı əldə silah çarpışan igid bir qadın kimi ad çıxarmışdır.*

*Qəmər bəyim Şeyda yaradıcılığa erkən, həm də şeirlə başlamışdır. 8-9 yaşlarında ikən Xurşidbanu Natəvana yazdığı bir qəzəli böyük şairə çox bəyənmiş və balaca Qəmərə "Şeyda" təxəllüsünü də o vermişdir. Qəmər bəyim Şeyda, böyük müasirlərindən Fatma xanım Kəminəni və Ziba xanım Ləlini tanımış, onlarla şeirləşmişdir. Gənc Qəmər və Zibanın "Ağan canı" rədifli fəxriyyə-müşairələrinə o dövrdə artıq yetkin şair olan Kəminə yekun vurmuşdur. 1918-ci ildə Qəmər bəyim, xanlıqlar dövrünün haqsızlıqlarını əks etdirən "Zülmün daşqını" adlı 6 pərdəlik bir faciə də yazmışdır.*

*1938-ci ildə Bakıda vəfat etmişdir.*

***

Dağıtsam hər tərəf zülfi-səmənsanı, ağan canı,
Giriftar eylərəm sən kimi "Zibanı", ağan canı!

Əgər olsan gözəllikdə bərabər mahi-tabana,
Sənə xurşid olan ruyim olar mane, ağan canı.

Sənin tək hər büti-ziba çalışsa, sayəmə çatmaz,
Camalım Yusifi-Misri edib sani, ağan canı.

Məlahət gülşənində qonçeyi-rənayi-gülçinəm,
Açılsam gər tutar qovğa bu dünyanı, ağan canı.

Lətafət mülkünün sultanıyam, sən kimi zibalar
Kənizi-mətbəximdir, et tamaşanı, ağan canı!

Ləbi şəkər, sözü şirin bu Şeyda tək hərifin var,
Əgər mümkün ola tərk et, bu sövdanı, ağan canı.

# PƏRNAZ

*Pərnaz Azay qızı təxminən 1860-62-ci illərdə Şamaxı rayonunun Bağırlı kəndində köçəri ailəsində anadan olmuşdur. Onun atası Azay da Dovğaçı oğlu təxəllüsü ilə şeirlər yazmışdır.*

*Pərnaz xalqımıza xas olan xalçaçılıq sənətini gözəl bilmiş, toxuduğu xalçalara incə naxışlar vurması ilə də seçilmişdir.*

*Şairə uzun ömür sürmüş, 1968-ci ildə, doğma kəndində vəfat etmişdir. Qəbri Bağırlı məzarlığında, atası, şair Dovğaçı oğlu Azayın qəbrinin yanındadır.*

**BAYATILAR**

Pirdərəki dağımdı,
Qoynu qəm oylağımdı,
Yaş tökür leysan kimi,
Deyir yaman çağımdı.

⌘
Bu gələn arabadı,
Qoy gəlsin arabadı,
Dünənki cənnət şəhər
Bax, bu gün xarabadı.

⌘
Dağda biyan varmola,
Soyub yeyən varmola,
Bu əcəlsiz qırğına
Hayıf deyən varmola?

⌘
Sürü biyana gəlsin,
Yesin, biyana gəlsin,
Deyin o vəfasıza,
Dönsün bu yana gəlsin.

⌘
Yulğunlu, ay yulğunlu,
Yığıb getdim yulğunu,
Varmı bir mənim kimi
Çoxlu dərdlər yorğunu?

⌘
Çəkməsi cığ-cığ eylər,
Evimizi palçığ eylər,
Zəhləm gedər o yardan
Hər gecə acıq eylər.

⌘
Eyvanım həsir mənim,
Ürəyim əsir mənim,
Toyumu tez eyləyin,
Yarım tələsir mənim.

⌘
Palazda narıncı var,
Abı var, narıncı var,
Hardasan, ay nainsaf,
Dalınca zarıncı var.

⌘
Quzunu alan olmaz,
Ağıla salan olmaz,
Deyirlər yarım gəlir,
Bu boyda yalan olmaz.

⌘
Şəhərə yol eylədim,
Kağızı bol eylədim,
Yuxusuz gecələrdə
Göz yaşım bol eylədim.

⌘
Şəhər yolu köndələn,
Qolum gəlmir döndərəm,
Yazı-pozu bilmirəm
Məktub yazıb göndərəm.

⌘
Karvan keçər toz eylər,
Paxıl gözü boz eylər
Qonşunu qara geysin,
Yar gələndə söz eylər.

⌘
Mən aşıq taxta yeri,
Dolan gəl taxta yeri,
Gəl ikimiz biş yataq
Qovurur şaxta yeri.

⌘
Şirvanım dağlarıynan
Meyvəli bağlarıynan,
Sənin qurbanın olum
Yanımın ağlarıynan.

⌘
Su götürdüm hovuzdan,
Xoşum gəlir tovuzdan,
Yar mənə pencək alıb,
Astarı qanovuzdan.

⌘
Bağırrıdı obamız,
Dovğaçıdı babamız,
Yara qurban oleydi,
Bizim cəddi-obamız.

⌘
Şəhərin dam öyləri,
Əsil tərxan öyləri,
Zəlzələ viran qoydu
Dağıldı şam öyləri.

⌘
Küdrünün alaları,
Boş qalıb çalaları,
Susuz qalıb ceyranı,
Mələşir balaları.

⌘
Simavər pıqqıldayır,
Qəndqıran şıqqıldayır
Zəhləm gedir o yardan
İş bilməz, nıqqıldayır.

⌘
Bağırrı kəm üstədi,
Qışlağı çəm üstədi,
Pərnaz nə hava çalsa,
Hamısı qəm üstədi.

⌘
Küdrünün örüş yeri,
Ot yeri, örüş yeri,
Qışlağın zağaları
Qızların görüş yeri.

# ZEYNƏB ZƏRBƏLİ QIZI

*Zeynəb Zərbəli qızı təxminən 1860–62-ci illərdə Şirvan mahalının Kolanı elatının Goran tayfasında, köç binələrinin birində anadan olmuş, babası şair Çürük İslamın yanında böyümüş, şeir yazmağı da ondan öyrənmişdi.*

*1919-cu ildə baş vermiş vəba, haqsızlıq və zülmün ifşası, sonralar isə 1941–1945-ci illər müharibəsi ilə əlaqədar bir sıra şeir və bayatılar söyləmişdir.*

*1942-ci ildə təxminən 80–85 yaşlarında vəfat etmişdir.*

## GƏRAYLILAR

Nə müddətdi yol gözlərəm,
Nə durmusan, qoç İsmayıl?
Atam məni salıb bəstə,
Gəl qapını aç, İsmayıl!

Dağlar başı duman olar,
Əlif qəddim kaman olar
Mənim halım yaman olar,
Tez ağarar saç, İsmayıl!

Gəl eşit Zeynəb sözünü,
Yoldan yığ yarın gözünü,
Çox da incitmə özünü,
Götür məni qaç, İsmayıl!

* * *

Dünya sənə gələn olmaz,
Çalxalanar ümman dolmaz,
Dərd-azarı qanan olmaz,
Ahü-zardı sözün sənin.

Pis əhvalda sorma məni,
Bu məkanda arma məni,
Yaman çağa salma məni,
Qan ağlayar gözün sənin.

Zeynəb köçər, özü qalmaz,
Nitqi batar, sözü qalmaz,
Torpaq üstə izi qalmaz,
Nə dönükmüş üzün sənin.

## BAYATILAR

Küdrünün katan qarı,
Novruzu ötən qarı,
Allah tezbazar etsin
Axşamdan yatan qarı.

⌘
Mələ, qoyunum, mələ,
Səsin daşları dələ,
Mən mələdim gəlmədi,
Sən mələ, bəlkə gələ.

⌘
Bu dərənin uzunu,
Oğlan, qaytar quzunu,
Get dədəmə çoban ol,
Bəlkə verə qızını.

⌘
Sacları külləsənəm,
Gül vurub gülləsənəm,
Sən igidlər nəslisən,
Dəyməz heç güllə sənə.

⌘
Arxac üstü boyana,
Getmə məndən o yana,
Çəkərəm pünhan-pünhan,
Vermərəm dərd bəyana.

⌘
Xoruz ban qabağında,
Sübhün dan qabağında,
Yarım bir bizə gələ,
Verəm can qabağında.

⌘
Mis qazanın paxırı,
Oğlan, qaytar naxırı.
Darıxma, çoban bala,
Qız sənindi axırı.

⌘
Görükən qarağandı,
Çərəndi, qarağandı,
Əzrayıl ovdan gəlir,
Əlləri qara qandı.

# GÜLGƏZ MAQSUD QIZI

**(*Qarabağlı qızı*)**

*1876-cı ildə Qarabağ mahalının Bacirəvan kəndində köçəri təklə ailəsində doğulmuş və heç bir təhsil görməmişdir. 16 yaşında ikən zorla yeddi yetim üstünə, Göyçədə tanınmış Kalvayı Camal ağaya verilmişdir. Ərindən və yetimlərdən xeyli sitəm çəkmiş, adı ilə və ya "ana" deyil, "qarabağlı qızı" çağırılmışdır. Vəfat etdiyi tarix məlum deyil.*

**BAYATILAR**

Əziziyəm gül gəzə,
Bülbül gərək gül gəzə.
Həsrətinlə yanıram,
Xəbər göndər Gülgəzə.

⌘
Necə xara əyilim,
Çəkmir ata meyilim.
Yaxam yetim əlində,
Kalvayı əzreyilim.

⌘
Mətləbi sözümdən al,
Pərdəni üzümdən al.
Yarım, gəl gir qapıdan,
Bəxşişi özümdən al.

⌘
Ağacdan nar düşdü gəl,
Dağlara qar düşdü gəl.
Canım zalım əlində,
Yadıma yar düşdü gəl!

⌘
Əzizim yar aşıqdan,
Xəbər al yar, aşıqdan.
İl tamam olmayıbdı,
Düşmüşəm yaraşıqdan.

⌘
Canım dərd qucağında,
Öləm mərd qucağında.
Zaman qismət eyləyib,
Quzu qurd qucağında.

⌘
Elim gəlib, dağdadı,
Piltə yanır, yağdadı.
Ömür keçir, gün keçir,
Könlüm elə "ax"dadı.

⌘
Yarı gözüm görəydi,
Odum, közüm görəydi.
Görmədiyim xoş günü,
Oğlum, qızım görəydi.

⌘
Təhlədi elim, haray,
Cənnətdi çölüm, haray,
Qürbətdə yurd salmışam,
Vətəndə ölüm, haray!

# SONA AXUNDOVA

*Sona Axundova XX əsrin əvvəllərində fəaliyyət göstərmişdir. Mənzumələrində ictimai motivlər, xalqı maarifləndirməyə meyl güclüdür. Xoşbəxt gələcək uğrunda çarpışan ziyalılar dəstəsindəndir. Fəaliyyət dövrü əsasən, 1905-1920-ci illərdə olmuş, dövrü mətbuatda bir çox şeirləri çap edilmişdir.*

**VƏTƏN**

Vətənin bəxtinə hərdən çəkirəm həsrəti mən,
Sevirəm ol vətənə sərf edilən qeyrəti mən.
Nə qəmim var vətənimlə qazanam şöhrəti mən,
Olmaram razı əgər cəhldə qalsa vətənim,
Vətənim qalsa əgər cəhldə, yansın bu tənim!

Varmı bir mərdi-mücaət vətənə qurban ola?
Vətənin torpağı cismində onunçün can ola,
Vətənin dərdini duycaq ürəyi al qan ola,
Olmaram razı əgər cəhldə qalsa vətənim,
Vətənim qalsa əgər cəhldə, yansın bu tənim.

# ASYA AXUNDZADƏ

*Gəncədə yaşayıb fəaliyyət göstərmişdir. 1910-1911-ci illərdə çıxan ilk Azərbaycan qadın qəzeti olan "İşıq"da şairənin vətən məhəbbəti ilə dolu, gözəl əxlaq tərbiyə edən, maarifə çağıran bir çox şeri çap olunub. Haqqında başqa məlumat yoxdur.*

Qalıb nadan əlində sevgili, dildari-vətən.
Zibi-ağuşi-qara olmadadır yari-vətən.
Vətən övladı bu günə sırf gədalardan tamam,
Sitəm rağib edən bunca cəfalardı tamam.
Fitnədir, hiylə ilə şəri riyalardı tamam,
İstəyir molla babalar sola ənvari-vətən,
Necə ki, soldu bütün cəhl ilə əşcari-vətən,

A vətən, millət ara yoxdu səni yad eləyən,
Yıxılan qəlbini təmir ilə abad eləyən,
Yetişib qeyrət ilə dadına imdad eləyən,
Səni zülmatın əlindən alıb azad eləyən.
Qalmamışmı, əcəba, dəhrdə ənsari-vətən?
Yədi ünvan ilə olmuş necə gör zar vətən!

Vətənin mən necə təhrir eləyim zillətini?
Oxşasam vardı yeri həşrə kimi möhnətini,
Batırıb cümlə müsəlman necə gör qeyrətini?!
Saxlayır evdə çoxu qeyrilərin övrətini,
Bəsləyir onları, çünki odu xunxari-vətən,
Daha da tez yıxıla bu dərü divar, vətən!

A vətən, ağlayaram sübhü məsa halına mən,
Sən idin ətri saçan bir güli-gülzari-çəmən,
Səni viran elədi Molla Baba kimi zəğən,
Olacaqmı buları başdan aman dəf eləyən?
Asya, cəhl ilə olmuş belə bimar vətən,
Pozulubdur o səbəbdən bütün əfkari-vətən

# MARAL XANIM NƏBİZADƏ

*Maral xanımın 1911-ci ildə "İşıq" qəzetində dərc olunmuş şeirlərindən aydın olur ki, Şəkidə yaşayıb fəaliyyət göstərmişdir. Maarifə, mədəniyyətə, gənclərdə vətənpərvərlik hissləri tərbiyə edən, qadının cəmiyyətdəki ağır vəziyyətini göstərən şeirləri ilə tanınır.*

## BACILARA XİTAB

Ey günü qara, işi ah ilə əfqan bacılar,
Halı heyvana münasib, adı insan bacılar!
Hansı zalım sizə dünyada görüb zülmü rəva?
Hansı bir zalıma zülm etdi müsəlman, bacılar?
Arvadı xəlq eləyib xaliqimiz cənnətdə,
Nə üçün məskən olub sizlərə niyran, bacılar?
Nə qədər var isə dünyada ünas tayifəsi
Anadır nəsli üçün cümləsi eyzan, bacılar!
O şərafət ki, şəriət sizə məxsus etmiş
Hanı sizdə o şərəf, həm dəxi o şan, bacılar?
Həqqi-hürriyyətiniz var isə şərən sizdə
Üsəralar kimi qalduz nə üçün, can, bacılar?!
Sizi zülm ilə edirlər oxumaqdan məhrum
Ki alıb-satmağa layiq ola heyvan, bacılar!
Ata övladına zülm olmağı layiq bilməz,
Qoymaz övladını heç vaxtda giryan, bacılar!
Atalar qızlarına şəfqət ilə baxmalıdır,
Oxudub sizlərə öyrətməli ürfan, bacılar.
Ey atalar, analar! Ey bacılar, qardaşlar!
Qoymayın bizlərə dünya ola zindan bacılar.
Oxudun bizləri də elmiylə ürfana yetək
Kəsb edək ailələrçün sərü səman, bacılar.
Ey məni halına qan ağladan, ey yazıqlar,

Ey gözü kor analar, xanəsi viran bacılar.
Tökməyin göz yaşı yaslarda kənar adəm üçün,
Hər kəs öz halına olmalıdı giryan, bacılar!
Analar olsa ziyalı, olu xoşbəxt əyal,
Açılar nəşri-ümumə neçə meydan, bacılar!
Sahibi-elm ananın tərbiyəsi övlada
Başqa təsir verər, hikmətini qan, bacılar!
Cır ağac olmasa peyvəst, verər meyvəni cır
Abdar olmağa yox meyvədə imkan, bacılar!
Elmsiz bir anadan başqa cür övlad olmaz,
Hər təbiət çəkəcək əslinə qətən, bacılar!
Necə kim söylədi şerində Füzuli atamız:
Ləl olarmı qara daş, eyləsən al qan, bacılar?
Əgər övladi vətən qalsa cəhalətdə, səbəb
Ən qabaqca anadır qalmağı nadan, bacılar!
Atası, həm anası olsa avam övladın
Qalar övlad avam, kor və heyvan, bacılar!
Mədəniyyət tapacaq millət əzəl madərdən,
Sonra məktəb verəcək elmlə ürfan, bacılar.
Yaşamaq haqqı ünas ilə zükura birdir,
Fərzdir elm bizə, onlara, şərən, bacılar!
Olsa gər ailəmiz bir mədəniyyət ocağı,
Mərifət mərkəzi, bir mənbəyi-ürfan bacılar.
Necə xoşbəxtdir ol ailənin əfradı,
Sürələr elm ilə, ürfan ilə dövran bacılar.
Necə xoşbəxtdir ol tifl ki, bu evdə doğa,
Ona alim ana ağuşu verə can bacılar.
Tifl ikən tərbiyə təxtində edib nəşvü nüma,
Nə olar böylə uşaq, məktəbə qoysan, bacılar?
Vətənə, millətinə, dilinə xadim olacaq;
Yetirər alim ana gör necə oğlan, bacılar!
Mərifətli ananı ərsəyə məktəb gətirər,
Məktəb olsa oxuyar elmini nadan bacılar.
Pəncəyə-zülmdən arvad yaxasın qurtarsa,
Qurtarar millətini zülmdən əlan, bacılar!

# BAŞXANIM ŞƏFİ QIZI

*Deyilənə görə, 1878-ci ildə Göyçə mahalının Daşkənd kəndində anadan olmuşdur. Aşıq Savadın böyük bacısıdır. Qardaşı, dövrün mütərəqqi ziyalısı, Molla Hacı Rəhimdən mükəmməl təhsil alıb. Qadınlara savad öyrətməyə çalışıb. İki oğlunun cəbhədə həlak olduğunu eşidəndən – sinəsinə bala dağı çəkiləndən sonra, 1949-cu ildə doğma Daşkənd kəndində vəfat etmiş orada da dəfn olunmuşdur.*

**QOŞMALAR**

Fələyin özü də sağalda bilməz,
Bədənimdən bir cüt qolum kəsilib.
Sözüm kəndirlənib, kəlməm dolaşır,
Sitəm xəncəriylə dilim kəsilib.

Fələyin sirrindən az-çox halıyam,
Ömrə nə şərikəm, nə davamlıyam.
Qəzanın torunda çırpınalıyam,
Hər tərəfdən ümid yolum kəsilib.

Zarıncıyam, ömrü bada vermişəm,
Göz açandan qüssə, kədər görmüşəm,
Ayrılıq dəmini elə görmüşəm,
Ulu tanrıdan da əlim kəsilib.

***

Qataq dərdimizi ay yazıq bacı,
Acı mənim, şirinini sən götür.
Ümidsiz həsrətin istisi mənim,
Yaralısan, sərinini sən götür.

Məndə oğul, qardaş, səndə yar dağı,
Neçə nakamların ahu-zar dağı.
Böyükmüş qəzanın sitəmkar dağı,
Dayaz mənim, dərinini sən götür.

Həsrət-həsrət boyun bükmə, ay bacı,
Gözlərini yola dikmə, ay bacı,
Qəm-qüssəni təkcə çəkmə, ay bacı,
Mini mənim, min birini sən götür.

**BAYATILAR**

Dərd çəkən canım oldu,
Çürüyən yanım oldu.
Taleyim ayaq xanım,
Adım Başxanım oldu.

⌘
Ömrümün zamanında,
Ox gördüm kamanında.
Qazdırın məzarımı,
Qardaş qəbri yanında.

⌘
Allah, eylə sən kərəm,
Ağlayıram yüz kərəm,
Oğul-oğul deməkdən,
Gözdən oldu Məhərrəm.[1]

[1] Həyat yoldaşına işarədir.

# PÜSTƏ ŞİKAR QIZI

*Püstə Şikar qızı təxminən 1880-ci ildə Şirvanın Təklə elatının Muradlı tayfasında anadan olmuşdur. Köçəri həyat keçirmişdir. On üç yaşında ərə gedən şairə ağır həyat sürmüşdür. 1947-ci ildə Göyçay rayonunun Müskürlü kəndində vəfat etmiş və İslambaba qəbiristanında dəfn edilmişdir.*

## BAYATILAR

Əzizinəm öz ərkim,
Öz ahım var, öz ərkim,
Balam ölür iz qalmır,
Mən dözürəm, dözər kim?

⌘
Aşıq düşdü xam canım,
Dünyadan nakam canım,
Fələk sənə güc gəldi,
Oldun ona ram, canım.

⌘
Ürəyim qandı, tarı,
Dərdim qandi, tarı,
Xalqı soyub talayan,
Bəyinən xandı, tarı.

⌘
Ata elim Təklədi,
O da məni təklədi,
Baxtım ayaq açmadı,
Uşaqtək iməklədi.

# NABIRLI BADAM

*El arasında Nabırlı Badam adı ilə tanınmış Badam Müslüm qızı təxminən XIX əsrin 80-82-ci illərində Şamaxı qəzasının Nabır kəndində anadan olmuşdur. Kiçik yaşlarından söz qoşmağa həvəs göstərmişdir.*

**QOŞMA**

Üzdüm qəvvas kimi söz dəryasında,
İqbalım arzumla heç tən olmadı.
Min-min könül tikdim abad eylədim
Könül sarayımı tikən olmadı.

Mənə qismət oldu elə bir dövran,
Nə insaf yox, nə ədalət, nə divan,
Haqqı gördüm getdi nahaqqa qurban.
Durub hesabını çəkən olmadı.

Pulu namus bildi azğın ağalar,
Peysəri piylilər, qarnı yoğunlar,
Din-imandan gop eyləyən mollalar
Özlərində iman nədən olmadı?

Yordu eli çovuşların cır səsi,
Beşaçılandı kəndxudanın silləsi.
Necə yandı kasıb-kusub dədəsi,
Ərşə çıxdı, ayırd edən olmadı.

Qərib sayılsam da doğma elimdə,
Aydındı aləmin sirri gözümdə,
El dərdini gizli çəkdim sinəmdə,
Badam, heyif, aşkar bilən olmadı.

# AŞIQ SAVAD ŞƏFİ QIZI

*1885-ci ildə Göyçə mahalının Daşkənd kəndində Molla Şəfinin ailəsində anadan olmuş, atasından ruhani təhsil almışdır. 1950-ci ildə Gədəbəy rayonunun Söyüdlü kəndində vəfat etmişdir. Saz çalmağı öyrənmiş, aşıqlıq etmiş, toylarda, el şənliklərində özünün, xüsusən ustad, aşıqların dillər əzbəri olan sözlərini oxumuş, çalıb-çağırmışdır.*

**QOŞMA**

Canı kabab, qanı şərab eylədin,
Candan kabab, qandan şərab olarmı?
Yarından ayrılan candan ayrılar,
Eşq əhlinin könlündə tab olarmı?

Məni xab içində bilmə, ey nadan!
Didəmdə həsrətdi hər sökülən dan,
Mən ki dərd əhliyəm əzəl binadan,
Dərd əhlinin gözündə xab olarmı?

Bir ov itirmişəm, çətin ki, tapam,
Versin sorağımı bu el, bu obam,
Savadam, zarıncı, qəmxar, bitabam,
Qəm-hicran çəkməyən bitab olarmı?

# AĞCAQIZ

*Ağcaqız Kərbəlayı Dadaş qızı İmanova XIX əsrin təxminən 80-ci illərinin əvvəllərində indiki Neftçala rayonunun Hacımanlı kəndində dünyaya gəlmiş, 1974-cü ildə vəfat etmişdir. Əsli Şirvan ellərindəndir. Ağcaqız el içində bayatıları, qoşma və gəraylıları ilə tanınıb. Qoşduqları indi də ağızlarda dolaşır.*

## QOŞMALAR

Oğul üzə dura, gəlin bəd ola,
Onda olar halı yaman qocanın.
Cəhrənin iyi tək sözü ha tovla,
Sanarlar sözünü yaman qocanın.

Nəsihət verəndə ağız ki, büzdü,
Nə olsun gözəldi, qaməti düzdü?
Danışanda sözü elə bil gürzdü,
Vuracaq başına haman qocanın.

Səksəni, doxsanı, vurmuşam başa,
Heç duz tökməmişəm şəkərli aşa,
Salam da verəndə çıxır savaşa,
Tapılmaz dərdinə dərman qocanın.

Ağcaqız, bəd gəldi gəlin ilə qış,
Oğlunun evindən gəl indi yığış,
Qoy sənsiz başlansın bu evdə yarış,
Veribdir fərmanın zaman qocanın!

***

Üstünə ha örtdük qalın keçələr,
Qış boz gəldi, yenə donduq, alaçıq!
Qamış işığına qaldıq gecələr,
İçində yuxular yorduq, alaçıq!

Bacanı açardıq tüstünü çəksin,
Tay deməzdik külək külü ələsin,
Ocaq söndü, indi çək ər təhnəsin,
Ocağın gözünə qorduq, alaçıq!

Buzov bir tərəfdə ayağı bağlı,
İş çox, özün də ki, əli uşaqlı,
Sübh tezdən inək sağ, təmizlə ağlı,
Çöllərdə şikarsız torduq, alaçıq!

Ağcaqız söz deyər, sözün xasını,
Alaçıq, o günün sən tut yasını!
Bu baharda ellər çaldı sazını,
Axır yeni dövran qurduq, alaçıq!

## BAYATILAR

Ağcaqız, mələr qoyun,
Yatağa gələr qoyun,
Canım bir dərdə düşüb,
Adımı "Mələr" qoyun.

⌘

Ağcaqızam bir bəndi,
Qızlar bağlar bir bəndi,
Bir bağa bağban oldum,
Yüz arxı var, bir bəndi.

# CAHANSUZ

*Zərnişan Hidayət bəy qızı Seyidzadə 1898-ci ildə Gəncə şəhərində Hidayət bəy Xakinin ailəsində anadan olmuşdur. Təxminən 14-15 yaşlarında şeir yazmağa başlamışdır. Şairə heç bir məktəbdə oxumasa da, evdə şəxsi mütaliə yolu ilə ərəb, fars və rus dillərini öyrənmişdir.*

*"Cahansuz" təxəllüsü ilə şeirlər yazmış bu şairə 1945-ci ildə Gəncədə vəfat etmişdir.*

## GƏRAYLI

Bu dəhr üzrə gələn gündən,
Cahanı pür-bəla gördüm.
Yetəndə on beşə yaşım,
Olub bəxtim qara gördüm.

Qəmim pünhan, sözüm pünhan,
Gözüm yaşı rəvan pünhan.
Mənə düşmən olub könlüm,
Nə könlümdən vəfa gördüm.

Gözüm həsrət, günüm möhnət,
Məkanı çahidir zülmət,
Nəyi sevdimsə dünyadə,
Özümdən mən cuda gördüm.

Həmişə xəstəvi hicran,
Olub Məcnun sayağında,
Nə tərk etdim bu dünyanı,
Nə dünyada səfa gördüm.

Qalıb könlümdə çün pünhan,
Dili-dərdim zibəs, yaran,
Təbiblərdən olub məyus,
Nə bir mətləb rəva gördüm.

Gedib Loğman hüzurunda,
Dedim dərdim məlulanə.
Dedi: get, get, Cahansuz, mən
Sənə səbri rəva gördüm.

## QƏZƏLLƏR

Səhr çağı durub getdim çəmənzara, bahar idi,
Qalıb bir guşədə məhzun, gözüm həsrət baxar idi.

Gülü bülbül, bənövşə həm bir-birinə edər nazi,
Cəmi bülbül edər nalə, səfada bircə xar idi.

Kəsərdi səbrini bülbül, edərdi naleyi-dilsuz,
Göz ilə aşikar görmüş yarı əğyarə yar idi.

Gülə bülbül olub aşiq, bu məşhuri-cahan olmuş,
Açan vəxti onu görməz, zi bəs ki çeşmi tar idi.

Qəbahət güldədi guya, həmişə xar ilə oynar,
Nədəndir səbr edər bülbül, onun da sirri var idi.

Əl atdım gül budaqinə, üzəm bir qönçeyi-əla,
Tikan barmaqlarım sancdı, ki, guya əfi mar idi.

Olub məhzun, keçib ordan, yetişdim su kənarınə,
Nə hirs ilə axar gördüm, əcayib halı var idi.

Ki, guya cövri-düşməndən acıqlı şirə dönmüşdü,
Vurar nal, çəkər nalə, səsindən aşikar idi.

Şikarın qeyri bir səyyad əlindən əxz edib guya,
Özün çırpar solu sağə, nə sürətlə axar idi.

Baxıb gördüm gülüstanda cəmi canlı, cəmi cansız,
Yanıblar narə, eşq ilə cəmisi biqərar idi.

Cahansuz, girmə gülzarə, sənin dərdin kənar olmaz,
Ola gər yüz belə gülzar bu dərd ki, səndə var idi.

* * *

Cövr etmə mənə, bir belə, giryanəm, ey könül,
Hicr atəşilə mən dili büryanəm, ey könül!

Bir ləhzə qoygilən məni qəmdən kənar olum,
Çünki ürəkdə dərdləri pünhanəm, ey könül!

* * *

Ey könül, sən məni bu qəmlərə sultan eylədin,
Daği-həsrətlə əcəb qəlbi pərişan eylədin.

Etmədin rəhm mənə, dərd mənə şayəstə deyil,
Məni pərvanə kimi bir şəmə suzan eylədin.

Gəhi həmtadən uzaq, munisi-qəm, xanənişin,
Dilimi lal eləyib, qəlbimi al qan eylədin.

# ÜMMÜGÜLSÜM

*İlk soyadı Rəsulzadə olan Ümmügülsüm xanım 1899-cu ildə Bakıda anadan olmuşdur. Məmməd Əmin Rəsulzadənin əmisi qızı, görkəmli nasir və tənqidçi Seyid Hüseynin həyat yoldaşı idi. Hər ikisinin acı taleyini paylaşmalı oldu. İlk müstəqil Azərbaycan Cümhuriyyəti dövründə milli vətənpərvərlik və türkçülük ruhunda şeirlər yazmış Ümmügülsüm 1937-ci ildə əri tutulduqdan sonra həbs olunaraq Sibirə sürgün edilmiş, 1944-cü ildə vəfat etmişdir.*

**DƏRDLİ NƏĞMƏ**

*Nargin əsirlərinin dilindən*

Dərdli-dərdli sürükləndim, inlədim,
Acı-acı fəryadları dinlədim,
Gəldim iştə, dərdim sənə söylədim,
Ərzimi dinləyən, soran nərədə?

Uyudulmaz dərdim, ovulmaz könlüm,
İlk bahar olsa da açılmaz gülüm.
Gəl yaramı sən özün sar, sevgilim,
Duyulmaz dərdimə dərman nərədə?

Dağıtdılar yuvasını bülbülün,
Susdurdular nəğməsini bu elin,
Xəzan vurdu yarpağını hər gülün,
Canana can verən o can nərədə?

Məskənimiz bir fəlakət ocağı,
Bəsdərimiz fırtınalar ocağı,
Sönmüşmüdür, əcəb yurdun ocağı,
Anadolu nərədə, Turan nərədə?

Qərib sürgün olur bizim adamlar,
Ninni söylər uğultulu dalğalar,
Mərhəmət naminə səni haraylar,
Ədalətin nərədə, vicdan nərədə?

Təlatümə uğramışız həpsimiz,
Qalmamışdır inan daha səbrimiz.
Bir sahil yoxmudur çıxa gəmimiz?
Ağlaşır analar, duyan nərədə?

Səba, yetir sevgilimə sözümü,
Mükəddər halımı, gülməz üzümü,
Yanıqlı ahımı, ağlar gözümü,
Aşiqlər nərədə, canan nərədə?

## MƏNİM ANDIM

Görəməzsə gözüm bir an üzünü,
Ruhumu oxşayan munis gözünü,
Dinləməzsəm əgər dadlı sözünü,
Ötən bülbüllərdən soraram səni.

Səni düşünürəm ey gözəl xülya,
Sənsən kirpiyimdən asılmış röya.
Nuhun dövrü gəlsə dağılsa dünya,
Yenə kainatda araram səni.

Uyutmaz qəlbimi başqa bir şəfqət,
Ruhumu oxşamaz heç bir məhəbbət,
Əgər aralığa düşərsə firqət,
Əsən küləklərdən soraram səni.

Ey Sadiq, sadiqəm əhdimə, sənə,
And olsun Allaha, doğma vətənə,
Sənsiz nəsib olan ölümdür mənə,
Haraya getsən də taparam səni.

## TƏBİM

Axı hər zaman şən idin sən,
İndi susdun, nədən, təbim?
Nəşə saçır bağça, çəmən,
Zövq al, sən də dillən, təbim!

Bizim elə gəlsə bahar,
Günəş doğar al lalәzar.
Güllərin də ilhamı var,
Gül açanda güllən, təbim!

Gül bülbülün həmdəmidir,
Bahar sevgi aləmidir.
İlqarımız böyləmidir, –
Ayrılırsan məndən, təbim?

İgidlərin hünər çağı,
Üzə gülür vətən bağı,
Çəkmə mənə sinə dağı,
Şeir yarat, şənlən, təbim!

## BÖYÜK SABİRƏ

Yadımdadır, bir gün, bir axşamçağı,
Yayıldı aləmə həzin bir xəbər:
– Gülərkən gülşəndə gülün yarpağı,
Sabir, böyük şair öldu, – dedilər.

O zaman ağrılı bir ürəklə mən,
Ağlamışdım sənə, ey dahi şair!
Düşündüm, yatmadım ta səhərəcən,
Söz qoşmaq istədim hüznünə dair.

Çocuq da olsaydım, tanırdım səni,
"Molla Nəsrəddin"in hər səhfəsindən.
Az güldürməmişdi sözlərin məni,
Müdriklik duyardım xoş nəfəsindən.

Tanırdım mən səni, ey cəsur insan,
Dözürdün həyatın çətinliyinə.
Səni qorxutmurdu nə ölüm, nə qan,
Hamı heyran idi mətinliyinə.

Hər sözün aynadı qaraya, ağa,
Qorxmazdın bəylərdən, şahlardan belə.
Əyməzdin başını, dönmüşdün dağa,
Daim vuruşardın cəhalət ilə.

Bəzən də ən həssas şair diliylə,
Oxşardın qəzəllə, qönçəni, gülü.
Necə qıydı sənə ölüm əliylə,
Ağlatdı hicranın vətəni, eli.

## BAYRAĞIM ENƏRKƏN

Sən bayrağım! O yüksək şanlarına enərkən,
Mavi göyə bir duman gəldiyini sezdim mən.
Qoynundakı ağ nurlu ay-yıldızım sönərkən,
Üzərimə doğacaq günəşlərdən bezdim mən.

Al-yaşıllı bağında çiçəklərin solarkən,
Ürəyimdə pək acı bir inilti yüksəldi.
Hıçqırıqlar içində bayılırkən, düşərkən,
Məni tutub qaldıran xain, murdar bir əldi.

Yazıq səni, bayrağım, endirdilər öyləmi?
Səni yıxıb devirən o zəhərli ruzigar,
O haqq yeyən haqsızlar, vəhşilər, tanrısızlar,
Yanar ocağımı da söndürdülər, öyləmi?

Bir röyamı oldu o gördüklərim, həpisi?
Bağlandımı üzümə türk elinin qapısı?

*1920*

## HİCRAN

Bir solğun çiçəyəm, bir sarı yarpaq,
Candan şikayətkar, canandan iraq.
Çıxdım ki, yollardan alayım soraq,
Xəbər verən yoxdur, sorma dedilər.

Ayrılınca hilal qaşlı yarımdan,
Mən yaslara batdım, geymədim əlvan.
Düşünüb o yıldız gözləri hər an,
Ağlarkən kəndini yorma dedilər.

Könül şəkvəsini kimə söyləsin?
Qəlbimin dərdini kimlər dinləsin?
Səni sevən, sənsiz ömrü neyləsin?
Dalınca qoşarkən, varma dedilər.

Mənim gözlərimdən günəş çəkildi,
Parlaq həyatıma zülmət töküldü.
Vərəmli qəlbəsə oxlar dikildi,
Qoy axsın qanları, sarma dedilər.

Günəşim bir daha doğmayacaqmı?
Vəhşi qaranlığı boğmayacaqmı?
Kölgələri şəfəq qoymayacaqmı?
Sordum, ümidini qırma dedilər.

## XƏZƏRƏ XİTAB

Yenə bu günəş də keçdi yarıdan,
Gözümdə yuxu yox, yenə bidaram.
Yenə qaranlığın bağrını yaran,
Xəzərin suyudur, tutmayır aram.
Çağla coşğun dəniz, qollarını aç,
Qucaqlaşaq, verək köks-köküsə.
Gül də, biz ki, dostuq hər qəmli səsə,

Qovulduq evmizdən, yollarını aç.
Gözümüz yaşlıdır, sinəmiz dağlı,
Mən deyim dərdimi, dinlə ey dəniz!
Ana qəlbi olur balaya bağlı,
Dinlərmisən məni, söylə ey dəniz.
Bir gecə yarısı əziz balamız,
Alındı əlmizdən bir laçın kimi.
Söndü işığımız, uçdu yuvamız,
Həyat tarixində bunu gördünmü?
Çağla, coşğun dəniz göz yaşımız tək,
Dağıt sularını bizdən əks edən,
Nə gələr payımız gen təbiətdən,
Ağla bir səmimi yoldaşımız tək.
Darmadağın eylə dalğalarınla,
Bizi dar divara alan qalanı.
Heçliklərə sovur nalələrinlə,
Çıxılmaz tilsimə salan qalanı.
Nəymiş təqsirimiz, neyləmişik biz?
Bunu sən sual et, mənim dilim yox.
Hansı xəyanətin şərməndəsiyiz,
Bunu sən sual et, mənim dilim yox.

*1937, Bayıl həbsxanası*

## KÖNÜL

Dərdli könül, söylə nə ahu-zardır,
Coşğun dəniz kimi üsyan eylərsən.
Gen dünya başına yenə də dardır,
Gizlin eşqləri bəyan eylərsən.

Yenə sığışmırsan bu dar qəfəsə,
Alovlar qatırsan çıxan nəfəsə.
Keçdi xəyalımdan yenə də kimsə...
Gözümün yaşını rəvan eylərsən.

Yenə dərd əlindən gəlmisən cana,
Eyləmisən məni dəli-divanə.
Əridi şam kimi can yana-yana,
Kəsilir, doğranır fəğan eylərsən.

Qaranlıqdır sənə hər işıqlı gün,
Yanarsan daima, çıxmaz tütünün.
İnsafa gəl, könül, mənə şən görün,
Axan yaşlarımı ümman eylərsən.

*7 dekabr 1937, Bayıl həbsxanası*

## AYRILIQ

Mən saralıb sollam qərib ellərdə,
Sözüm dastan olar bütün dillərdə,
Gözüm qaldı çiçəklərdə, güllərdə,
Gül dərmədim, düşdüm çəmən ayrısı,
Sürgünəm, düşkünəm vətən ayrısı.

Ağlaram gözümün yaşı bitincə,
Sızıldaram əlim sizə yetincə,
Şeirlər düzərəm incədən-incə,
Canım candan cida, bədən ayrısı,
Sürgünəm, düşkünəm vətən ayrısı.

Könül həsrətidir gülbənizlərin,
Lalə yanaqların, gülər üzlərin,
Xurmayı tellərin, ala gözlərin,
Gül dərmədim, düşdüm çəmən ayrısı,
Sürgünəm, düşkünəm vətən ayrısı...

*Aprel 1938, Bayıl həbsxanası*

# ÜLKƏR

*Ülkər təbi rəvan aşıqlardan biri olmuşdur. Əsərlərindən aydın göründüyü kimi XIX əsrin sonu XX əsrin əvvəllərində yaşamış, bir sıra aşiqanə qoşmalar, xüsusilə bayatıvari gəraylılar yazmışdır. Öz yaradıcılığı ilə tədqiqatçıların nəzərini cəlb etmiş, lakin haqqında heç bir tərcümeyi-hal məlumatı verilməmişdir.*

**GƏRAYLI**

Canımı qurban elərəm,
Mətləb qanana, qanana.
Malım, dövlətim verərəm,
Qədir bilənə, bilənə.

Nakəs olan qədir bilməz,
Qohumun qeydinə qalmaz.
Muzdur işlədər, muzd verməz,
Haqqa inana-inana.

Xain, çuğul, ikiüzü,
Çıxdaş etsin tanrım özü.
Çarxı dönsün, çıxsın gözü,
Qalsın dilənə-dilənə.

Mərd igid yarını bulsun,
Onunla həmsöhbət olsun.
Namərdləri həsrət qalsın,
Daim canana-canana.

Dünyada sadiq olasan,
Hər milləti bir biləsən;
Pərvanə kimi yanasan,
Arif olana, olana.

# PƏRVİN XANIM EHTİSAMİ

*1906-ci ildə Təbrizdə doğulmuş, qısa, lakin mənalı bir ömür yaşamış Pərvin Ehtisami Güney Azərbaycanın görkəmli şairəsidir. Fars dilində yazsa da, doğma vətəni Azərbaycana bağlı olan Pərvin xanımın qadınların acınacaqlı taleyinə həsr olunmuş təsirli şeirləri var. O, həm də məşhur təmsil ustası kimi tanınır. 1941-ci ildə vəfat etmiş, Qumda atasının məzarı yanında dəfn edilmişdir. Qəbrinin üstündə "Nə gördün?" rədifli qəzəli yazılmışdır.*

## DEYİL

Yaxasından yapışıb tutdu polis bir məstin,
Dedi: – Ey dost, bu yüyəndirmi? De, paltar deyil?
O cavab verdi qəzəblə: yıxılırsan küçədə.
Dedi: – Yoxdur günahım, yol özü hamvar deyil.
Dedi: – Qaziyə görək mən səni təhvil verəm,
Dedi: – Qazi özü də dəm yatıb, hüşyar deyil.
Dedi: – Valinin evi tindədir, tərpən də gedək.
Dedi: – Qazi kimi, heç vali də bidar deyil.
Dedi: – Rəisə deyim, get gecələ məsciddə.
Dedi: – Bəs onda deməzlər ki, günahkar deyil?
Dedi: – Dirhəm verəsən lal olacaqdır molla.
Dedi: – Bəs onda şəriət? Mənə bu ar deyil?
Dedi: – Qanuna görə tərki-libas eyləyərəm.
Dedi: – Çoxdan üzülüb, bir elə paltar deyil.
Dedi: – Börkün də düşübdür yerə, ey xanə-xərab.
Dedi: – Börk yox, ağılın olması inkar deyil.
Dedi: – Çox mey içənin hərzə danışmaqdır işi.
Dedi: – Söz düzdür, əgər çoxluğu azar deyil.

## EY GÜL

Ey gül, bağ ara, təhlükədən qeyri, nə gördün?
Neştər kimi sözdən, ləkədən qeyri, nə gördün?

Bəsdir bu qədər parladın ulduz kimi, ey ləl,
Yoxdur olanın səksəkədən qeyri, nə gördün?

Düşdün çəmənə, leyk nəsibin qəfəs oldu,
Ey quş, burada mərəkədən qeyri, nə gördün?

# AŞIQ SƏNƏM

*Balakən rayonunda Gülüzən kəndində dünyaya gəlmiş, uzun ömür sürmüş orada da vəfat etmişdir. Qədim musiqi alətlərimizdən olan tanburda el havalarını məharətlə ifa etmişdir.*

*1928-ci ildə I Aşıqlar Qurultayında öz tanburu ilə iştirak etmişdir.*

**BAYATILAR**

Bir cüt quş var gül üstə,
Bir cüt göz var yol üstə,
Allah, məni öldürmə,
Toyum vardır il üstə.

⌘
Dağlar başı dolama,
Bəylər gedir salama,
Yar özü bostançıdır,
Məndən istər şamama.

⌘
Qarğı tək oydun məni,
Soğan tək soydun məni,
Nə kölgədə bəslədin,
Nə günə qoydun məni.

⌘
Samavar dolub daşar,
O gül kimə yaraşar?
O gül bizim olmasa,
Tamam dağ-daş ağlaşar.

# DİLŞAD

*Dilşad 1912-ci ildə Tovuz dairəsinin Xunam kəndində doğulmuşdur. Gözəllik və sadəliyi ilə bütün mahalda ad qazanmışdır. Əsl adı Şövkət olduğu halda aşıqlıqda Dilşad təxəllüsünü qəbul etmiş çoxlu qoşmalar söyləmişdir.*

**QOŞMA**

Başına döndüyüm xırdaca qızlar,
Bu gün bir tərlanım uçdu, neyləyim?
Əhvalım soruşub, dərdim bilmədi,
Ağlım və kamalım çaşdı, neyləyim?

Ağ buxaq, zənəxdan, bu qoşa xalı,
O hələ görməyib ləbimdə balı,
Olmaya dəyişdi yarın xəyalı,
Bir zaman qalmadı, köçdü, neyləyim?

Dilşad deyər: ağlım, huşum qarışar,
Bir saat görməsəm canım alışar,
Dedim qalar, pozğun halım soruşar,
O zalımın bağrı daşdı, neyləyim?

# MİNA

*Minanın adı 5-6 mənbədə çəkilirsə də, şairənin tərcümeyi-halı haqqında bir söz yazılmır. Nə zaman, hansı dövrdə yaşayıb-yaratdığı belə məlum olmayan bu incə ruhlu şairənin rəvan təbi olduğu əsərlərindən aydındır.*

## QOŞMALAR

Ay ağalar, həsrət getdim dünyadan,
Əzəl gündən oldum bəxti qara mən.
Gəşt etdim İranı, cümlə cahanı
Tapmadım özüm tək şum sitarə mən.

Gecə-gündüz işim ahü-zar oldu,
Gen dünyada günün sənə dar oldu.
Üzü dönmüş nə bivəfa yar oldu?
Gəlmişəm əlindən nə zinharə mən.

Kərəm təki ataş mənim, od mənim,
Ğəmdən könlüm heç olmadı şad mənim
Yar özgənin oldu, bədnam ad mənim,
Başım alım gedim nə diyarə mən?!

Nazlı yarım məclisində sağıdır,
Qaş Məkkədir, gözlər mənə yağıdır,
Beş barmağım bal eləsəm ağıdır,
Heç bab ilə yaramadım yara mən.

Mina deyər öz canımdan bezaram,
Dəvasız dərdlərə dərman yazaram.
Səyyadıyam gecə-gündüz gəzərəm,
Salammadım bu tərlanı tora mən.

* * *

Namə yazdım yara vəsfi-halımı,
Namə ki, yetişdi sana, durma, gəl!
Nə uymusan fəna dünya malına,
Cigərim döndərdin qana, durma, gəl!

Mən ha səni sevməmişdim nihandan,
Sağlığın istərəm şahi-cahandan,
Danışanda od tökülür dəhandan,
Dəmadəm cismimdir yana, durma, gəl!

Xəzan ola, bülbül, bağın çapula,
Cigər-bağrın eşq oduna yapula,
Can verməzəm bəlkə canan tapula,
Göz axtarur dönə-dönə, durma, gəl!

Aləm bilür gözəllərdən gözələm,
Badi-xəzan dəgmiş bağda xəzələm,
İnanmazam mən bu dərddən düzələm,
Xırda pərişandır, Mina, durma, gəl!

***

Qanlı fələk, səndən şikayətim var,
Yar üzünə həsrət qalan mən oldum.
Eşq atəşi mana qaldı yadigar,
Pərvanə tək şəmə yanan mən oldum.

Hanı mənim tuti dillü həmdəmim,
Günü-gündən artdı möhnətü qəmim,
Nuh kimi girdaba qərq oldu gəmim,
Xizr tək dəryayə dalan mən oldum.

Qanlı fələk, bəsdir, az eylə zülmü,
Alıb dildarımı, büküb belimi,
Bülbül təki güldən üzdüm əlimi,
On bir ayda bir ay gülən mən oldum.

Gecə-gündüz zikr eylədim sübhanı,
Leyli-Məcnun, Şirin-Fərhadın hanı?
Misr içində itirmişəm Züleyxanı,
Yusif kimi çərxdə qalan mən oldum.

Mina necə çıxsın qəm otağından?
Bülbültək ayrıldım gül budağından,
Qələm tək qaşından, gül yanağından,
Tərsa sevdim, Şeyx Sənan mən oldum.

***

Gecə-gündüz dadü-fəryad eylərəm,
Məni bu hicrana salan yar hanı?
Yaxam çürüyübdür didəm yaşından,
Nazik əllərilə silən yar hanı?

Yoxdur bərabəri dövri-zəmində,
Ani sevən aşiq nə baxar qəndə?
Dili şəhdü-şəkər, ləbi pürxəndə,
Bizimlə danışıb gülən yar hanı?

Həsrətini çəkər behiştdə huri,
Tərifin tutubdur çini-fəğfuri,
Dizimin taqəti, gözümün nuri,
Yüz naz ilə canım alan yar hanı?

Mina deyər: xəlqdə bu nə mürvətdi?
Bilmənəm yarımı kimlər öyrətdi?
Dərman eyləmədi, soluban getdi,
Usanıb mürvətə gələn yar hanı?

***

Bizim bağda bir cüt sona seyr elər,
Başı yaşıl, ayaqları qırmızı.
Şəkər əzmiş, dodağına, dilinə,
Alma təki yanaqları qırmızı.

Bakim yoxdur soltanından, xanından,
Səni sevən keçər şirin canından,
Əlvan-əlvan aşıqların qanından,
Həna yaxmış ayaqları qırmızı.

Mənim yarım həm soltandır, həm xandır,
Malım yoxdur, yara peşkəş bu candır,
İnci deyil, yaqut deyil, mərcandır,
Qolundakı qolbaqları qırmızı.

Mina deyər Xırda[1] geysin qurşansın,
Səni sevən aşıq bağrı boşansın,
Əlvan-əlvan otaqları döşənsin,
Yanındakı yastıqları qırmızı.

## GƏRAYLI

Bir vəfalı yar sevginən
Özgələrə yar olmasın.
Girmə eşqin dəryasına,
İşin ahü-zar olmasın.

Əvvəl vəfasın görginən,
Sonra can istər – verginən,
Bir tərlana tor qurginən,
Müddəası sar olmasın.

Mina, sirrin vermə yada!
İlqar-iman gedər bada,
Heç igidin bu dünyada,
Yarı biilqar olmasın.

[1] Xırda – Minanın qızı

# MİRVARİD DİLBAZİ

*Mirvarid Dilbazi 1912-ci ildə Qazax mahalının Xanlıqlar kəndində anadan olmuşdur. Orta təhsilini Bakı Qızlar Seminariyasında, ali pedaqoji təhsilini isə BDU-nun dil və ədəbiyyat fakültəsində almışdır. Mirvarid xanım incə lirik şeirlərilə bərabər çağdaş uşaq ədəbiyyatımızın yaradıcılarından biri kimi də tanınır.*

*2001-ci ildə dünyasını dəyişib.*

## BİZ OD ÜSTÜNDƏ DOĞULDUQ

Biz od üstündə doğulduq,
Od üstündə yaşa dolduq,
Alovlara düşdük, ancaq
Əriməyən metal olduq.

Yanğınları söndürməkçün,
Od üstündə addım atdıq,
Od üstündə ömür sürdük,
Biz od üstündə yaratdıq.

Dörd yanımız ölüm oldu,
Məmləkətlər parçalandı.
Yurdlar dilim-dilim oldu,
İnsanlığa zülüm oldu.

Çiçək əkdik,
Qan çiləndi ləçəyinə.
Toxum səpdik,
Qəsbkarlar göz dikdilər çörəyinə.

Düşmən min-min yara vurdu,
Xalqımızın ürəyinə –
Elə sandı məğlub olduq,
Yox, biz od üstə doğulduq.
Alovlara düşdük, ancaq
Ərimәyən metal olduq.
Olduq əsrin ölüm əyməz,
Güllə dəyməz,
Qılınc kəsməz qəhrəmanı.
Doğulmuşuq:
Dəhşətlərdən qorumaqçün
Bu dünyanı.

## TİKAN ÇİÇƏKLƏRİ

Qürbət ölkələrdən doğma vətənə,
Xəzər sahilinə dönürdüm yenə.
Payızdı,
Solmuşdu güllər, çiçəklər,
Soyuq nəfəsliydi əsən küləklər.
İstisi az idi al günəşin də.
Yolların üstündə, təpə döşündə
Ağ çiçək açmışdı tikan kolları.
Çox gedib, gəlmişəm mən bu yolları.

Tikanlar üstündə açılan çiçək,
Göründü gözümə ağ yasəməntək
Doğma Abşeronda bitən tikan da,
Qurumuş ağ ot da,
Acı yovşan da,
Ətirli gül kimi mənə xoş gəlir.
Vətən həsrətinə tabsız ürəyim
Tikan da qoxlasa burda dincəlir.

## AYAĞIM QAR ÜSTƏ, FİKRİM BAHARDA

Qışın sükutunda yaz intizarı,
Bahar həsrəti var.
Gələcək bahar,
Dağlara nə qədər yağır, yağsın qar.

Könlün sükutunda siz deyin barı,
Bəs ürək arzular hansı baharı?..
Gələr qulağına arabir sənin
Fərəhli sədası hansı nəğmənin?

Hansı yaz buludu başına çilər
Günəş işığıyla dolu incilər?
Hansı xatiratın odu, alovu,
Səni bu dağlarda isidə bilər?

Ayağım qar üstə, fikrim baharda,
Başımda qar tacı, özüm dağlarda,
Doldurub qoynumu, qucağımı mən –
Təzə şeirlərlə qayıdıram şən.
Könlümdə bir bahar təravəti var,
Nə qəm, qoy nə qədər yağır, yağsın qar!

* * *

Güləm, sənsiz xəzan olsam,
Şənəm, mən bağrı qan olsam,
Mehəm, dönsəm, tufan olsam,
Həzin səslim,
Xoş nəfəslim,
Yetişməzmi xəzan fəslim?!
Odam, sönsəm, külə dönsəm,
Alovam, parlayıb sönsəm,
Asan sussam, çətin dinsən,
Həzin səslim,
Xoş nəfəslim,
Yetişməzmi xəzan fəslim?!

Var idin, var idim mən də,
Çiçəkləndim bu gülşəndə.
Günəşdin, nur, işıq səndə.
İşığım, günəşim, nurum,
Sözü düz, qəlbi büllurum,
Həzin səslim, xoş nəfəslim,
Gələr, gəlsən bahar fəslim.

## AÇARI DƏRYAYA ATDIM

Ürəyimə qıfıl vurub,
Açarı dəryaya atdım.
Həyətdə bir saray qurub,
Soyuq daşını ağlatdım.

Keçdim dünənki izindən,
Xəbərsiz oldum özümdən,
Göz yaşı axdı üzümdən,
O göz yaşını ağlatdım.

Çığırdım: – Səs ver, səsimə!
Mən möhtacam nəfəsinə!
Döndüm dəniz ləpəsinə,
Özümü qoynuna atdım.

O gündən qaldım dəryada,
Nə sahil var, nə də ada,
Nə yetənim var imdada,
Nə də vüsalına çatdım.

## GƏLİR

Lalədən biçəndə donunu dağlar,
Yadıma uşaqlıq illərim gəlir.
İşıqlı, günəşli, əlvan bir bahar,
Gözəl obalarım, ellərim gəlir.

Min nəğmə səsləyir elə bil mənə,
Anır məhəbbətlə min könül məni.
Yadıma yurdumun çölü, çəməni,
Zümrüd çeşmələrim, göllərim gəlir.

Tez yatan çovğunlar, ötən boranlar,
Gəzib dolaşdığım dağlar, aranlar.
Şehli çəmənlərdə qaçdığım anlar –
Yadıma – islanan tellərim gəlir.

Əziz uşaqlığın uzaq illəri,
Qar altdan dərdiyim novruz gülləri,
Yadıma baharın ılıq yelləri,
Nəğmələr oxuyan dillərim gəlir.

## ÖZ İÇİNDƏN YANAN BİR OCAĞAM MƏN

Qələm heç qoymadın sən məni darda,
Çıx hər imtahandan qəhrəman kimi.
Lövbəri möhkəm at dərin sularda,
Sinəm də çalxanır bir ümman kimi.

Mənim məhəbbətim torpağa düşsə,
Ona bəzək olar çiçəklərilə.
Bir damla şeh olub yarpağa düşsə,
Danışar baharın küləklərilə.

Əgər şerə dönsə bu məhəbbətim,
Hər sözdə bir ana qəlbi döyunər.
Mənim burdan gəlir gücüm, qüvvətim,
Ocaq öz içindən yanmasa, sönər.

Öz içindən yanan bir ocağam mən,
Yandıqca, daha gur yanacağam mən.

## ŞAİRƏM, ODLUDUR ÜRƏKDƏ QANIM

Dağıldı başımın dumanı, çəni,
Vətənim qoynuna alanda məni.
Həsr edib şəninə hansı nəğməni,
O sənə yaraşsın, Şirvanım mənim?!

Sünbülü dən tutmuş günəşli tarla,
Yaşaya bilmirəm mən intizarla.
Yenə görüşünə təzə baharla
Gələrəm, ey yaşıl ümmanım mənim!

Geniş düzənləri isti Zərdabım!
Mənim ayrılığa olmayır tabım.
Hələ yarımçıqdır ömür kitabım,
Hələ qabaqdadır tüğyanım mənim!

Vətən, torpaqların ucsuz-bucaqsız...
Sinəmə od verdin odsuz, ocaqsız.
Burda qəhrəmandır hər gəlin, hər qız,
Mərdlik dövranıdır, dövranım mənim!

Yaman dərinləşdim Kürə baxanda,
Sularla danışdım o lal axanda.
Ağ yollar ağ suya gəlib çıxanda
Coşdu yeni hissim, həyəcanım mənim!

Göyçayda göyərib, təzədən bitdim,
Qızılgül ümmanı içində itdim.
Könlümü bir qıza hədiyyə etdim,
Məhəbbətsiz olmur bir anım mənim!

Lahıcın dağları durub baş-başa,
Deyirdi: “Gəl, elə mənə tamaşa!”
Elə bil dağlarla dayandım qoşa,
Uçdu zirvələrə tərlanım mənim!

Laləli dağların qədim gözəli –
Sabirin, Səhhətin səfalı eli,
Əsəndə üzümə sabahın yeli,
Susdu körpəm kimi hicranım mənim!

Elə ki, ayrıldıq qədim Ağdaşdan,
“Zənn elədim, düşdü ağ yaylıq başdan”.
Qızlar paltar geydi aldan, qumaşdan,
Doldu gözəllərlə dörd yanım mənim!

O Qalaaltının şəfa yaylağı,
Qubanın, Qusarın qarlı Şah dağı,
Üstündə, Xaçmazın Çoban bulağı,
Səslənsin qoy tarım, kamanım mənim!

Qoynu sərin dağlar, dərəli dağlar,
Coşqunam, mən sizi görəli, dağlar!
Yarpızlı bulaqlar, üzümlü bağlar,
Sizdəndir qanadlı ilhamım mənim!

Şairəm, odludur ürəkdə qanım,
Odludur həsrətim, eşqim, hicranım,
Ey mənim bəzəkli Azərbaycanım,
Sənə qurban olsun bu canım mənim!

## QƏZƏLLƏR

Dağ laləsiyəm, çənli dağ istər yenə könlüm.
Dağlarda soyuq bir bulaq istər yenə könlüm.

Göy gurlaya, sel səslənə, dağlar, ulu dağlar!
Ordan təzə bir söz, soraq istər yenə könlüm!

Gurşad yağa, güllər yuyuna yaz yağışında,
Göy qurşaq ata, çilçıraq istər yenə könlüm!

Gəzdim bu vətən mülkünü mən qol-qanad açdım,
Gül fəsli, bu gülşəndə bağ istər yenə könlüm.

Söz çoxdu sinəmdə, mənə möhlət verə illər,
Son mənzilini çox uzaq istər yenə könlüm.

Mirvarid, əzizin bu həyat, el səni gözlər,
Öz ömrünə eldən dayaq istər yenə könlüm.

* * *

Min ah eləsəm heç biri bir yana yetişməz,
Kim bunca əzab çəksə məgər cana yetişməz?

Min fəsli bahar min gül açıb, ətrini saçsa,
Bir qönçəsi də güllərə heyrana yetişməz.

Günlər boyu andıqca səni odlara yandım,
Yandım, bu odun zərrəsi bir yana yetişməz.

Qaldı yenə hicran sitəmində əlim, ey dost,
Sənsiz, nə təbibə, nə də dərmanə yetişməz.

Gəl, şairənin indi çətin günləri gəldi,
Gəl, sonra əlin könlü pərişanə yetişməz.

* * *

Ömrümü ey gözəlim, mən sənə qurban elədim,
Elədim aşikara, sanma ki, pünhan elədim.

Qan tökənlərlə aram olmasa da, əfsus, özüm
Dözməyib yoxluğuna, gör nə yaman qan elədim.

Yandı yanmış ürəyim, odlara pərvanə kimi,
Bunca heyranlığıma aləmi heyran elədim.

Mən sədaqət bağının bağbanıyam, el də bilir,
Bu bağı sidqim ilə gör nə gülüstan elədim.

Mirvarid, şerə, sözə sığmadı divanəliyin,
Eşqini incimə ki, aləmə dastan elədim.

* * *

Gözlərin qəsdimə durmaqda yaman qan eləyir,
Gah məni abad edir gah da o viran eləyir.

Gül açıb, qönçələnən vaxtı xəzan fəsli gəlir,
Eşqimin gülşənini gör necə talan eləyir!

Ox atır, ovçuya bax, gözləri dolmuş marala,
Ona mehman olanı, gör nəyə mehman eləyir?

Mirvarid, zalıma bax, qan aparır ox dəyəni,
Baxmayır vurduğuna, zülmünü pünhan eləyir.

## RÜBAİLƏR

Çırpıb bir ağacın budaqlarını,
Tökdüm üstündəki qalın qarını.
Ağac dilə gəlib dedi: "Ey qafil,
Verdin şaxtalara şirin barımı!"

⌘

Bir ağac kötüyü üstündə mən tək,
Oturdum əlimdə qarlı bir çiçək.
Bilmədim, nə zaman hördü küləklər,
Fikirli başıma qardan bir çələng.

⌘

Çağırdım dağlardan səni gündə mən,
Qarqıza oxşadım qar üstündə mən.
Buxara çevrildim o qarqız kimi,
Sənin yoxluğundan yananda sinəm.

⌘

Sənin məhəbbətin ulduza oxşar,
Uzaqdan parlayar, ucada yaşar.
Sən məni axtarma, mən yer qızıyam,
Yanar orbitindən qopan ulduzlar.

⌘

Dayandım bir ağac altında məhzun,
Gözlərim yol çəkdi hey uzun-uzun.
Nəğməsi fikrimdən ayırdı məni,
Başıma tökülən hər qar ulduzun.

⌘

Könlüm olub yenə çox incə, zərif,
Qar üstə gül bitib, ot da göyərib.
Dəstələr bağlamaq istərəm yenə,
Bu qış çəmənimdən çiçəklər dərib.

⌘

Mənim öz dünyam var, öz aləmim var,
İnsanam, sevincim, fikrim, qəmim var.
Gah payız dumanı çökər könlümə,
Orda gah sevincim çiçəklər açar.

⌘

Mən elə sanıram qışda baharam,
Cənub yaylarında yaylayan qaram.
İstiyə, soyuğa düşən insanlar,
Harda təntisəniz, mən orda varam.

⌘

İlk açan çiçəyəm, ilk göyərən ot,
Quraqlıqda yağış çiləyən bulud.
Ey ota, çiçəyə vurğun oxucum,
Əgər bacarırsan sən məni unut!

⌘

Mənzilə məsafə azaldıqca mən,
Oluram necə də güclü, gümrah, şən.
Ürəyimdə yanır bütün çıraqlar,
Bir çiçək göndərib mənə hər çəmən.

⌘

Elə bil baharda əriyən qaram,
Kiçik sahillərə daha sığmaram.
Məcrasından çıxmış bir coşqun çayam,
Gərək ümmanlara mən yol axtaram.

⌘

Yüküm ağır oldu dünyada mənim,
Nər gücü gərəkdi onu çəkənin.
Daşıdığım ülvi duyğular imiş,
Onu bəxş edibmiş mənə vətənim.

# NİGAR RƏFİBƏYLİ

*Nigar Rəfibəyli 1913-cü ildə Gəncə şəhərində anadan olmuşdur. İbtidai təhsilini Gəncədə almış, sonra Bakı Pedaqoji Texnikumunu bitirmişdir. Ədəbiyyata 30-cu illərdə gələn N.Rəfibəylinin yaradıcılığında zərif məhəbbət lirikası, analıq, vətən, təbiət mövzuları əsas yer tutur. Şairənin əruz vəznində qəzəlləri, heca vəznində və sərbəst vəzndə bir çox şeirləri, eləcə də poetik nəsr tərcümələri var.*

*1984-cü ildə Bakı şəhərində vəfat etmişdir.*

**DURNA**

Mən
yuxuda durna oluram
gecələr,
Çırpıb qanadlarımı
yerdən üzülürəm.
Geniş-geniş havalarda səf çəkən
Durnaların qatarında düzülürəm.
Uçuruq uça bildikcə,
Uçuruq diyar-diyar...
Uçuruq – qəlbimizdə
Torpaqdan aldığımız
Ən şirin,
Ən incə,
Ən sevimli arzular.
Uçuruq, uça bildikcə...
Bizə həsrət qalan ellərə
Qanad salırıq,
Uca-uca dağların başında
Əylənib qonaq qalırıq.

Torpağın ətrini aparırıq
Ulduzların aləminə.
Həyat səsi qatırıq
Göydə soyuq-soyuq işıqlanan
ayın yalqızlıq qəminə.
Səhər
şəfəqlər oyadır məni.
Sevinə-sevinə durub,
Qalxıram ayağa:
Sonra bütün günü
Nə həvəsim olur,
Nə macalım,
Bir də yerdən üzülüb
durna olmağa.

## VƏTƏN DUYĞULARI

Bakıdan beş gün ayrılanda
yuxuma Xəzər girir.
Sarı qumlu sahillərdə çırpınan
gümüş telli ləpələr girir.
Abşeronun boz, yanıq çölləri
girir yuxularıma,
Anasıyçün ağlayan
körpə uşaq kimi ağlardım
qoysaydılar məni
öz ixtiyarıma.

Dənizdə boylu çinar kimi yüksələn
Tənha buruğun təklik
qəmini düşünürəm.
Eybi yoxdur, deyirəm,
çoxalarsınız yaxın zamanda.
Təklik çətin olur
Həm şad gündə,
həm tufanda...
Alagözlü gəlin Göy gölümü
düşünürəm.

Yuxularıma Hacıkəndin
palıd meşələri girir.
Gəncliyim Xaçbulaq yaylağında
sarı çiçək dərir.
Dağlarım, dərələrim, çöllərim var,
Salxım-salxım yasəmənim,
çəmən-çəmən güllərim var.
Zənginlərdən zənginəm,
Dalğalı bir dənizəm,
Buludsuz bir ənginəm.
Anam bircə qız gətirdi dünyaya

Lakin tək olmadım
bircə an da.
Tək olmadım nə xoş gündə,
nə tufanda.
Qardaşlarım var –
yüz-yüz
igid ürəkli qəhrəman.
Bacılarım var –
saf diləkli, mehriban.
Ayağımın altında –
neft ətirli torpağım,
Başımın üstündə ulduzlu göylərim.
Sularında doya-doya çimdiyim,
məxmər örtüklü Xəzərim.
Bir udum vətən suyuna,
Bir ovuc vətən torpağına
Həsrət olanları düşünürəm.
Vətəndən ayrı düşüb,
Qürbətdə qalanları düşünürəm.
Çətindir vətənsiz, elsiz olmaq,
Ağırdır nəğməsiz, dilsiz olmaq,
Doğma, şirin nəğmələrimi
dəyişmərəm bu dünyanın
dövlətinə, malına.
Dəyişmərəm dost təbəssümünü
Dünyanın cah-cəlalına.

## BAHAR LÖVHƏSİ

Pəncərənin önündə bir ağac
puçurladı,
yarpaq açdı.
Üzərinə qar kimi töküldü
ağ çiçəklər
səhər-axşam.
İnci şehlərdən içib
yaşıllandı ağacın
yarpaqları.
Sənətkar iş otağında
Rəssam fırçasıyla
vəsf etməyə başladı
baharı.
Bahar dolu pəncərədən
günəşlə,
ilhamla,
Ağacın çiçəkləri
meyvə oldu
yavaş-yavaş, aramla...
Yaz getdi, yay ötüşdü,
Soyuq payız külәkləri əsdi,
Səhər-səhər budaqların üstünə
qırov düşdü...
Gözəl quşlar şux nəğmələrini
yavaş-yavaş kəsdi.
Dəyişdi təbiətin
rəngi, əhvalı,
Yalnız dəyişmədi
rəssamın
bahara vurğun xəyalı!
O, baharı yaradırdı,
Qəlbində bahar vardı.
Tükənməyən diləklər,
arzular vardı...

## NEYLƏYİM

Ala gözlüm, səndən ayrı gecələr
Bir il kimi uzun olur, neyləyim?
Bağçamızda qızılgüllər hər səhər
Tezdən açır, vaxtsız solur, neyləyim?

Nərgizlərin gözü yaşla dolanda,
Bənövşələr baxıb qəmgin olanda,
Qərənfilin gözü yolda qalanda,
Yasəmən saçını yolur, neyləyim?

Əsən rüzgarın da yoxdur vəfası,
Düşmüşdür başına özgə sevdası.
Lalənin cırılıb qəmdən yaxası,
Saçları pərişan olur, neyləyim?

Bəlkə tez gələsən əlac verəsən,
Sünbülün saçını yığıb hörəsən,
Əlvan çiçəkləri özün dərəsən,
Gözləri yollarda qalır, neyləyim?

Çəkir çiçəklərin gözü intizar,
Ayrılıqdan betər dünyada nə var,
Bu bahar axşamı səni bax, Nigar
Həzin-həzin yada salır, neyləyim?

## DAĞLARI DUMAN ALANDA

Dağları duman alanda,
Gözüm yollarda qalanda,
Yadıma səni salanda,
Gül yanağım solmasınmı?

Əsən yellər, əsən yellər
Sevgilimdən mənə xəbər.
Solanda narın çiçəklər,
Gözüm yaşla dolmasınmı?

Bu yerlərdən keçməz oldum,
Dost, düşməni seçməz oldum,
Eşqimə and içməz oldum,
Könlüm xarab olmasınmı?

## MƏNİ DƏNİZ GÖZLƏYİR

Məni yoldan eləməyin,
məni dənizim gözləyir.
Dalğaları gümüş kimi
o xoş bənizim gözləyir.
Hər gün bir libas geyinir,
gah şal, gah atlas geyinir.
Məxmər geyir qış fəslində,
yaşıl donu az geyinir.
Qəzəblənir insan kimi,
kədərlidir cahan kimi.
Bəzən də məst olub qalır,
tez dəyişir dövran kimi.
Hərdən eşqin xoş rüzgarı
əsib könlümü aldadır.
Məni yoldan eləməyin,
dənizin gözü yoldadır.
Sevdalı, gözəl dənizim,
sənə bulud kölgə salır.
Canım səndən ayrılsa da
məhəbbətim səndə qalır.
Kinin, nifrətin də açıq,
eşqin, niyyətin də açıq.
Gözlə məni, canım dəniz,
gülə-gülə sahilə çıx.

* * *

Dostumla baş-başayam,
bircə dəyməyin mənə,
Dənizimlə qoşayam,
bircə dəyməyin mənə.
Dəniz dərdi ovudar,
sakit edər insanı.
Dənizin çox gücü var,
dəniz sevir tufanı.
Səni oxşayar dəniz
nazlı körpələr kimi.
Bəzən qovar yanından,
qovar dərbədər kimi.
Tufanlı, canlı dəniz,
min bir lisanlı dəniz.
İnsan kimi vəfalı
və istiqanlı dəniz.
Bircə dəyməyin mənə,
dostumla baş-başayam.
Bircə dəyməyin mənə,
mən dənizlə qoşayam.

* * *

Gəlsən ölərəm
sevincdən, səadətdən;
Gəlməsən ölərəm
qəmdən, həsrətdən...
İndi ki ölümüm
yaşayır səndə,
Nə fərqi var, əzizim,
Gəlsən də, gəlməsən də.

* * *

Ölümdən qorxmuram,
Cəfadan, zülmdən qorxmuram.
Bircə məhəbbət yarasıdır

Ürəyimi qanadan...
Elə bil məhəbbətlə
Doğulmuşam anadan.
Bircə gün sevilməsəm
Bulud kimi dolaram.
Bircə gün sevilməsəm
Çiçək kimi solaram.
Bircə an sevilməsəm
Bir anda məhv olaram.

## QANUN

Qanun var ki, insanları
kölə etmiş dünyada.
Qanun var ki, qulluq yazmış
babalardan övlada.
Qanun var ki, zəncirləmiş
çox arzunu, əməli.
Qanun var ki, bazarlarda
satmış nadir gözəli.
Qanun var ki, körpələri
səfil etmiş, ac qoymuş.
Qanun var ki, qocaları
çörəyə möhtac qoymuş.
Yer üzündən bu qanunu
silmək üçün hər zaman,
Mübarizə yollarında
çox igidlər tökmüş qan.
Qanun var ki, zəncirləmiş
ruhu, dili, həvəsi,
Sürgünlərdən azadlıqçün
yüksələn məğrur səsi.
Əzəmətli bir milləti
qul eləyən qanun var.
İnsanlığı əzmək üçün
verilib bu qanunlar.

Yarandığı gündən bəri
insan oğlu hər zaman,
Ədalətsiz qanunlara
qaldırmışdır min üsyan.
Azadlığın bayrağını
ucaldan bir insan da
Sədaqətin qanununu
yaratmışdır cahanda.
Köləliyə, əsarətə
qara məzar qazıldı,
Azad, gözəl bir ölkədə
azad qanun yazıldı.
İnsanların azad fikri,
eşqi, hissi, duyğusu,
Qocaların hər istəyi
anaların arzusu,
Alqışlayır bu qanunu
salamlayır hər zaman,
Əmək, hünər dünyasına
alqış deyir hər insan.

## ANA SƏSİ

Nə güclüsən, ana səsi,
qadın səsi...
Ürəklərdən qopub gələn
odlu nəğmələr nəğməsi...
Səadətə, xoş günə çağıran bizi
ana səsidir.
Qüdrətiylə aşıb keçən
neçə qitəni, dənizi
ana səsidir.
Rəngi istər ağ olsun
istər sarı, istər qara,
Analıq bir şərəfdir
insanlara...

Dünyada bir səs varmı
Ana səsi qədər doğma, mehriban?
İlk laylanı dinləmişik,
İlk şəfqəti görmüşük
analardan.
Vətənin ağır günündə
döyüşə göndərib analar,
Qaranlıqlar ərisin deyə
Ürəyini məşələ döndərib analar.
Xoş gündə
könülləri xoş meh kimi
sarıb keçən ana səsidir.
Çətin yolları ümidlə, inamla
yarıb keçən ana səsidir.
Dünyada elə ana varmı
Körpələrin təbəssümünü
göz yaşına dəyişsin,
Dünyaları ona versələr belə?!
Elə ana tapılarmı
Balasının bir gününə qıysın
"Sənə əbədiyyət bəxş edərik" –
desələr belə?!
Bütün canlılar qoruyur balasını –
Oddan, sudan, küləkdən...
İllərin, əsrlərin arxasından
Anaların səsi gəlir:
"Qoruyaram səni, körpəm,
Qızılcadan, çiçəkdən".
Silinir ölkələrdən
Qızılcanın, çiçəyin izi...
Bombaların çopurundan,
Yanğınların ləkəsindən
Qoruyur analar,
Dünyamızı, yuvamızı, elimizi...
Ana sözü dayandırar
Dağdan qopan vəhşi seli.
Ana sözü oyandırar

Əsarətdə yatan eli.
Böyük ana,
Yaratmısan öz əlinlə
Keçmişi sən, bu günü sən.
Öz əlinlə qaldırarsan
Bu dünyanın kürəyindən
Fəlakətin yükünü sən.
Bu gün bütün yer üzündə
Səs-səsə versə analar
Sülhün qalib bayraqları
Hər tərəfdə əzəmətlə dalğalanar.
Dinləyin, insanlar,
Analar danışır,
Üfüqlərdən-üfüqlərə dalğalanan
Anaların səsidir...
Bu səs
Səadət nəğməsi,
Ümid nəğməsidir...

## YAZ GECƏSİ

Ağaclar pıçıldaşır,
Çiçəklər danışırdı...
Ulduzlar göy üzündən
Hey baxıb qımışırdı.
Səs-səmir kəsilirdi
Hər yandan yavaş-yavaş.
Çiçəklər bir-birinin
Çiyninə qoyurdu baş.
Güllər mürgüləyirdi,
Yuxlayırdı kəpənək:
Yatıb dincin alırdı
Yaşıl ot, sarı çiçək.
Meh əsir, yırğalayır
Yatmış otu, çiçəyi
Meh əsir, oxşayırdı,
Yuxulu kəpənəyi.

# AŞIQ NABAT

*Aşıq Nabat Cavadova 1914-cü ildə Naxçıvanın Parçı kəndində doğulmuşdur. Saza-sözə erkən həvəs göstərmiş, üç il ustad aşıq yanında şəyirdlik etdikdən sonra, el şənliklərində çalıb-çağırmışdır. 1938-ci ildə Moskvada ədəbiyyat və incəsənət ongünlüyünün və I Aşıqlar Qurultayının iştirakçısı olmuşdur.*

*1973-cü ildə vəfat etmişdir.*

## QOŞMA

Sizə qurban olum yığılan canlar,
Nadan olan yar əlinə düşmüşəm.
Yarı olan məgər görünməz yara?
Siz də bilin, xar əlinə düşmüşəm.

Tanımadım sultanımı, xanımı,
Yara qurban etdim xanimanımı,
Hər qıya baxanda aldı canımı,
Gözləri xumar əlinə düşmüşəm.

Mən Nabatam, bunda mənə say gərək,
Gözəllərin qara qaşı yay gərək,
Belə yarın gündə mini ay gərək,
Siz də bilin mar əlinə düşmüşəm.

# MƏDİNƏ GÜLGÜN

*1926-cı ildə Bakıda anadan olmuşdur. Burada ibtidai məktəbi bitirərək 1938-ci ildə ailəliklə Güney Azərbaycana – Ərdəbil şəhərinə köçmüşlər. Bədii yaradıcılığa 1946-cı illərdən başlasa da ilk şeirlərini 1945-ci ildə Təbrizdə çıxan "Vətən yolunda", "Azərbaycan" qəzetlərində və almanaxlarda çap etdirmişdir. Milli hökumət irtica qüvvələri tərəfindən boğulduqdan sonra Bakıda yaşamalı olmuşdur. Onun əsərləri keçmiş SSRİ və bir sıra xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. 1991-ci ildə Bakıda vəfat etmişdir.*

**BİLƏR**

Həsrət ağrısını, vüsal qəmini,
Ayrılıq oduna yananlar bilər.
Dənizdə qərq olan tənha gəminin,
Tənha fəryadını ümmanlar bilər.

Mənə söyləməyin az alışıb-yan,
İnanın, daşı da ağladar hicran.
Dağların ahıdır o çən, o duman,
Dağların dərdini dumanlar bilər.

Məni sorğulara tutma sən əbəs,
Arzumu qəlbimdə, baxışımda gəz.
Könlümü hər naşı oxuya bilməz,
Onu dünya görmüş insanlar bilər.

**YORA BİLMƏZ YOLLAR MƏNİ**

Gah aranda, gah dağdayam,
Gah çəməndə, gah bağdayam.
Yaxındayam, uzaqdayam,
Yora bilməz yollar məni.

Gah bahar, gah qarlı qışam,
Bu həyatdan doymamışam.
Səfərdəyəm səhər-axşam,
Yora bilməz yollar məni.

Gah analar anam olar,
Gah bulaqlar laylam olar.
O laylalar dünyam olar,
Yora bilməz yollar məni.

Gah ümidim çiçəklənər,
Gah bir günüm ilə dönər.
Həyat dəniz, qalxar, enər,
Yora bilməz yollar məni.

Gah buludtək dolar könlüm,
Gah tək-tənha qalar könlüm.
Gah bələdçi olar könlüm,
Yora bilməz yollar məni.

Yollar dönə bir kitaba,
Varaqlaram oba-oba.
Tablaşaram hər əzaba,
Yora bilməz yollar məni.

Gah quşlarla yarışaram,
Gah sellərə qarışaram.
Dərə keçib, dağ aşaram,
Yora bilməz yollar məni.

Nəğmə dolu bir ürəyəm,
Gah coşğunam, gah kövrəyəm.
Bir ümidli gələcəyəm,
Yora bilməz yollar məni.

Babam Qorqudun sazıyam,
Nənəm Tomrisin qızıyam.

Zaman-zaman yanasıyam,
Yora bilməz yollar məni.

El arxamdır dar ayaqda,
Bir məna var yaşamaqda.
Doğulduğum bu torpaqda
Yora bilməz yollar məni.

Gah dönərəm sönməz oda,
Arzum dəniz, mən bir ada.
And içirəm bu həyata,
Yora bilməz yollar məni.

**YER ÜZÜNDƏ BİR EVİM VAR...**

Yer üzündə bir evim var,
Pəncərəsi günəşə.
Nəğmə deyib, quşlar qonar,
Pəncərəmə həmişə.
Yer üzündə bir evim var,
Min zəhmətlə qurmuşam.
Ordan iki körpə qartal
Böyüdüb uçurmuşam.
Yer üzündə bir evim var,
Ocağı daim yanar.
Onun sönməz şöləsindən
Ürəyim işıqlanar.
Yer üzündə bir evim var,
Xatirələr məskənim.
İlqarında düz olana
Açıqdır qapım mənim.
Yer üzündə bir evim var,
Orda neçə illərdir,
Taleyi bir, arzusu bir
İki şair ömr edir.
Yer üzündə bir evim var,

Orda qəmim, sevincim,
Ordan gedər əlçatmayan
İllərə ömür köçüm.
Yer üzündə bir evim var,
Sanki xəyala dalmış.
O, mənimçün ən müqəddəs,
İsti aşiyan olmuş.
Yer üzündə bir evim var,
Batmaz tufanlar ona.
Bünövrədən bağlıdır o,
Bu Vətən torpağına,
Bu Vətən torpağına.

**O AXŞAM...**

O axşam ulduzsuz qalmışdı səma,
O axşam Təbrizə hey qar yağırdı.
Doğrusu gəlməzdi o gün ağlıma
Ömrümə həsrətli ömür doğurdu.

Dörd təkər üstündə keçirdi anlar,
Arxada qalırdı daşlı küçələr.
Sanki arxamızca boylanırdılar,
O axşam gözləri yaşlı küçələr.

Arxada qalırdı dalanlar, yollar,
Arxada qalırdı evlər, binalar.
Ayrılıb gedirdi qızlar, oğullar,
Bir həsrət qalırdı, bir də analar.

O gün üşüyürdü bütün yer üzü,
Arxada qalırdı bağ, bağça, meydan
Sınayırdı sanki o axşam bizi,
Şaxta bir tərəfdən, həsrət bir yandan.

Odlu nəfəsimiz əritdi qarı,
Donmadıq, şahiddi buna yaxın, yad.
Keçdiksə şaxtalı, qarlı yolları,
Həsrəti əridə bilmədik heyhat.

Körpə balaların gözündə sual,
Anaya, ataya and yeri olduq.
Yəqin ki, kiminə acı bir xəyal,
Kiminin dilinin əzbəri olduq.

Çinar gövdəsində yazımız qaldı,
Bir də səngərlərdə qaldı yerimiz.
Elə bil üfüqlər, göylər daraldı,
O axşam Təbrizdən ayrılanda biz.

## GÖZÜM ARAZDA QALDI

Səbrim yaman tükəndi,
Ürəyimdə dözüm yox.
Ayrılığın əlindən,
Gecəm yox, gündüzüm yox.

Ömrüm qəm içindədir,
Bir karvan köçündədir.
Alovum içimdədir,
Demə, odum-közüm yox.

Çatdım ömrün qışına,
Döndüm sapand daşına.
Taleyin kəc işinə,
Daha heç bir sözüm yox.

Gözüm qaldı Arazda,
Dedim gələm bu yazda.
Ana, səbr et bir az da,
Söyləməyə üzüm yox.

Söz var hər ötən gündə,
İllər toyda, düyündə.
Doğma ata evində,
Söhbətim var, özüm yox.

Ey Vətənim, Vətənim,
Olmusan səsim, ünüm.
Kimsə deməsin, mənim –
Torpaq üstə izim yox...

**BU YURDUN**

Bu yurdun yaşı bəlli,
Baharı, qışı bəlli,
Qayası, daşı bəlli,
Həsrətimin yaşı yox.

Bu yurdun çölləri var,
Nazənin gülləri var,
Ayları, illəri var,
Həsrətimin yaşı yox.

Yol salıb qışa ömrüm,
Qalxır yoxuşa ömrüm,
Dolsa da yaşa ömrüm,
Həsrətimin yaşı yox.

# HƏKİMƏ BİLLURİ

*1926-cı ildə Güney Azərbaycanın Zəncan şəhərində anadan olmuşdur. İlk təhsilini "Azəri" qız məktəbində almışdır. İlk şeirlərini orta məktəbdə oxuyarkən fars və türk dillərində yazmışdır. Onun Azərbaycan türkcəsində qələmə aldığı ilk şeirləri "Vətən yolunda", "Azər" qəzetlərində və "Azərbaycan" jurnalında çıxmışdır. 1946-cı ilin dekabrından Quzey Azərbaycana mühacirət edərək fəal bədii və elmi yaradıcılıqla məşğul olmuşdur.*

*2000-ci ildə Bakı şəhərində vəfat etmişdir.*

## MƏNİM XALQIM

Xalqımı çox sevirəm, çox.
Ona mənsub olduğum üçün yox;
Əməksevərdir –
ona görə.
Qonaqpərvərdir –
ona görə.
Hər şeyi
Cibinə salan yox,
Ürəyinə salandır,
Özgə dərdinə qalandır.
İncəlikləri duyar
Mənim xalqım.
Haqqın keşiyində durar
Mənim xalqım.
Qəlbində qürur, alnında vüqar
Mənim xalqım...
Torpağa bağlıdır əzəldən.
Mətanətli, dözümlüdür,
Sınamışam mən.

Təmkini dağ kimidir,
Fitri istedadı – bulaq kimi.
Səbr mehvərini hicran
Bəzən çıxarsa da halqasından,
Yenə səbri Kənan səbrinə bənzər,
Adı, şöhrəti uzaqlarda gəzər.
Gənclərini çox sevirəm,
Vəfalıdır – ona görə.
Qocalarını çox sevirəm,
Hər sözü mənalıdır – ona görə.
Anaların kəsərlidir sözü,
Uzaqgörəndir gözü.
Gözəl adətləri vardır xalqımın,
Ürəyi işıqdır, nurdur xalqımın.
Uşaqlıqdan bir adətdir
Bizdə böyüyə hörmət.
Alınıb-satılmaz məhəbbət.
Toxunulmazdır əmək,
Müqəddəsdir zəhmət.
Elə buna görə məni yaşadır
xalq məhəbbəti.
Məni öldürə bilər Vətən həsrəti.

**TƏBRİZ**

Qollarım dolanar boynuna bir gün,
Yenə baş qoyaram dizinə, Təbriz.
Həsrətdən, hicrandan cana doymuşam,
Doyunca baxaram gözünə, Təbriz.

Bulanıq suların axsın, durulsun,
Təzə günlərindən büsat qurulsun.
Səhənd camalına bir də vurulsun,
Bir qubar qonmasın üzünə, Təbriz.

Həsrətin yandırar, pörşüdər məni,
Zərif çiçək kimi üşüdər məni.

Səsləsəm Savalan eşidər məni,
Qızınam oduna, közünə, Təbriz.

Gülüstan bağının seyrinə gəlim,
Lalə yamacında bir də dincəlim,
Ötən günlərimə yetişməz əlim,
Düşüm heç olmasa izinə, Təbriz.

Ana təbəssümüm ay işığıdır,
Qolum qamətinin sarmaşığıdır.
Şerin bu dünyanın yaraşığıdır,
İncisi tükənməz xəzinə, Təbriz.

Sən şair ömrümə vüqar vermisən,
Solub-saralmayan gülzar vermisən.
Etibar vermisən, ilqar vermisən,
Hər igid oğluna, qızına, Təbriz.

Səttarxan bayrağın göylərə ucalt!
Qara buludları od ağzına at.
Şair qızının da sözlərini qat
Şirin söhbətinə, sözünə, Təbriz.

## HƏYAT AŞİQİ

Həyatın qədrini bilirəm, inan,
On dəqiqəlik həyat,
Həyat işığı,
Dünyada bir anlıq nəfəs,
Bilirəm
Əsrlər, illər sükutuna dəyər.
Bir anlıq sevinc, məhəbbət,
Bir anlıq görüş,
Bir ağız gülüş,
Könül budağımı tərpədər, əyər
Fəqət, mən

Ölümdən qorxmayıram bilsən.
Dünyadan köçmüş insanın
Həyata qayıtmasına inanıram,
Buna sən də inan.
Bəlkə bir neçə ömür
Yaşayır insan.
Varlıq yox olur cahanda,
Yoxluqsa varlıq,
Bunu təsdiq edir həyat da,
Zaman da.
Həyat olan yerdə
Nə gəzir ölüm?
Ölüm gələn zaman həyat yoxdur, gülüm.

Fəqət kədərlənmə!
Dünyaya yenidən qayıdır insan.
Buna inansan,
Dəhşətli görünməz ölümlər sənə.
Deyərsən:
Hər gedən
Qayıdır yenə.

**BU YOLDA**

Ölümün gözünün içinə baxıb,
Sonra bir şam kimi sönəcəyəm mən.
Qartal tək zirvəyə qalxdıqca qalxıb,
Sonra bu dünyaya dönəcəyəm mən.

Mənə ağlamayın, amandı, dostlar!
Vətən həsrətilə özüm ağlaram.
Vətənə, anamdan mənə yadigar,
Ölməz məhəbbəti girov saxlaram.

Azadlıq həsrəti olar çırağım,
Deməyin bu yolda bənizim solar.
Dillərdən dillərə düşər sorağım,
Məzarım günəşlə, günəşlə dolar.

Ölümdən qorxmuram, ölüm nədir ki,
Qəlbim darılacaq siz darıxanda.
Sizin qarşınızda zülüm nədir ki,
Çör-çöp neyləyəcək sellər axanda.

Yenidən doğacaq məni bir bahar,
Əsarət, zülümdür, insanı əyər.
Azadlıq eşqilə irəli, dostlar,
İrəli! Bu yolda ölməyə dəyər.

## GÖZƏLLİK İLAHƏSİ

Gözəllik ilahəsi kimi qarşımdadır dəniz,
Səma şəffaf, sular mavi, sular büllurtək təmiz.
Bu gün gözəllik ilahəsidir dəniz.
Qəlbim kimi kövrək dalğalar
Sahilə sürünür yavaş-yavaş.
Bu gün dəniz qəlbimə, ruhuma sirdaş.
Dənizin səsini almışlar sanki
Əvəzində gözəllik bəxş etmişlər ona.
Üfüq heyrandır dəniz sularına.
Bu axşam
Sahildə yoxdur izdiham,
Qağayılar mavi dənizin ağ geyimli qonağı.
Onun süfrəsi zəngin,
Ürəyi geniş.
Sinəsi əngin.
Mətanəti, vüqarı heyran qoyar dağı.
Dənizə sirdaşam bu axşam.
Mülayim əsir külək,
Suların səsiylə dincəlir ürək.
Səma şəffaf, sular büllurtək təmiz.
Bu gün gözəllik ilahəsidir dəniz.

# MƏRZİYƏ ÜSKUYİ (DALĞA)

*Mərziyə Üskuyinin taleyi faciəli olmuşdur. Mərziyə Əhmədi Üskuyi (Dalğa) 1945-ci ildə Təbriz yaxınlığındakı Üskü qəsəbəsində dünyaya gəlmiş, ali pedaqoji təhsil aldıqdan sonra üç il Üsküdə orta məktəb müəllimi kimi çalışmış, şeirlər yazmışdır. Xalqın ağır vəziyyəti, azəri türklərinin ağrı-acıları Mərziyəni (dostları ona Mərican deyərdilər) gənc yaşlarından inqilabi fəaliyyətə cəlb etmiş, fədai dostlarıyla bir yerdə şah məhbəslərinə atılmış, zindan günləri haqqında xatirələrini yazmışdır. 1972-ci ildə 27 yaşında şah rejimi tərəfindən qətlə yetirilmişdir.*

***

Günüm gedib su içsin, abı donun dəyişsin,
Can günəşim, parla, çıx
Cahan görünsün açıq.
Aylar, illər dolandı,
Ah, gördüyüm yuxumu?
Zaman naqqa balıq tək,
Uddu çocuqluğumu.

İndi dəmirdən tüfəng,
Hesabsız fişəng gərək.
Xalqın dönməz eşqindən,
Burda dayaq gərəkdir.
Yurda dayaq gərəkdir.
Hər kəs Günəşi sevsə, atar başqa sevgini...
Yorulub yolda qalmaz.
Bəlkə lap özünü də unudar,
Yada salmaz
Gedər, tapar Günəşi... uca dağlar başında.

***

Gecələrim aysızdır,
Gündüzlərim günəşsiz.
Ömrüm illərdən bəri
Bu cür sovuşur səssiz.
Nifrət, soyuq, aldanış

Kökü dibdən quruyub
Səadətin, şadlığın.
Qaranlıq yığın-yığın,
Nə sonu var, nə dibi.
Ah, bu zülmət, kor zülmət
Gəmirməkdə qəlbimi.

## DALĞA

Xırda, incə arx idim,
Meşələrdən, dağlardan,
Dərələrdən axırdım.
Bilirdim durğun sular
Öz içində boğular.
Bilirdim dəryalarda
Dalğalar qucağında,
Xırdaca arxlar üçün
Yeni həyat doğular.

Nə yolun uzaqlığı,
Nə qaranlıq çuxurlar,
Nə durğunluq həvəsi,
Məni yoldan qoymadı.
İndi qarışmışam mən
Qurtulmaz dalğalara;
Varlığımız çalışmaq,
Yoxluğumuz dayanmaq.

## MƏN VƏ DƏMAVƏND

Hər səhər baxıram Dəmavəndə mən,
Qoca dağ vüqarla dayanıb durub.
Bilmirəm nə vaxtdan, hansı zamandan,
Köhnəlməz ağ, təmiz çadırın qurub.

Gahdan zirvəsinə günəş saçılır,
Gahdan da dumanlar dövrələr onu.
Nə yellər, nə sellər kiçiltmir canın,
Daşdandır sinəsi, qardandır donu.

Ağ başı bəzəyir Arəş başına,
Gavənin, Zöhhakın onda izi var.
Yeni zöhhaklara köhnə tarixdən,
Xalqın sinəsində aydın sözü var.

Hər zaman baxanda Dəmavəndə mən,
Dayağım çoxalır, kinim dərindir.
Zöhhakı görürəm, könlüm odlanır,
Gavəni yadlıram bağrım sərinlir.

# XANIMANA ƏLİBƏYLİ

*1920-ci ilin aprelində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsində, sonra isə ADPU-nun filologiya fakültəsində təhsil almışdır. İlk mətbu şeri "Ana" 1938-ci ildə "Azərbaycan qadını" jurnalında dərc olunmuşdur. Həmin vaxtdan fəal bədii yaradıcılıqla məşğuldur.*

## HƏDİYYƏ

Bir az ağ parça kəsim,
Axşam olar, tələsim.
Bu gün tikiş tikməyə,
Əcəb gəlir həvəsim.

Bax, budur iynəm, ağım,
Yaraşıqlı oymağım,
Səninlə tikiş tikim,
Ağrımasın barmağım.

Bu mənim saplarımdır,
Nə rəng desən varımdır,
Çoxlu tikiş tikmişəm,
Kələflərim yarımdır.

Mən başladım tikişə,
İynəm girişdi işə,
Yaşıl ipək saplardan
Yarandı atlas meşə.

Sonra tikdim qızıl şar,
Dövrəsində şüalar.
Bu günəşdir, göylərdə
Nə duman, nə bulud var.

Tikməni aram-aram
Bəzərəm, naxışlaram.
8 Mart bayramında,
Anama bağışlaram.

## XARRAT

Bax, bu oğlan Yaşardır,
Əlindəki mişardır.
Mişarı yaxşı tanı,
Odur kəsən taxtanı.
Əlinə alıb mişar,
Taxtanı kəsdi Yaşar.
Sonra çağırdı: – Rəndə,
Gəl kömək elə sən də,
Bu işi vuraq başa.
Çəkdi onu taxtaya,
Qıvrılaraq talaşa
Yığıldı taya-taya.
O çalışdı o ki var,
Taxtalar oldu hamar.
Dedi bacısı Sevil
– Sən xarratsan elə bil,
Həm qoçaqsan, həm zirək,
Düzəlt bir yaxşı nənni,
İçində yelləndirək
Bacımız Yasəməni.

## AYNUR

Bu ağ inəyə baxın...
Dolaşıb çölü, düzü.
Gəlir Aynura yaxın,
Ona dikilib gözü.

Sağıcı Aynur bu il,
Yenə də onu sağır.
Dolçasına elə bil,
Ağ rəngdə yağış yağır.

Gözündən nur saçılır,
“Kosmos”dur onun adı.
Onu görcək açılır,
Aynurun qol-qanadı.

## MƏNİM QARTALIM

Göy buludlardan soruş,
Mənim atam nəçidir.
O, tunc qanadlı bir quş,
O bir təyyarəçidir.

Elə bil uçuram mən,
Atamın qanadında.
Göy yolları görəsən,
Necə qalır yadında?..

O şığıyır hər yana,
Marsa, günəşə çatır.
Baş vurub asimana,
Göyün üzündə batır.

Bir şimşək kimi çaxıb,
Uçur mənim qartalım.
Nənəm ardınca baxıb,
Deyir: – Qadasın alım,
Salamat get, qayıt sən,
Möhkəm olsun iradən.

# TÜKƏZBAN ABBASQULU QIZI

*1928-ci ildə Qaraçöp mahalının Əyrəm kəndində anadan olub. Məşhur el ağsaqqalı Hacıqəhrəmanın nəvəsidir. Onun atası Abbasqulu da gözəl saz çalıb, qoşmalar söyləyib. Şair Tükəzban belə bir mühitdə böyümüş, uşaqlıqdan saza-sözə bağlanaraq, aşıq yaradıcılığından bəhrələnərək bir sıra qoşma, gəraylı və təcnislər yaratmışdır.*

**OLDUM**

Yatmışdım, yuxumda gördüm sizləri,
Oyanıb yuxudan, pərişan oldum.
Gecələr sübhəcən mənə xab olmaz,
Bu sınıq könlümlə danışan oldum.

Nə vaxtdı çəkirəm mən ahu-zarı,
Silinmir könlümün bil ki, qubarı.
Tale xəstə etdi alagöz yarı,
Onunçun sinədən alışan oldum.

Tükəzban ölüncə danışar eldən,
Dönməz həqiqətdən assalar dildən.
Xoşbəxt günlərimi uçurub əldən,
Ötənnən-keçənnən soruşan oldum.

**NECƏDİ?**

Başına döndüyüm, vəfalı dostum,
Söylə görüm, bizim ellər necədi?
Bahar mövsümündə seyran etdiyim,
Göy çəmən örtüklü çöllər necədi?

Gözüm çox görübdü yaxşı-yamanı,
Salıbdı könlümə olmaz gümanı.
Düzlərdə lalələr açan zamanı,
Tuti tək ötüşən dillər necədi?

Vətən çox şirindi, qiyməti olmaz,
Qürbətdə olmayan qüssəyə dolmaz.
Yazıq Tükəzbanın umudu solmaz,
Yara göndərdiyi güllər necədi?

**YAZDI**

Qəmli könlüm dindirməyin,
Tale başdan qara yazdı.
Əzəl başdan şad olmadım,
Günüm ahu-zara yazdı.

Ürəyimdə yaram çoxdu,
Neyniyirəm belə baxtı.
Yaşımın novcavan vaxtı,
Qızılgülü, xara yazdı.

Tükəzbanam, qəm çəkərəm,
Bu dərddən boyun bükərəm,
Gözüm yollara dikərəm,
Arzularım dara yazdı.

# NARINC XATUN

*Cəfərova Narınc Əvəz qızı 1930-cu ildə Neftçala rayonunun Bankə qəsəbəsində anadan olmuşdur. İlk şeirləri orta məktəb illərində yerli mətbuatda dərc edilmişdir. Şairin "Burla xatun nəvəsiyəm" adlı şeirlər toplusu 2002-ci ildə işıq üzü görüb.*

*Narınc xatun uzun illər Azərbaycan Aşıqlar Birliyinin nəzdindəki "Aşıq Pəri" məclisinə rəhbərlik etmişdir.*

## GÖYÇƏ

Bu dağlar qüdrətdən sıralanıbdır,
Torpağın ilk təməl daşıdı Göyçə.
Təbiət hüsnünə min naxış vurub,
Bu göyçək adını daşıdı Göyçə.

İlahi, bu yerdə gözəlliyə bax,
Yamaclar gül-çiçək, quzeylər tağ-tağ.
Hər daşı, qayası, sirli bir soraq,
Sanki əsrlərin yaşıdı Göyçə.

Zirvələr zirehli qalaya bənzər.
Qartallar qıy vuran alaya bənzər.
Bulaqlar döşünə mirvari düzər,
Bütün mahalların başıdı Göyçə.

Buludlar üstündə dolaşar çin-çin,
Günəş camalındı, ulduzlar elçin.
Bəzən bəd nəzərdən qorunmaq üçün,
Dumandan səd çəkib yaşındı Göyçə.

Xatunam, dağlara qılmışam səcdə,
Gözəllik önündə gəlmişəm vəcdə.
Əl açıb göylərə deyərdim məncə,
Dünya bir üzükdü, qaşıdı Göyçə.

**AYRILIĞIN**

Solacaqmış çiçək-çiçək,
Güman imiş ayrılığın.
Yoxsa məni qərq edəcək,
Ümman imiş ayrılığın.

Günlər ötür sına-sına,
Sədaqətdə məni sına.
Gözlərimin qarasına
Duman imiş ayrılığın.

Saldın eşqin axarına,
Yandım günəş baxarına.
Əl gəzdirər baharıma
Xəzan imiş ayrılığın.

Xatun deyər xoş gələydim,
Gözlərində seviləydim.
Kaş ki, bir gün mən biləydim
Yalan imiş ayrılığın.

**TEL ARASINDA**

Göydəki ay sənin, ulduzlar sənin,
Gəl səni vəsf edim gül arasında.
Könlünü günəşin hərarətində,
Yaşını yüz görüm il arasında

Ömür baharımı qışa vermişəm,
Bəzən də günümü qəmlə hörmüşəm.
Mən elə yanmışam, külə dönmüşəm,
Közüm də görünmür kül arasında.

Mən sənə vəfalı sənəməm, sənəm,
Qorxuram oduna alışa sinəm,
Çal sazı – bəm üstə qoy dinsin "Dilqəm"!
Sən Xatunu axtar tel arasında.

## CANIM

Məni dağ bilərdin, zirvə bilərdin,
İndi qayalarda sar olan canım.
Dağlar da bələnib duman, tüstümə,
Közərə-közərə qor olan canım.

Ömrüm baharı da, qışa dönərmiş,
Arzusu, sevgisi yaşa dönərmiş,
Vücudu heyrətdən daşa dönərmiş,
Yayın istisində qar olan canım.

Xatunam şöhrətim həqiqət, vətən,
Amalım, istəyim sözlü bir aləm.
Nəğmə olub torpağıma ələnəm,
Demərəm dünyası dar olan canım.

# ZİVƏR AĞAYEVA

*1934-cü ildə Qazıməmməd rayonunun Qarasu kəndində anadan olmuşdur. Qazıməmməd dəmiryol məktəbini bitirdikdən sonra Bakı Tibb Texnikumunda təhsil almışdır. ADPU-nun dil və ədəbiyyat fakültəsində təhsilini davam etdirmişdir. "Azərbaycan qadını" jurnalında işləmişdir. Ədəbi fəaliyyətə 60-cı illərdən başlamışdır. "Özün seç, özün bəyən"* (*1975*), *"İlk baharda gəlmişəm"* (*1980*) *və s. kitabları nəşr olunmuşdur.*

**SAHİL**

Ətirli qoynuna, yaşıl sinənə,
Ləpələr yol boyu səpibdir inci.
Elə bil, qonubdur yarpaqlar üstə,
Ana təbəssümü, bala sevinci.

Çiçəkli sahilim, güllü sahilim...
Şəhər çilçıraqlı tacdır başında.
Söyüdlər boylansın, küknar daransın,
Xəzər bir aynadır durub qarşında.

Sayrışan çıraqlar ulduzlar kimi
Salır qaranlığın sinəsində iz.
Kəlmələr dilimdə nəğməyə dönür,
Hər bahar səninlə görüşəndə biz.

**DOLANIM**

Bir çağlayar iki könül,
Ayrı deyil candan canım.
Bir odda ki sən yanırsan,
Alovunda mən də yanım.

Əgər Aysan, ulduz olum,
Keşiyində dayanım mən.
Günəşsənsə Yerdən əvvəl,
Qoy başına dolanım mən.

**GƏLMƏZ**

Yazın yaz vaxtı var, payızın payız,
Ötüb-keçən anlar, bil, ələ gəlməz.
Hər gülə, çiçəyə demə vurğunam,
Bülbüllər vurulub, hər gülə gəlməz.

Yazda al günəşdir, qışda bəyaz qar,
Vaqifi məst edən bizim sonalar,
Qəlbini etsə də hicran tarı-mar,
Yaşılbaş görməyə hər gölə gəlməz.

Hər oddan güclüdür məhəbbət odu,
Sənə qanad verib, yaşadan odur.
Sevilmək uludu, sevmək uludu,
O nəğməyə sığmaz, o dilə gəlməz.

**QU QUŞU**

Bir cüt Qu quşu qalxıb
Asimanda göründü.
Elə bil, göyün üzü
Tül geydi, tül büründü.
Yanaşı qanad açıb,
Ucaldılar, endilər.
Göylərin sinəsində
Ağ zanbağa döndülər.
Bir-birinə and içib,
Hər sınaqdan keçdilər.
Gəlinlik paltarını

Buludlardan biçdilər.
Ayrılmaq istəmədi,
Onlar heç zaman, heç vaxt.
Qəfil atılan güllə
Verdi hökmünü, ancaq.
Göydə bir qanad sınıb,
Göydən bir sona endi.
Sinəsindən göynəyib
O yana-yana endi.
Dilində son nəğməsi,
Dodaqda sözü qaldı.
Ayrılsa da səmadan
Səmada gözü qaldı.
Havada yalqız uçan
Qu quşunu andı o.
Özünü düşünmədi,
Yoldaşına yandı o.

## ANA

Uşaq oldum, ay ana,
Qədrini bilmədim mən.
Saçını tumarlayıb,
Yapışmadım əlindən.

Ürəyinə toxunub,
İncitdim də arabir.
Səhvim məni yandırır,
Səhvim məni incidir.

Nə üçün axşam-səhər,
Dolanmadım başına?
Axır pərvanə oldum,
Soyuq məzar daşına.

# KƏMALƏ

*1937-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. Burada 2 saylı şəhər orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun fransız dili fakültəsində təhsil almışdır. İlk mətbu şeri – "Halal olaydım" 1957-ci ildə "Azərbaycan" jurnalında dərc ediləndən sonra fəal bədii yaradıcılıqla məşğul olmuşdur. Fransız dilindən poetik tərcümələr etmişdir. "Arpaçayın nəğməsi" (1978), "Daş piyalə" (1982) və s. kitabları nəşr olunmuşdur.*

## SADƏLİK

Yaraşıqdır bənövşənin duruşu,
Oxşar onu küləklərin yerişi.
Başlanarsa çiçəklərin yarışı,
Bənövşələr tacı olar güllərin.

Dolu sünbül yerə tutar üzünü,
Vüqarlanıb o tanıtmaz özünü.
Amma hər kəs duyar onun sözünü,
Qoynundakı həyatıdır ellərin.

Yerə baxar bar gətirən ağaclar,
Torpaq üstdə ötər dil-dil turaclar,
Dağ varsa da, xoşa gələr yamaclar,
Lal baxışlar qaydasıdır göllərin.

Üz tutubdur enişlərə bulaqlar,
Şəlalənin yerə qədər yolu var.
Torpaqdadır zirvələnən o dağlar,
Buna görə həmdəmidir illərin.

## TORPAQ

İlıq nəfəsini duyub baharın,
Açır gözlərini yuxulu torpaq.
Yenə nəğməsinə dalır suların,
Nəfəsi bərəkət qoxulu torpaq.

Yazacaq köksünə xoş əməlləri,
Sinəsi gözləyir insan əlləri.
Ona qarışdıqca zəhmətin təri,
Hər il cavanlaşır bu ulu torpaq.

Ədavət, haqsızlıq ondan uzaqdır,
O, zəhmət sevəni yaşadacaqdır.
Kim deyir adicə, qara torpaqdır,
İnsan duyğuludur, duyğulu torpaq.

## BİR KÖNÜLƏM

Bir könüləm həsrət dolu,
Heç qayğımı çəkənim yox.
Bir bulağam şəfa sulu,
Sularımdan içənim yox.

Bir dağam başı dumanlı,
Dumanımı görənim yox.
Bir bağam gül kəhkəşanlı,
Güllərimi dərənim yox.

Bir məşələm, şöləsi bol,
Dövrəmdə bir pərvanəm yox.
Leyli yolu getdiyim yol,
Səhrada heç divanəm yox.

Bir heyrətəm gözlərdə mən,
Ancaq halım soranım yox.
Hey gəzərəm düzlərdə mən,
Bir atəşəm, aranım yox.

Ömür keçir yana-yana,
Məni candan duyanım yox.
Üz tutmuşam hansı yana,
Görmüşəm heç həyanım yox.

Bu dünyaya gəlib-getdim,
Elə bildim məkanım yox.
Bir ləl idim, düşüb itdim,
Heç axtarıb tapanım yox.

## MƏNİ

Ömür bircə idi getdi əlimdən,
Yetirməz bir daha ruzigar məni,
Bir vəfa görmədim qönçə gülümdən,
Unutdu dünyada o nigar məni.

Yox, başqa birinə meyl salmaram,
Gülün olmadımsa, xarın olmaram.
Könül deyiləni satıb-almaram,
Həyat yaratmayıb sövdəgər məni.

Vərəqlər üstündə qəzələ döndüm,
O güldən ayrılmaz nəzərə döndüm.
Bitdim yolu üstdə, xəzələ döndüm,
Alıb saxlamadı yadigar məni.

# NURƏNGİZ GÜN

*1938-ci ildə Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1 saylı Bakı Tibb Məktəbində, sonra isə ADİU-da təhsilini davam etdirmişdir. Oxucularla ilk görüşə "Ulduz" jurnalında dərc edilən "Tanrı"* (*1981*) *povesti ilə gəlmişdir. "Ağ qanadlar"* (*1986*)*, "Günəşə dua"* (*1990*) *kitabları nəşr olunmuşdur.*

**ƏN ÇƏTİNİ BÖLÜNMƏKMİŞ**

...Sonra o məşum nağıla
sübhə kimi birgə göynədik.
Bu minvalla, bu böyük dünyamızda
eyni kədərimizlə eyni cür qərib düşdük...
Ah gülüm, qəribliyə sən yaxşı bələdsən.
Sən heç nəyi unuda bilməyəcəksən!
Ovun, quzum, ovun, mənim kövrək sevgim!
"Nə günahı, telli sazın?.."
Əsən bir başqa cür əsdi.
Mən təslimәm. Kiri sən də.
Kiri, mənim ay ömürlük kədərim!
Ən acısı –
qoynumuzdan açılıb
yerə düşən o qolları unutmaqmış.
Ən acısı –
cığırlara haçalanıb
qar selində üşüyən o yolları unutmaqmış!
Olacağa nə hacət? Yəqin bu da gərəkmiş.
Nə biləydik, nə biləydik
Ən çətini bölünməkmiş?!

## QAÇIRAM

Boş haylardan,
haraylardan,
təmtəraqlı
otaqlardan, –
saraylardan qaçıram!
Yersiz gülüşlərdən,
saxta, yaltaq öpüşlərdən
qazanc güdən,
söz üyüdən
görüşlərdən qaçıram!
Əli baltalı qollardan,
dolam-dolaşıq yollardan,
boş küylərdən,
kələklərdən qaçıram!
Qamarlayıb səadətimi
özgəsinə sovqat verən,
sürükləyən
"küləklərdən" qaçıram!

## İKİ QOLUM

Dünya başımın içində,
başım dünyadan ağır.
Qoydum ağırlığımı qollarım üstə
Gördüm ki, qollarıma yağış yağır.
İki qolum iki daş sütun.

İki qolum – ikisi də daş kimi yorğun.
İki qolum – ikisi də uyudular bu yağmura.
Ehe-he-he-he-hey!..Venera!..
Qollarımı ovuşdur.
Venera! Qolların hanı?
Bir sığala möhtacam.

Venera! Az qalıb, azca qalıb –
Bir az sonra,
qollarımın iki əli,
iki əlin lələk-lələk barmaqları
çırpınıb-çırpınıb
yerə düşəcək –
Bir az sonra,
azca sonra
içimdə
bumbuz,
lal bir soyuq
üşüyəcək.

## QUŞLAR Kİ MƏNİMDİR

...Sübhün açılmasının bəxtiyarlığını duymuşam,
Günəş üfüqlərdən boy verib, doğum kimi ağrı çəkir,
Qıpqırmızı halələnir, uymuşam...
Göy üzü rəngbərəngdir – mavi, sarı, çəhrayı,
abı və narıncıdır.
Görən rənglər selindən üz tutuban, hara gedir bu cığır?
Quşların civiltisi bihuş etdi ağlımı.
Oh! Bu aləmin içindən necə anım halımı?
Ən gözəl himn –
bu quşların mahnısı!
Ən gözəl gün –
bu səhərin hüsnü, abı-havası!
Ki, çəkib ciyərlərimə, lal bir sükuta dönmüşəm,
Əl vurmayın, əl vurmayın, daş qayaya dönübmüşəm.
Bu nə işdir, kirpiyimdən ulduz-ulduz almaz sallanır,
Başım dirənir divara, gözlərimdən dəniz yollanır?
Bir telimə toxunmayın, bir telinə toxunmayın
bu səhərin, bu sehrin!..
Varım varsa, nəyim varsa, bağışlaram sizlərə,
Sizlərə, əzizlərə.

Uf demərəm!
Quşlar ki, mənimdir?
Ürəyimi yandırıb-yaxan quşlar!..
Təkcə ovçu gülləsindən səksənib duruxan quşlar,
qorxan quşlar...
Dilimi, nəğməmi, söhbətimi qanan quşlar,
bilən quşlar.
Bir azadlıq havasına hey fırlanıb, sonra birdən
qərib-qərib ölən quşlar.
Qərib quşlar... Qərib quşlar!..

## CALAQ MƏSƏLƏSİ

Axı, bu ağacın adı qaysı?!
Axı, bu ağacın günəşdir mayası!
Axı, bu ağaca kim qıyası?!
Axı, bu ağaca hansı gözlər qıyılası!
Bu ağacın yüz baharı, yüz qışı, yüz yası.
Yüz qolunun yüz sevinci,
yüz qəmi,
yüz dağı...
yüz naləsi!

Ah, bu ağac ki ulu!
Bu ağacın sonu bumu?
Bu ağaca bu yaz calaq etdilər.
Bu ağacdan başqa meyvə bitdi ki?!
Bu ağacı calaq edən!!! Dədən olubmu?!
Bu ağacı çaşbaş qoyub getdin ki?!
Məhv olasan, zatıqırıq!
Bu ağacın bağrı indi...
qırıq-qırıq...

## XƏYAL

Öpümmü yağış selini,
qucummu səhər yelini,
oxşayımmı telini
gülüm yaxıla-yaxıla!

Fikrin dolaşığına,
saçın sarmaşığına,
gözlərinin işığına
gəlim yıxıla-yıxıla.

Sevgim bələnib beşikdən,
yorulmuşam ev-eşikdən,
Məsmə də güdür deşikdən
nə var paxıla-paxıla.

Gözləyirəm gecə-gündüz,
yoxdur səndən xəbərdən iz,
qalıbdı yazıq Nurəngiz
evdə qaxıla-qaxıla.

## ZÜMZÜMƏ

Onda
gözlərim kor, qulaqlarım kar,
günlərim lal, bekarmış.
Onda
məni dəli bir eşq karıxdırırmış...
Əbəs, əbəs! Çox əbəs!
Əbəs yerə sevmiş imiş bu könül səni.
Allahın
sənin kimi biganə, xudpəsənd bəndəsini.

# FİRUZƏ MƏMMƏDLİ

*1940-cı ildə Xaçmaz rayonunun Canaxır kəndində anadan olmuşdur. Orada Hülövlü kənd orta məktəbini bitirdikdən sonra Quba şəhər tibb məktəbində təhsil almışdır. 1964-1968-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin dil və ədəbiyyat fakültəsində oxumuşdur. Ədəbi fəaliyyətə 1963-cü ildə Xaçmaz rayonunun "Dostluq" qəzetində çıxan "Ay həkim" adlı şeirlə başlamışdır.*

## LİRİK ŞEİR

Oxşayım tellərini,
ovuclayım su kimi.
Axsın barmaqlarımdan
süzələnsin dinməyim.
Rəngini gözlərimə
çəkim
bir yuxu kimi.
Sürmələsin gözümü
saçlarının ipəyi.

Elə gəzsin baxışım
çöhrənin səhərini,
Yanağında alışan
laləyə meyli düşsün.
Qəlbim keçə bilməsin
tərəddüd çəpərini,
Arzum

ümidlərindən
elə gileyli düşsün.
Yaxınlığın tilsimi
salsın uzağa məni,
Bükülsün gözlərimin
xumarına
diləyim.
Xəyalının qanadında
düzlər aşar, dağlar aşar.
tərlanlarla qucaqlaşar.
Baxar aya, baxar günə.
Coşa-coşa, sinə-sinə.
Dağdan axar, düzdən axar.
Yoldan axar, izdən axar.
Odlu, odsuz,
sulu, susuz.
Şirin sözü
olmaz duzsuz.
Köhlənini çapa-çapa
cığır gəzər, izə düşər Xəlil Rza.
Çaytək coşar, dağlar aşar,
düzə düşər Xəlil Rza.
Bu torpaqda bir iz qalar,
İllər keçər təmiz qalar,
O iz bizə əziz qalar...

* * *

Bu taleyin baltasına
Başım məndən qabaq qaçır.
Bəxtin taxtından enməyə
Tacım məndən qabaq qaçır.

Qapayın məni gözümdən,
Yığın adımı izimdən.
Bezib oğlundan, qızından,
Yaşım məndən qabaq qaçır.

Nə harayam, nə sədayam,
Oyan dağım, eşit qayam.
Daş üstündə dayanmayan
Daşım məndən qabaq qaçır.

## KİM BİLƏ

Məndən sonra nələri var dünyanın? –
Bir "mən" adda kədəri var dünyanın.
Qəzası var, qədəri var dünyanın, –
Məndən sonra kimə düşə, kim bilə?

Ovuc-ovuc çox açılıb-yumuldum,
Gah cücərdim, gah pörşəldim, gömüldüm.
Çox demişəm, bu da bir cür ömürdü, –
Məndən sonra kimə düşə, kim bilə?

Dost bildiyim düşmən olar, yaddısa,
Mənə dəydi kim-kimə daş atdısa.
Olan-qalan bir quruca addısa,
Məndən sonra kimə düşə, kim bilə?

Körpə bilib öz əlimi çox öydüm,
Bu sevgidən kaş ki diri çıxaydım.
Məndən əvvəl belə ölüm yox idi,
Məndən sonra kimə düşə, kim bilə?

Zülmün ömrü min ömürdən uzunmuş,
Nə səbri var, bir qaragün qızınmış.
Bir ümid var, gözləməkdən üzülmüş,
Məndən sonra kimə düşə, kim bilə?

Qaytar məni öz yanına, a tanrım,
Bu gəlişlə mən ömrümdən utandım.
Bu bəxt ki var, mənli-mənsiz yatandı,
Məndən sonra kimə düşə, kim bilə?

## KÖÇ

Vallah, çox qəribə bir iş idi bu,
Nə yazdı, nə payız, nə qış idi bu.
Ağrısı qıçında bir köç idi bu,
Qalxırdı, enirdi dağ yollarıyla.

İnsandı, şeytandı qovan bu köçü,
Harda itirmişdi karvan bu köçü,
Yamanlıq etmişdi ünvan bu köçü,
Ölüb-dirilirdi sağ yollarıyla.

Sıldırım bilmirdi, qaya bilmirdi.
Huşunu keşikçi qoya bilmirdi.
Ölürdü, ömrünə qıya bilmirdi,
Qalırdı kəfənə bağ yollarıyla.

Qarğışdan, nalədən tutqundu göy də,
Niyə hikkəsini udqundu göy də?!
Gurladı, olmaya, satqındı göy də
Yağmuru dolusu ox yollarıyla?!

Bu köç bir millətin yarası idi,
Qocası, cavanı, qarısı idi...
Qaçan ürəyinin parası idi,
Parası qalmışdı haqq yollarıyla.

Bir elat qaçqındı, bir el qaçırdı,
Gücündə aldanmış bir sel qaçırdı.
Zülmün zirvəsindən bir yol qaçırdı,
Qaçırdı səmanın ağ yollarıyla.

# VALİDƏ HÜSEYNOVA

*1941-ci ildə Naxçıvanın Qaraxanbəyli kəndində anadan olmuşdur. Orada orta məktəbi bitirdikdən sonra, ali məktəbə daxil olmuşdur. Naxçıvanda bir sıra məsul vəzifələrdə çalışıb. "Ana laylası", "Sənsiz olmasın" şeir kitablarının müəllifidir. 1978-ci ildə vəfat edib.*

## HEÇ KİMSƏYƏ DEMƏYİN

Gəldim sizlə görüşməyə,
Salxım söyüd, qoca çinar.
Gəldim mənə danışasız
Buralarda təzə nə var?

Tək gəlmişəm, belə olub,
Tək gəlmişəm bura bu gün.
Səbəbini soruşmayın:
Belə olub axı, neçün?

Dedim, bəlkə, ilk məhəbbət
Burda sizə ilişibdir.
Gəldim görəm kölgənizə
Neçə yeni iz düşübdür.

Ürəyimdə izi vardır,
Burdakı hər cansız daşın.
Əvvəllərdə olduğutək
Nolar, yenə pıçıldaşın...

Hər xatirə yarpaq-yarpaq
Xəyalıma qalanıbdır.
Ötən günlər yarpaq-yarpaq
Yaşlarıma calanıbdır...

Bax, beləcə pıçıldaşaq,
Gələcəyəm, gedim daha.
Sizə açdım ürəyimi,
Siz kimsəyə deməyin ha!..

## ƏGƏR BU DÜNYADA SƏN OLMASAYDIN

Üfüqlər al geyib üzə güləndə,
Beləcə duraraq saatlarla mən
Baxıb səmaların mavi köksünə
Yenəmi xəyala dalardım görən,
Əgər bu dünyada sən olmasaydın...

Anlaya bilmirəm axı o zaman
Necə dolanardım, necə yaşardım.
Göz yaşı axdıqca yanaqlarımdan
Kimin xəyalıyla pıçıldaşardım
Əgər bu dünyada sən olmasaydın...

Sənsiz dərdlərimi sənə demişəm
Xəyalən sığınıb geniş köksünə.
Min ağrı duymuşam, min qəm yemişəm,
Bunlar güc gələrdi təklikdə mənə
Əgər bu dünyada sən olmasaydın...

# ELMİRA QASIMOVA

*1942-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. Burada 2 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Xarici Dillər İnstitutunun alman dili fakültəsində təhsil almışdır. Şeirləri rus və bolqar mətbuatında çap olunmuşdur. "Sevdalı könül" (1973), "Axtar məni" (1979), "Zəriflik" (1985) kitablarının müəllifidir.*

**YETKİN MƏHƏBBƏT**

Biz ki ayrı yaranmışıq əzəldən,
Niyə doldu qəlbimizə bu sevda.
Keçdiyimiz ömür yolu bir nağıl,
O nağıldan olmaz daha dünyada.

Biz günlərin, biz ayların əsiri,
Günlər kimə, aylar kimə qaldı bəs?
Şimşək idin, bir anlığa parladın,
Sənsiz yoxam, nə arzuyam, nə həvəs.

İstəsək də, daha dönməz o günlər,
O günlərin həsrətində yanmışıq.
Bəlkə elə eyni anda, saatda
Yada salıb, o günləri anmışıq.

Yaxşı, yaman nə qaldısa bizimdi,
O telefon məftilləri nə deyər?
Səhərəcən danışardıq, doymazdıq,
Görən, ömrün o illəri nə deyər?

Bir kimsəyə daha baxa bilmərəm,
Od-ocağa yaş kösövü atmayaq.
Bu sevdanı, bu soyumaz atəşi,
Gəl ötərgi həvəslərə qatmayaq.

Qovuşmarıq, ömür boyu yanarıq,
Bir gümanın işartısı təsəlli.
Xəyalınla danışmaqdan doymaram,
Həsrət məni yaxalayar yüzəlli.

Xəyalımda, ürəyimdə yaşarsan,
Gözlərimdə yandırdığın nur sönməz.
Bir nağıla çevrilmişik, əzizim,
Bu nağılın sonu bitib-tükənməz.

## KÖNLÜM

Dözüb hər möhnətə, dözüb cəfaya,
Çox ürək dostunu sınadı könlüm.
Əhdə, sədaqətə sirdaş ürəyə,
Balaya qol açan anadı könlüm.

Bir sevda oduna alışıb, yandı,
Ondan ilham alıb, hey qanadlandı.
Axır unuduldu, oda qalandı,
Möhnət bəlasından qanadı könlüm.

Qəlbimdə bir nisgil yuva salıbdır,
Arzu, istəyimi de, kim alıbdır?
Yenə ürəyimdə o dost qalıbdır,
Çox da desəm, unut o adı, könlüm!

Dost dosta əzəldən yar olsun gərək,
Baxıram yollara təkəm, burda tək.
Məndən üz döndərdi o nazlı mələk,
Bəs neyçün buraxmır inadı könlüm?

# KAMİLƏ NEMƏT

*1942-ci ildə Bakı şəhərində anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra BDU-nun filologiya fakültəsində təhsil almışdır. Bədii yaradıcılığa "Azərbaycan" jurnalında çıxan "Yun corab" adlı ilk mətbu şeirlə başlamışdır. Həmin vaxtdan dövri mətbuatda müntəzəm çap olunmuşdur.*

*2002-ci ildə vəfat etmişdir.*

## ZİRVƏLƏRİN SÖHBƏTİ

Başının çalması duman, buluddan
Bu gələn baharın ayaq səsidir.
Hər daşın dibində kövrək bənövşə
Yazın sədasıdır, yaz nəfəsidir.

Bənövşə rəngi var çöldə, çayırda
Gözlərdə bənövşə, saçlar bənövşə.
Bir büsat, təmtəraq var ki bayırda
Baharla görüşə, yazla görüşə.

Bahar hanasını qurmuş çöllərdə,
Arğacı köklərdir, ilməsi güllər;
Neməti əllərdə, sözü dillərdə
Süfrəsi insana təbəssüm dilər.

Bahar təbiətin gənclik yaşıdır,
Qanında qaynayır məğrurluq, qürur.
Hər yanda dil açıb sevinc danışır,
Dağlar xonça tutub zəriflik qurur.

Zəriflik dağ aşır, çaylar bənd aşır,
Gül gülə qarışır, çiçək çiçəyə.
Bu gün hər tərəfdə sevinc danışır
Qış öz gedişində məst olsun deyə.

Gözəllik önündə şaxta şeh olur,
Çöllərin boynuna mirvari düzür.
Piyalə çiçəklər boşalır, dolur,
Külək zirvələrdə dönür nəğməyə,
Baharı mahnıya qərq etsin deyə.

**ÜNVANSIZAM**

Ünvansızam, ünvansız,
Evim dünyadır mənim.
Döşəməsiz, tavansız,
Azad dünyamdır mənim.

Ayağım torpaqdadır,
Əlim Günəşdə, Ayda.
Zəhmətim bir çağdadır, –
Bayramı özü boyda.

Nə bir sərhəd bilirəm,
Nə tikanlı məftillər.
Yer üzündən silirəm
Sizi, a qanlı illər!

Deyirəm nağıl olum
Hər ömrə şadlıq yazım.
Azadlığın içində
Elə ünvansız azım.

Yaşayıram, izim var,
Fəsillərdə, aylarda.
Ədalət zəfər çalar
Görünərəmsə harda.

Çevrilərəm həyatın
Ən şirin nəğməsinə.
Səpələnmiş ünvanım
Bütün Yer kürəsinə.

## HARA GEDİRSƏNSƏ...

Yenə yan keçirsən dinməz, söyləməz,
Çöküb aramıza dəli bir sükut.
Gördüyün işlər də ağıla gəlməz
Nə desəm, deyirsən "bunları unut".

Bir kiçik ərkimə dözən deyilsən
Söylə nəyə gərək bu kobudluğun.
Kişi kobud olmaz, sərt olar, bilsən
Sözü bütöv olar, söhbəti dolğun.

Sırsıra bağlayıb sözün, söhbətin,
Hicran aramızda qılınc kimidir.
Mənim öz-özümə olan hörmətim
Bəlkə də qəlbimin gizli qəmidir.

Ömür bircə dəfə verilir bizə,
Onu bircə vermə bəhanələrə.
Deyirsən neyləsəm sən vurma üzə,
Axı, necə dözüm min dərdi-sərə.

Min sevgi qalası uçar, dağılar
Arzuya toz qonsa, bil ki, ömürlük.
Eybi yox, ömrümdə qəmin iz salar,
Hara gedirsənsə, get, birdəfəlik.

# RƏFİQƏ NURAY

*1942-ci ildə Xaçmaz rayonunda anadan olub. Bakıdakı 49 saylı orta məktəbi bitirib. İki il BDU-nun jurnalistika fakültəsində oxuduqdan sonra Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunda təhsilini davam etdirib. İnstitutu bitirdikdən sonra "Ədəbiyyat və incəsənət" qəzetində ədəbi işçi kimi çalışıb.*

*1971-1992-ci illərdə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında məsul katib, dublyaj şöbəsində böyük redaktor vəzifələrində işləyib.*

*"Səninlə birlikdə" (1963), "Sahildə" (1973), "Əsrin qadını" (2004) şeir kitabları çap olunub.*

## SÖYÜD

Aman söyüd, can söyüd,
Halı pərişan söyüd.
Sökülüb düymələrin,
Açılıb yaxan, söyüd...

Zərif ipək donunu,
Küləklər soyundurub.
Salxım hörüklərini,
Şaxta, ayaz dondurub.

Gəzibdir varlığında,
Təbiətin sərt əli,
Burda yalqız qoyublar,
Sənin kimi gözəli...

Demə ki, geyinmişəm,
İsti xəz içindəyəm.
Ürəyimdə kədər, qəm
Mən də sənin gündəyəm...

Səni soyuq küləklər,
Məni hicran üşüdür...
Əlimizdən nə gələr,
Bu taleyin işidir,
Bu taleyin işidir!..

## HEÇ BİLİRSƏN

Heç bilirsən mən kiməm,
Heç bilirsən mən nəyəm?
Sərvəti şeir olan,
Zəngin bir xəzinəyəm.

Bir zərif duyğu üçün,
Boynu bükük gəzmişəm...
Bir misranın nazına
İllər boyu dözmüşəm.

Bir ömür yaşatmışam,
Vüsala həsrətimi...
Aləmə sirli qalan,
Gizli məhəbbətimi...

İradəmlə qırmışam,
Hicranın əl-qolunu...
Hələ də gözləyirəm,
Səadətin yolunu...

Məndə məni yaşadan
İnamla dözüm olub,
Nə özgə qismətində,
Nə yadda gözüm olub.

Qəlbimi alışdırın,
Söz altında köz olub...
Eşqimə ömrüm boyu,
Hədiyyəm də söz olub...

Heç bilirsən mən kiməm,
Heç bilirsən mən nəyəm?..
Bir yumruq çaxmaq daşı,
Bir zərif bənövşəyəm!..

## KÖRPÜLƏR

*Unudulmaz Şamama xanım*
*Ələsgərovanın əziz xatirəsinə*

“Deyin-gülün övladlarım,
Mən sizinlə bəxtiyaram.
Nə qədər ki, siz varsınız, –
Bu həyatda mən də varam”.

*S.Vurğun*

Övlad körpüləri saldı evlərə,
Bir şəhər “nəvəsi-nəticəsi” var,
Ömrü yaşamadı o əbəs yerə,
Yaradan-yaşadan əbədi yaşar.

Özü də qocaman bir körpü oldu,
Qəlblərdə məhəbbət qoyub getdi o.
Körpə fidanların gözləri, doldu,
Kim deyir onlardan doyub getdi o?..

Yumdu gözlərini nərgizlər kimi,
Üzümdə məsum bir təbəssüm dondu.
Ruhu şəfəq saçan al səhər kimi,
Bəmbəyaz sirli bir aləmə qondu...

Dünyanın qəribə qanunları var,
Sevinclə, kədər də qoşalaşarmış...
Biri bu həyata, ilk qədəm atar,
Digəri həyatla vidalaşarmış...

Nə qədər körpələr gəlir dünyaya, –
Həsrətli qəlblərdən qəm-kədər gedir,
Nə qədər körpülər gəlir dünyaya,
Dünyadan nə qədər körpülər gedir?!

## BİGANƏ KÖNLÜM...

Soyuyur ürəyim havalar kimi,
Əsən külək kimi, yağan qar kimi,
Narahat deyilsə sözü var kimi,
Deməli, qəlbimin donan vaxtıdır.

Payız xəzəl səpdi ömür bağıma,
Qovuşdum ömrümün xəzan çağına,
Saçımın qapqara şəvə tağına,
Bəyaz cığırların qonan vaxtıdır.

Dünyanın yükündən yorulan ürək,
Bir az rahatlanıb dincələ gərək,
Məhəbbət oduna yanmırsa, demək,
Biganə könlümün viran vaxtıdır...

# ROZA QARABAĞLI

*1942-ci ildə Ağdam şəhərində anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra ADPU-da təhsilini davam etdirmişdir. Ədəbi fəaliyyətə 70-ci illərdən başlamışdır. "Pərvanənin yerinə" (1989) və "Söz dəryadır" (1998) şeirlər toplusu nəşr olunmuşdur.*

*2001-ci ildə dünyasını dəyişmişdir.*

**KÖNLÜMÜN**

Təbiət qoynunda yüz xalı hörsə,
Özgədir ahəngi, halı könlümün.
Oxusa bülbülü, ötsə tutisi,
Heç olarmı qeylü-qallı könlümün.

Dəysə bir gözəlin nəfəsi gülə,
Yüz meydan açılar şeyda bülbülə,
Könüllər şövq ilə gələndə dilə,
Açılmazmı cah-calalı könlümün.

Xumar gözlərində yatan uyğumu?
Köksündə çağlayan bulaq duyğumu?
Gözümdən qaçıran şirin yuxumu,
Yalan olub min sualı könlümün.

**GƏTİR**

Gül-çiçəkdən çələng hörüb dağ-dərə,
Göy çəməndən bircə lalə üz, gətir.
Al günəşin badəsidir lalələr,
Sübh şehini badələrə süz, gətir!

Al günəşmi şəfəq saçan üzün tək!
Göz görmədim gözəl ola gözün tək.
Həsrətinlə üşüyəndə özün tək,
Baxışında bircə çınqı köz gətir.

Bir ah çəksəm qurumazmı qovaqlar?
Bulud enər, ay üzünü duvaqlar...
Göz itirsə, könül səni soraqlar,
Dodağında şirin-şəkər söz gətir!

## GÖYNƏRƏM

Sən dağ aşdın, mən dolandım aranı,
Arpa çayı yaman kəsdi aranı.
Xançobanım, de, neylədin Saranı?..
Düşdüm qəmin dəryasına neylərəm?

Gülüm, ömrün zirvəsində çənmisən?
Duman olub saçlarıma sinmisən.
Xəyal kimi göylərdənmi enmisən?
Mən sirrimi sənsiz sənə söylərəm.

Qarabağlı güman bir gün qayıda,
Bu kədəri yel apara, çay uda!
Yanğımızı vüsal dəmi soyuda,
Bəlkə onda ürək deməz göynərəm...

# MİNAYƏ ƏLİYEVA

*1943-cü ildə Sabirabad şəhərində anadan olmuşdur. Burada şəhər orta məktəbini bitirmişdir. BDU-nun filologiya fakültəsinin axşam şöbəsində təhsilini davam etdirmişdir. Bədii yaradıcılığa orta məktəbdə oxuyarkən başlamış, ilk şeirlərini də rayon qəzetində çap etdirmişdir. "İlk müəllim" (1968), "Son sevgi" (1990) və s. kitabları çap olunmuşdur.*

## BƏSDİR YATDIN MİSRİ QILINC KÖLGƏSİNDƏ

Gəl çağırma Cavanşiri,
Gəl çağırma Koroğlunu.
Nə Babəklə, nə Nəbiylə
Hədələmə sən yağını.
Kişisənsə, çırmalayıb öz qolunu
Özün qoru öz haqqını.
Nə vaxtadək
Misri qılınc kölgəsində yatacaqsan?
Özün nə vaxt
haraylara çatacaqsan?
Nə vaxt sənin öz qılıncın olacaqdır
Koroğlunun qılıncından
Daha parlaq, daha iti.
Bundan ötrü
Koroğlunun ruhu səndən
küsməz qəti.
Bəs nə zaman düşmənimiz
Sənin adın çəkiləndə
diksinəcək, xoflanacaq?
Dünənindən bu gününə
Misri qılınc qalıb, qardaş!
Bu günündən sabahına
nə qalacaq?

## O ODU VAXTINDA SÖNDÜRMƏLİYDİK

Ah çəkib, od tutub yananda Kərəm,
Biz onda keşişi tanımalıydıq.
Köküdən, soyundan ayrı düşəni
Vaxtında, vaxtında qınamalıydıq.

Biz isə Kərəmə qibtə elədik,
Kərəm cığırını yola çevirdik.
Baxmadıq arada bitən tikana,
Nə qədər cavanı güdaza verdik.

Qarıyıb qaldılar öz qızlarımız,
Onların günahı axı nəydi ki?
Həsrətdən saralan o çiçəklərin,
Əslidən nələri əskik idi ki?

"Yanıq Kərəmi"nin fəryadları da,
Qaytara bilmədi bu yoldan bizi.
Yeni keşişlərin yeni fitvası,
Yenə də açmadı gözlərimizi.

Vaxtında o oddan qorumalıydı,
Atalar, analar övladlarını,
Vaxtında, vaxtında eşitməliydik,
"Yanıq Kərəmi"nin fəryadlarını.

## GÖRƏNDƏ Kİ QARTAL QOLU BAĞLANIR...

İşıqsız göz, əlacsız dərd görəndə,
Qara saçı gəlinlər ağ hörəndə,
Ölüm gəlib tər çiçəyi dərəndə
İstəsəniz qəm qəlbimi sökməyə –
Segah çalın, segah çatır köməyə.

Segah çalın özü itən bulağa,
Segah çalın gözü itən ocağa.
Ancaq segah məlhəm olmaz hər dağa
Yer var, segah, gəl incimə, dur yana.

Arxalanıb arxasında durana
Təpə dağı üstələsə, nə segah?
Qara ağı üstələsə, nə segah?
İstəsəniz qəm qəlbləri sökməyə,
Cəngi çalın, cəngi çatar köməyə.

Görəndə ki qartal qolu bağlanır,
Bir sərçənin əli ilə oxlanır.
Çıraq deyir: günəş məndən od alır.
Segah çatmaz, segah çatmaz köməyə,
İstəsəniz qəm qəlbləri sökməyə –
Cəngi çalın, cəngi çatar köməyə.

## OLACAQMI ELƏ TABUT, QOYAQ TORPAĞI?

Bu torpağa tapşırırıq
Əzizləri –
Qönçələri, dirəkləri.
Bu torpağa tapşırırıq
Arzu dolu ürəkləri.
Torpaq özü layla çalıb
Ovundurur
Anasından ayrı düşən körpələri.
Saxlayıbdır öz köksündə
Gör kimləri,
Gör nələri?
Dünya boyda bir gözələ
Can verən o.
İnsan adlı balasına

Su verən o,
Dən verən o.
Bu torpağı
Çiçək-çiçək güldürən də
Bu balalar.
Öz nəfsinə qurban edib
Zəhərləyən,
Zərrə-zərrə öldürən də
Bu balalar.
Ana torpaq!
Mərd balalar köməyinə yetişməsə,
Namərd övlad əllərilə öləcəksən...
Dünyamıza
Yuxularda gələcəksən,
Vaxt gələcək
Məhkəmə də olacaqdır.
Nankor balan
Cəzasını alacaqdır.
Ancaq silə bilməyəcək o məhkəmə
Ürəklərdən bir nisgili
Ana torpaq!
Olmayacaq elə tabut, qoyulasan,
Olmayacaq elə məzar,
Sığışasan ona, torpaq!

**SAAT**

Söylə, sinəndəki nöqtələr nədir?
Axı nə düşünüb səni düzəldən?
Deyir ömrümüzün sonu nöqtədir?
Bu ki bəlli idi bizə əzəldən.

Nə fərman bilirsən, nə də ki xahiş,
Bir an azaltmırsan öz sürətini.
İstər qızıl geyin, istərsə gümüş,
Yenə dəyişmirsən təbiətini.

Nə qədər mənalar gizlənib səndə,
Məchul sirlərində şerin gözü var.
Bircə rəqəmində, bircə nöqtəndə
Neçə yaranmamış şerin özü var.

İlk görüş vaxtı tək bir rəqəmində
Bəzən toy gizlənir, bəzən ayrılıq.
Görən sevənlərçün eşq aləmində
Varmı o rəqəm tək müqəddəs varlıq?

İmtahan vaxtımı göstərən rəqəm
Gözümdə suala, nidaya dönüb.
Bu bircə rəqəmə baxanda o dəm
Yuxum da qorxudan qaçıb gizlənib.

Sevinc də, qüssə də tapmışam səndə
Hər rəqəm könlümdə bir yadigardır.
Amma düşməninəm, çünki sinəndə
Mənim də ömrümün nöqtəsi vardır.

Gör necə böyükdür qüdrətin sənin,
Düzü, bu qüdrətə vurğunam yaman –
Sənə nifrət edən, sənin düşmənin
Səni öz qolunda gəzdirir hər an.

# RÜZGAR ƏFƏNDİYEVA

*1947-ci ildə Bərdə şəhərində anadan olmuşdur. Bədii yaradıcılığa orta məktəb illərində başlamışdır. Burada 3 saylı şəhər orta məktəbində təhsil almışdır. BDU-nun filologiya fakültəsində təhsilini davam etdirmişdir. İlk mətbu şeirləri də universitet qəzetində çıxmışdır. "Unuda bilməzsən"* (*1981*), *"Ulduzlar niyə yatmır"* (*1985*) *və s. kitabları çap olunmuşdur.*

## YAXAN DÜYMƏLƏ, DÜYMƏLƏ

Bir gecənin yaxasının,
Düyməsidi ulduzlar.
Yandırası yaxasıdı
Gecənin öz nazı var.

Ulduz axdı, dağlar baxdı,
Görəsən kim düşdü oda.
Uzaqlarda çaylar axdı
Qayalarda əks-səda:
Yaxan düymələ, düymələ.

Güllər düymədi bağlarda
Külək dərdi neçəsini.
Quşlar gəzir budaqlarda –
Bilmir gündüz-gecəsini.

Bağçalarda nə sevda var?
Alovludur hər çiçəyi.
Hələ təzə gəlib bahar,
Aman, düşər, gül, ləçəyin –
Yaxan düymələ, düymələ.

## DÜNYA NƏ GÖZƏLDİR

Göylər kirpiyimdən asılıb necə,
Elə bil, sinəmə qısılıb gecə.
İstəyim bürünüb nura, sevincə,
Dünya belə imiş görən həmişə?!
Dünya nə gözəldir, heç bilməmişəm!

Dağın zərifliyi çəməndə çiçək,
Körpə budaqlarda oyanır külək.
Sükut bir nəğmədir nigaran, titrək...
Bələndi duyğuma kövrək bənövşə,
Dünya nə gözəldir, heç bilməmişəm.

Qızaran çəmənin əli xınalı,
Buluddur dağların fikri, xəyalı.
Mən bura vurulub mehman qalalı –
Tütək axşamların payına düşə,
Dünya nə gözəldir, heç bilməmişəm.

Dağın dağ dözümü, dəyanəti var,
Şəlalə ömrümün öz vüsəti var!
Burda qayanın da məhəbbəti var,
Hansı buz bulağa əyilməmişəm?!
Dünya nə gözəldir, heç bilməmişəm!

Yağışla torpağa yağar gözəllik,
Baxmasan, heyrətlə baxar gözəllik.
Könlümü yandırıb-yaxar gözəllik,
Qoynunda sevinib, az gülməmişəm,
Dünya nə gözəldir, heç bilməmişəm.

## BİLSƏ

O qədər sənsizlik çəkmişəm ki mən,
Min il də görüşsək əvəzi çıxmaz.
O qədər boynumu bükmüşəm ki mən,
Bilsə bənövşələr çəmənə çıxmaz...

## AXTARMA MƏNİ

Gəzdiyin yerləri çox dolanmışam,
Eşqinin oduna gizli yanmışam.
Artıq bahar deyil, qarlı bir qışam,
Odlanıb yansan da, axtarma məni.

Çıxıram dağlara, ay gülüm, sənsiz,
Dağ da qəribsəyər dumansız, çənsiz.
Dolan bu dünyanı, get dolan mənsiz,
Peşman olsan da axtarma məni.

Sənsiz harda olsan səninləyəm mən,
Ətrini alıram güldən, çiçəkdən.
Surətin qəlbimdə, nəğmən dilimdə,
Özün yanımdasan axtarma məni.

## XARIBÜLBÜL

Sən ki gülə vurulmuşdun,
Yoxsa xardı yarın, bülbül?
Hicranında sovrulmuşdun,
Vüsal oldu barın, bülbül?

Bir saplaqda iki könül,
Biri xardı, biri bülbül.
Gözü yaşlı qalıbdı gül,
Budurmu ilqarın, bülbül?

Sükutunun fəryadında,
Alışırsan gül odunda,
Uçur kədər qanadında –
Tənhadı gülzarın, bülbül!

Susdun Qədirin səsində,
Ağlar qaldı həvəsin də.
Solma yadın nəfəsində,
Yetər sənə yarın, bülbül!

Şuşa indi sənə qəfəs,
Bu nə tale, nə kəsəkəs?
Görüşə yubansaq, əbəs,
Görməzsən Rüzgarı, bülbül,
Xarıbülbül, Xarıbülbül.

## QAYTAR EŞQİMİ

Tənə də, giley də yersizdir daha,
Qaytar o alışan, yanan eşqimi.
Sənin ki ürəyin buz bağlayıbdır,
Qaytar o üşüyən, donan eşqimi.
Mənim ürəyimdə dünyaya gəlib,
Sənin ürəyində sönən eşqimi.

## GECƏLƏR

Ömür-gündə qərq olduğum,
Qara ümmanım gecələr.
Bir gün dünyadan köçəndə,
Qərib ünvanım gecələr.

Yay gecəsi ulduzludu,
Yollar nəğməli, sözlüdü,
Mənimsə qəlbim buzludu,
Soyuq zindanım gecələr.

İllər aramızda divar...
Məni dərd, ya əcəl qovar.
Son günümə nə qədər var,
Ağlar dörd yanım gecələr.

# DİLARƏ AZAFLI

*Zeynalova Dilarə Azaflı qızı 1947-ci ildə Tovuz rayonunun Azaflı kəndində görkəmli aşıq Mikayıl Azaflının ailəsində dünyaya göz açıb. Burada orta məktəbi bitirdikdən sonra 1970-ci ildə Bakı Dövlət Universitetində təhsilini davam etdirmişdir. "Aşıq Pəri məclisi"nin yaradıcılarındandır. Ali dərəcəli müəllimədir. Azərbaycanın xalq maarif əlaçısıdır. "Aşıq Pəri məclisi və el şairləri", "Azərbaycan" poeziya toplularında şeirləri çap olunmuşdur.*

**HARA GEDİR BU DÜNYANIN AXIRI?**

Ağa qara, qaraya ağ deyənlər,
Düzə dərə, təpəyə dağ deyənlər,
Qanqallığa meyvəli bağ deyənlər,
Hara gedir bu dünyanın axırı?

Üşüyürəm dumanların altında,
Sular axır samanların altında.
Haqq-ədalət yalanların altında,
Hara gedir bu dünyanın axırı,

Həqiqətim yalan olub gözümdə,
Ağ ləkələr, dağ ləkələr üzündə,
Ceyran qaçmaz, lalə bitməz düzündə,
Hara gedir bu dünyanın axırı?

Ürəklərdə məhəbbəti qoruyaq,
Yeri, göyü, təbiəti qoruyaq.
İnsanları, ülviyyəti qoruyaq,
Hara gedir bu dünyanın axırı?

Dilarəyəm, yaralandım min dəfə,
Parçalandım, paralandım min dəfə,
Öz-özümdən aralandım min dəfə,
Hara gedir bu dünyanın axırı?

**GÖZLƏMƏK OLMUR**

Hər kəsdən dəyanət, vicdan, qeyrət, ar,
Məhəbbət, sədaqət gözləmək olmur.
Hər ağacdan meyvə, hər güldən ətir,
Hər vardan bərəkət gözləmək olmur.

Kimi çox qəribə ömür-gün sürür,
Kimi insanlığı, kimi var güdür.
Təbiət yaradıb hərəni bir cür,
Hər kəsdən səxavət gözləmək olmur.

Kimi nur paylayar bəşəriyyətə,
Kimi ağ gün dilər hər cəmiyyətə.
Kimi tələ qurar xalqa, millətə,
Hər kəsdən saf niyyət gözləmək olmur.

Sular axıdılır samanlar altda,
Həqiqət boğulur yalanlar altda,
Dağlar da görünmür dumanlar altda,
Hər "haq"dan həqiqət gözləmək olmur.

Azaflı qızıyam, Dilarə adım,
Haqdır, ədalətdir ilk sözüm, andım.
Elə arxalandım, elə inandım,
Ellərdən xəyanət gözləmək olmur.

## MƏNİM

Taleyin mənimlə oyununa bax,
Özümü özümə qaytardın mənim.
Dünyaya baxardım sənin gözünlə,
Gözümü özümə qaytardın mənim.

Gəl elə bilmə ki, məhv olacağam,
Zərif çiçək kimi tez solacağam.
Bulanıb-bulanıb durulacağam,
Dözümü özümə qaytardın mənim.

Sənsiz sənsizliklə dolanacağam,
Bu qəm paltarını soyunacağam.
Birtəhər dözəcək, ovunacağam,
Nazımı özümə qaytardın mənim.

Müqəddəs amalla yaşayacağam,
Bir həsrət yükünü daşıyacağam.
Daha taleyimlə barışacağam,
Sözümü özümə qaytardın mənim.

Dilarə, aldatma daha özünü,
Qopartma könlünün həsrət közünü.
Ömrün payızında səbri, dözümü,
Sazımı özümə qaytardın mənim.

## QOYMAYIN

*Vətənin müdafiəsində duran oğullara*

Vətən torpağından, a qartallarım,
Düşmən bir qarış da ala, qoymayın!
Dağıdın, çığnayın daşnak yuvasın,
Bir də çıxartmağa bala, qoymayın!

Qeyrət meydanıdır, ər igidlərim,
Dar gündə bilinər nər igidlərim,
Tanrı olsun sizə yar igidlərim,
Ümid çiçəyimi sola, qoymayın.

Müqəddəs arzum var, zəfər günündə,
Qurban kəsəcəyəm Cıdır düzündə,
Həsrətdən, qubardan ana gözündə,
Bircə damla yaş da ola, qoymayın!

Yetişsin ellərə Qələbə səsi,
Müqəddəsdi "Ana", "Vətən" kəlməsi,
Sizi çaşdırmasın düşmən hiyləsi,
İlandı, əqrəbdi, çala, qoymayın!

Sizə göz dikibdir Azərbaycanım,
Başınıza dönüm, qadanız alım,
Dilarəyəm, necə dözüm, dayanım,
Qisas qiyamətə qala, qoymayın!

## AY BABA

*Qoca qartala*

Qoca qartal məclisinə el gəlib,
Saz-söz üçün darıxmışıq, ay baba.
Yağış yağıb, çaylar daşıb, sel gəlib,
Saz-söz üçün darıxmışıq, ay baba.

Qoca qartal, dilə gətir sazını,
Tərif elə Vətənimin yazını.
İmtahan et mərd oğlunu, qızını,
Saz-söz üçün darıxmışıq, ay baba.

Qoca qartal zirvələrdən enməsin,
Qoy tutduğu haqq yolundan dönməsin,
Arzuları alovlansın, sönməsin.
Saz-söz üçün darıxmışıq, ay baba.

Qoca qartal, "Dübeyti"nə bələdik,
Həm zilinə, həm bəminə bələdik.
Sevincinə, dərd-qəminə bələdik,
Saz-söz üçün darıxmışıq, ay baba.

Qoca qartal, "Dağlar"ına güvəndim,
"Azaflının dünyası"na bələndim.
Dilarəyəm, Kür, Araza çiləndim,
Saz-söz üçün darıxmışıq, ay baba.

## HAQQ-ƏDALƏT ÇIRAĞINDA

Hayıf, ömrüm-günüm keçdi,
Əzabların qucağında.
Şaxta döydü, tufan əzdi,
Öz evimdə, ocağımda.

Dilim susdu, könlüm dindi,
Dərd anlamaz gendə sindi,
Bu nə qubar, bu nə çəndi,
Ürəyimin bucağında.

Zirvələrə qonacağam,
Elə bilmə donacağam.
Dilarətək yanacağam,
Haqq-ədalət çırağında.

# SƏHƏR (HƏMİDƏ RƏİSZADƏ)

*1953-cü ildə Güney Azərbaycanının Ərdəbil şəhərində dünyaya gəlmişdir. Farsca və azəri türkcəsiylə yazdığı şeirlərlə məşhurlaşmışdır. Hal-hazırda Tehranda yaşayır. Dövri mətbuatda şeirləri nəşr olunur. Bir neçə kitabın müəllifidir. Şeirlərində dövr və zamanədən coşqun etiraz hissi özünü göstərir.*

## SARMAŞIQLAR

Sarmaşıqlar ucalarkən deyirəm yar gəlir,
Yenə dünya geyimi duyğulara dar gəlir.

Yenə həsrət budağı kölgə salmır günəşə
Yenə hicran tükənir, fürsəti-dildar gəlir.

Saçdı yel dalğaları gül nəfəsin yol düzünə,
Muştuluq verdi ürək titrəyi, dildar gəlir.

Özlüyündən üzüb əl, düzdü baxış yollara göz
Söz dolaşmış dilimə, söylədi: – Sus! Yar gəlir.

Varlığım ayrılıq ahıyla talanmışdı, Səhər,
Yoxluq əyyamı bitir, olmağıma var gəlir.

## QURTARIŞ

Gəlirəm qanda qalan qəlbimi qəmdən alasan,
Gəlirəm mən qurtaram səndə, fəqət sən qalasan.
Saz kimi tellərimin mahnısı mizrab diləyir,
Nola gizlin alasan qoynuna, gizlin çalasan.

## ADSIZ

Haq söyləyərək, qanla gərək qandalın açdım,
Qaçdım günəşə doğru, dözüm döngəsin aşdım.
Gəldim yanar olmaqlığa düzlük ocağında,
Uçdum yuva salmaqlığa özlük bucağında.
Vay, vay belə özlük nə yaman özgəlik oldu,
Düzlük dilinə yalxı yalanlar eylik oldu.
Ey vay mənə, od tək niyə daldım dağa sığdım,
Ulduz bulağından axaraq torpağa sığdım.
Xiffət papağın başlarına gündə qoyanlar,
Hər ləhzə bir alçaqlığa, bir rəngə uyanlar,
Qorxaqlıq əlifbasını tədris eləyənlər,
Bir zərrəcə şöhrət dalısınca dilənənlər,
Dan ulduzunu danmağa gözsüz yaşayanlar,
Haq söyləyən insanları bədnam eləyənlər,
Düz yol deyən aslanlara divanə deyənlər,
Qışlar qarını yaz deyərək ortaya qatdız,
Bayquş nəfəsiylə gecəni şərqə calatdız.
Dünyada qanı qatıq qabaqcıl olmaz,
Qat-qat əyilən qarşıya kölgə sala bilməz.
Fikriylə gələn nəslə həqarət daşıyan, sus!
Dilsiz danışıb, kar eşidib, kor yaşayan, sus!
Haq gizlənir, ancaq gözəl avazəsi itməz,
Sarsaqlama artıq, Səhər əfsanəsi bitməz.
Yelkən yelə qatmış gəmi dəryalara sığmaz
Övladi-Nəsimi belə dünyalara sığmaz.

***

Çoxlu zamandır gedibsən,
Ya mən
Ayrılmışam səndən.
Küskünlüyə bənzər divar dalısında
Gizlətmişik sevdamızı.
Sən bir başqa istəklərə

Yaşayırsan,
Mən pırtlaşıq diləklərin dalğasında
Özümü unutmaq havasın
Dinləyirəm
Sənliklərin.
Xatirələr təngəsində dolananda
Yuxulardan vaz keçərkən göz yumuram.
Keçmişləri unutmağa.
Keçmiş nədir?
Hər zaman ki
Əl qaldırıb ürəyindən
Divar boylu küskünlüyü
Silə bilsən,
Görərsən ki,
Bir sevdalıq "mən" yaşayır
Sənin keçmiş varlığında.
Görərsən ki,
Məndən bir az səndə qalıb
Mən səndəyəm.

## AĞLAYA BİLSƏYDİM

Dayanmağa divar,
nəfəs çəkməyə az-çox hava,
Alışdırmağa sığar,
Sinəmin dərdin bitirməyə dava var.
Bunlar deyil dərdim.
Günəş yerinə ulduzlarla kifayət eyləyə bilərdim,
Başımı çiyninə qoyub
Ağlaya bilsəydim.

***

Varlığım dağlarda çənə bənzəyir,
Gözlərim telində dənə bənzəyir,
Qürbət pəncəsində boğulan axşam,
Həsrətə, nisgilə, mənə bənzəyir.

# FƏRİDƏ LƏMAN

*1953-cü ildə Qazax rayonunun Gəcvəlli kəndində anadan olub. Kəmərli kənd orta məktəbini bitirdikdən sonra ADPU-nun Azərbaycan dili və ədəbiyyatı fakültəsində təhsil almışdır. Bədii yaradıcılığa 80-ci illərdən başlamışdır. "Tale adlı yazı varmış"* (*1991*)*, "Suya danışılan yuxu"* (*1994*) *və s. kitabların müəllifidir.*

**BU YURD AZƏRBAYCANDIR**

Ey dost, ayaq saxla, tanış ol,
Bu yurd Azərbaycandır –
Onun adı Candır,
Damarımda qandır.
Qədim Qobustandır,
Savalandı, Şahdağı,
Başı qarlı Qoşqardı.
Göylərdən Araza ələnən
Göy yaşıdı.
Düşmənə baş daşıdı.
Başı bəlalar çəkib,
Çiyni şələlər çəkib.
Qılınclar yüyrəyib beşiyini,
Yağılar çəkib keşiyini.
Güllələr çalıb laylasını,
Dağıdıblar oylasını.
Köksünü süngüylə oyublar,
Balalarını yetim qoyublar.
Pərən-pərən salıblar
Oğlunu, qızını.
Zəhərləyiblər çölünü, düzünü,
Oğurlayıblar ocağından közünü.
Sinəsində yüz illərin dağı qalıb.
Nənələrdən bayatılar,
Ağı qalıb.

***

Yola çıxıb ağlaram,
Kiprik sıxıb ağlaram.
Sinəmdə həsrət dağı,
Dağa baxıb ağlaram.

Aylar gəldi il oldu,
Ocaq yandı kül oldu.
O tay-bu tay deməkdən,
Qara-qabar dil oldu.

Sular durulmaz, axar,
Sabah xəbərsiz açar.
Gözlədiyim o günün
Günəşi haçan saçar?!

Dayan, dostum, qulaq as,
Qəlbimdəki kilidi
Uzat, əllərinlə aç.
Gedib Şuşam, Laçınım,
Gedib canımdan canım.
Gedibdi Kəlbəcərim,
Füzulim, Cəbrayılım,
Boyundan həmayılım.
Xocalım qan gölüdür,
Ağdam qara yazımdı,
Qan ağlayan sazımdı.
Dostum, dinlə sən məni,
Qoy ürəyim boşalsın.
Gözlərimin yaşından
Bulud enib yaş alsın.
Burda analar var ki,
Neçə oğul basdırıb.
Burda gəlinlər var ki,
Saçlarımdan asılıb.
Neçə nişanlı qızlar,

Qara geyib, yas saxlar.
Baş əyib məzarlara,
Sevgisinin ətrini
Qara torpaqdan qoxlar.
Oğulların ölümü
Belimizi əyibdi.
Haqsız atılan daşlar
Qəlbimizə dəyibdi.
Dərddən hörgü hörsək də,
Faciələr görsək də
Bərkiyib iradəmiz,
Bir az da sərt olmuşuq.
Dərdimizlə yenə də
Döyüşkən, mərd olmuşuq.
Ağlasaq da gülmüşük,
Öləndə də torpağın
Yolunda biz ölmüşük.
Dərdi gizli çəkmişik,
Sevincinsə hər zaman
Dostlar ilə bölüşmüşük.

...Bu yurd inam yurdudur,
Bu yurd Allah yurdudur!
Bu yurd Azərbaycandır,
Onun adı Candır –
Bu yurd Azərbaycandır.

# SON SÖZ

Qadın anlayışı Şərq aləmində "Şərq qadını" məcmuəsinin yazdığı kimi, "bir od olmuşdur ki, ona əl vurmaq – barıta əl vurmaq kimi xatalı hesab" edilmişdir.

Azərbaycanda islam dininin yayılmasından başlamış ötən əsrin əvvəllərinə kimi, yalnız ictimai həyatda deyil, evdə, ailədə belə, qadının rolu adi bir quldan, kölədən artıq deyildi. Qız doğulması ailə üçün bədbəxtlik hesab olunurdu, çünki "qız yükü – duz yükü" , "qız özgə çırağı yandırırdı", "un çuvalına tay olub evdə qalırdı", "qız qazanc gətirmir; qazanc itirirdi", "saçı uzun, ağlı gödək idi". Buna görə də Qızbəs, Bəsti, Qızyetər, Qıztamam, Qızqayıt, Yetər, Tamam, Osandıq, Oğlangərək kimi adlar qoymaq, çox qız doğulan ailələrdə adət olmuşdu. Hətta ailə başçısı öz ömür yoldaşını adı ilə çağırmağa utanır, yalnız başqalarının yanında deyil, dar ailə çərçivəsində belə onu "aya, ay adam" deyə səsləyər, "uşaqların anası, övrət, külfət, ev adamı" və s. adlandırırdı. Qadına yalnız öz fərdi deyil, mənliyi belə unutdurulur, ata evində ixtiyarı atasında və ya qardaşında, ər evinə getdikdən sonra isə ərinə çatırdı. Onun "mən" kəlməsilə, doğulduğu gündən əlaqəsi kəsilirdi, onun əvəzinə düşünür, onun əvəzinə qərarlaşdırır, rəyini soruşmadan nişanlayır, ərə verirdilər. İkinci hökmdarın – ərin evində özünü necə aparmaq qaydaları da müəyyənləşdirilmişdi: onun üçün "Ər bir, Allah da bir" idi (evdə bir neçə günü varkən), "ər başının sahibi" idi. "Ər evi – gor evi" idi; "El yığılıb bir dama təpmiş, elə də yığılıb gora aparacaqdı". Xüsusi mülkiyyətçiliyin hökmran olduğu bu cəmiyyətdə hər bir şeyin, malın sahibi olduğu kimi qadının da "sahibi" vardı, ona "filankəsin qızı", "filankəsin arvadı" və ya anası deyirdilər. Bütün bu cəmiyyət normalarını qanuniləşdirən, çoxarvadlılıq, siğə kimi amansız adətlərin meydana gəlməsi və mühafizə olunmasında, dərin kök salmasında əsas rolu ruhanilər oynayırdı. Qıza – qadına ev işləri görmək, namaz və oruc qaydaları, ərə və onun qohumlarına ağzı bağlı qul kimi itaət (buna görə də analar ər evinə köçürülən qızın cibinə daş qoyar və deyərdi: "bu daş dillənəndə, sən də dillən") öyrədilir, başqa heç bir şey təlim olunmurdu. Əksinə, elm və maarifə olan həvəsini öldürmək üçün qadına yazmaq yasaq edilir, tutduğu qələmin o dünyada od olub

barmaqlarını yandıracağı, xətlərin ilana çevrilib bədəninə dolanacağı ilə qorxudulur, təhdid edilirdi.

Bu "fəlsəfənin" nəticəsində yaranan qanun, ictimai tərbiyənin, xüsusilə, qız-qadın tərbiyəsinin poetik ifadəsini Füzuli, Leylinin anasının dililə canlandırmışdır:

*Gözdən gərək olasan nəhan sən*
*Ta demək ola sənə ki, cansan...*

*...Oğlan əcəb olmaz olsa aşiq!*
*Aşiqlik işi qıza nə layiq?..*

*Minbəd gəl eylə tərki-məktəb,*
*Bil əbcədini həmin cədü əb.*

*Etmə qələm ilə məşqdən yad,*
*Suzən tutü nəqş eylə bünyad.*

Elə buna görədir ki, qadın azadlığı sahəsində ən çox çalışan ədib Cəlil Məmmədquluzadə 1924-cü ildə "Şərq qadını" məcmuəsinin birilliyi münasibətilə yazdığı "Köhnə dərdim" adlı məqaləsində deyirdi: "...Şərq qadınını azad etmək. Nədən? Şəriətin kəməndindən, müsəlmançılığın zəncirindən, hərəmxanaların zindanından, qara çadirşəbin zülmətindən". Cəlil Məmmədquluzadə qadının ictimai həyatda özünə ləyaqətli mövqe tuta biləcəyinə dərindən inanmış, ona tərbiyə verməyi, onu işıqlı dünyaya çıxarmağı tələb etmişdir. N.Q.Çernışevski yazırdı: "...Qadın təbiətən nə qədər sadiq, güclü, zəkalı olmuşdur; lakin cəmiyyət bu zəkadan istifadə etmir, onu rədd edir, onu sıxışdırır, onu boğur, halbuki bu zəka rədd edilməsəydi, əzilməsəydi, fəaliyyət göstərsəydi, bəşər tarixi on qat artıq sürətlə inkişaf edərdi".

Azərbaycan ziyalılarından Rəşid bəy Əfəndiyev yazırdı ki, qadınları heyvan kimi, qul kimi tərbiyə və elmdən bibəhrə saxlamaq, gələcək nəsli də fəlakətə sürükləyir: "...təcrübə ilə isbata yetişmişdir ki, hər bir millətin və hər bir tayfanın səadəti və xoşbəxtliyi arvadların dərəceyi-elmiyyəsindən asılıdır".

Qeyd etmək lazımdır ki, klassik poeziyamızda qadın məsələsi həmişə mütərəqqi cəhətdən həll olunmuş, qadın azadlığı, onun təlim-

tərbiyədəki rolu düzgün qiymətləndirilmiş, ədəbi əsərlərin çoxu məhz qadın probleminə həsr edilmişdir. Qadın zəkasının qüdrətinə dərindən inanan və bu zəkanı səhnədə canlandıran, M.F.Axundzadənin yaratdığı qadın surətlərindən bəhs edərkən Cəlil Məmmədquluzadə deyirdi: "Qara pərdə dalından dünyanın işığına bunları çıxarıb göstərməkdə Mirzə Fətəli bunu kişilərə demək istəyir. Bax, bu gözəl və qoçaq qadınlar – indi avam və nadan bir insandırlar. Görürəm ki, indi siz bunlara dərs və tərbiyə verməkdən ehtiyat edirsiniz. Çünki bilirsiniz ki, bu zəkalı və qeyrətli qadınlar gələcəkdəki inqilabın sayəsində almış olduqları tərbiyə və elmin təsiri altında öz azadlıqlarını əldə edib və ondan sonra dəxi sizin ailə içərisində ağalığınıza və səfalətinizə imkan qalmayacaqdır, zira ki, dəxi insanlıq hüququndan agah olan bu qadınlar, şəriətin çomağını dəxi siz kişilərin əlindən alıb həmişəlik tullayacaqlar".

Lakin elə o vaxtlar Azərbaycanda sadə xalq arasında, kəndlərdə ana – ağbirçək sayılmışdır, onun məsləhətini dinləmiş, o içəri girəndə ayağına durmuşlar.

"Aslanın erkəyi, dişisi olmaz" kimi məsəllər yaradan Azərbaycan xalqının müdrik babaları, qadına – anaya böyük hörmət doğuran atalar sözləri, məsəllər, bayatı və ağılar yaratmışlar. Bayatıların bir çoxu qadın əsarətini, hüquqsuzluğunu, qadın dərdini tərənnüm edən, qadın bədbəxtliyinə inləyən könüllərin nidasıdır. Ana məhəbbətinin himni kimi səslənən bu bayatı, xalqımızın bu böyük duyğuya bəslədiyi hörmətin, ehtiramın nəticəsidir:

*Araz daşanda mələr,*
*Kür qovuşanda mələr,*
*Analar balasından*
*Ayrı düşəndə mələr.*

Bu sözlər, kim bilir, bəlkə də gözü baxa-baxa övladı qul edilib satılan, yaxud yad ölkələrə bir parça çörək üçün gedən bir ananın nalələri, fəryadlarıdır:

*Analar anar ağlar,*
*Gününü sanar ağlar,*
*Dönər göy göyərçinə*
*Yollara qonar ağlar.*

Bəlkə də bu iniltilər illər uzunu həsrətli bir intizarla yollara baxmaqdan gözlərinə qara su enən, "qara saçını ağ hörən" bir ananın oğul həsrətilə çırpınan sinəsindən qopmuşdur. Ana adı ilə başlayan, ana adı ilə də bitən, ana – Vətən məhəbbətilə dolu bayatılarımız vardır ki, bunlarda xalqımızın uzun əsrlərdən bəri məruz qaldığı əzablar, iztirablar, istismar və kəşməkəşlər, yadelli işğalçılara qarşı qəzəb və nifrət hissi çox bariz şəkildə öz əksini tapmışdır.

Qadınlarımızın vəziyyətilə yaxından tanış olan və qadın məsələsinə bir sıra dəyərli əsərlər həsr edən Yusif Vəzir Çəmənzəminli, vaxtilə ictimai həyatda heç bir hüququ olmasa belə, mühüm hadisə və problemlərinə nüfuz etmək qüdrətinə malik olan qadın zəkasından bəhs etdikdən sonra yazır: "Şifahi ədəbiyyatımızın əksər hissəsi bütün lətafət və zərafətilə bərabər qadın fikrinin məhsuludur".

Ana tərbiyəsinə yüksək qiymət verən müdrik baba və nənələr məhz "Anasına bax, qızını al", yaxud "Lalın dilini anası bilər", ya da "Analı qızın özü böyüyər, anasız qızın sözü" kimi yüzlərlə sərrast ifadələr söyləmişlər.

Azərbaycanlı qadın – ananın qəhrəman, cəngavər surəti də xalq ədəbiyyatı incilərində öz ifadəsini tapa bilmişdir. Nağıl və dastanlarda öz oğlunu yola salan analar, "Get, düşmən qabağından qaçma, südüm sənə halal olsun" demiş, oğlanlarını mərd olmağa səsləmişlər.

Xalqımızın ən qədim ədəbi abidələrindən biri olan "Dədə Qorqud dastanları"na nəzər yetirsək, ana surətini daha aydın görərik.

Təmiz məhəbbətini həzin layla təranələrinə çevirən ananın nəğmələrindən şirin və unudulmaz musiqi yoxdur. Gecələr sübhə kimi yuxusuna haram qatıb bala beşiyi başında layla deyərkən, məhz, ananın düzdüyü bu sətirlər, necə də incə bir qəlbin səsidir.

*Layla beşiyim layla,*
*Evim-eşiyim layla,*
*Sən yat, şirin yuxu tap,*
*Çəkim keşiyin layla.*

*Layla dedim həmişə,*
*Karvan gedər yemişə;*
*Yastığında gül bitsin,*
*Döşəyində bənövşə.*

Xalq ədəbiyyatımızdakı onlarca kiçik həcmli növün – yanıltmaclar, tapmacalar, saymacalar, uşaq dindirmələri, mahnı və oyunlar vardır ki, bunların məhz analar tərəfindən düzəldiyini söyləmək üçün sübuta ehtiyac yoxdur. Bunlar uşağı əyləndirmək, onun dilini, zehnini inkişaf etdirmək, uşağı əhatə edən əsrarəngiz aləmi ona dərk etdirmək işinə xidmət edir.

Xalqımız qadın – ana ilə bağlı gözəl şeir inciləri düzən, onlarla qadın aşıq və şairlər yetirmişlər. Yeri gəlmişkən, qadın aşıq və şairlərin əsərlərini tədqiqimizlə tanış olan macar alimi İştvan Banonun məktublarından birindəki bu fikri hörmətli oxuculara təqdim edirəm: "Məni, xüsusilə heyrətə salan bu oldu ki, hər cəhətdən qadının kölə olduğu bir ölkədə və zəmanədə bu qədər çox qadın şair və yazıçı yetişmişdir".

Bəlkə də elə məhz bu hüquqsuzluğa görədir ki, incə, şair təbiətli ana və nənələrimiz öz ələm və qüssələrini şerə, həzin bayatıya, fəryad dolu ağıya çevirmişdir. Hər nə isə son tədqiqat göstərir ki, bu aşıq və şairlərdən bizə məlum olanların sayı əlliyə yaxındır. Onlarca qadın aşıq içərisində aşıq Sona, Mina, Şəhrəbanu, Əsmər, Aşıq Pəri və başqalarının adı olduğu kimi qadın şairlərimiz içərisində adı ölkəmizdən xaricdə belə tanınan Məhsəti xanım Gəncəvi, Ağabəyim ağa, "Məclisi-üns"ü ilə çox müqtədir şairlərə örnək olmuş Xurşidbanu Natəvan, Şahnigar xanım Rəncur, Heyran xanım, Fatma xanım Kəminə və başqaları vardır. Hətta bir sıra görkəmli aşıqlarımızla üzbəüz deyişə bilən qüvvətli qadın aşıqlar olmuşdur. Bu qadınların bir qismi saz çalmış, şairlərlə müşairəyə çıxmış, həm şeir, həm də musiqi sənətinə dərindən bələd olmuş və haqlı olaraq aşıq adı qazanmışlar. Bir qismi isə saz çalıb, aşıqlıq etməmişsələr də, yenə xüsusi təhsil görmədən, bədahətən şeir söyləyən şairələr olmuşlar. Buna baxmayaraq, onları da "aşıq" adlandırmışlar. Respublika Əlyazmalar Fondunda el şairlərinin bir qisminin müxtəlif katiblər tərəfindən yazılmış əsərləri saxlandığı kimi, vaxtilə Hümmət Əlizadənin topladığı xalq ədəbiyyatı nümunələri ("Aşıqlar", "El aşıqları" və b. kitablar) arasında da qadın aşıqların adına rast gəlirik.

Təəssüf ki, xalq ədəbiyyatımızın böyük bir hissəsinin yaradılmasında mühüm rol oynamış qadın aşıqlarımızın çox az bir hissəsinin adı bizə qədər gəlib çatmışdır. Biz onların çoxunun tərcümeyi-halını, hətta hansı əsrdə, harda yaşayıb-yaratdığını belə bilmirik. Təzkirə və cünglərimizdə aşıq qadınlarımızdan yalnız bir neçəsinin adı çəkilir.

Yazılı ədəbiyyatımız isə bu baxımdan daha zəngindir. Burada Heyran xanım kimi divanı, Məhsəti, Natəvan, Kəminə kimi, pərakəndə də olsa, çoxlu əsərləri və haqqında az-çox bioqrafik məlumat olan şairələrimiz mövcuddur.

Azərbaycan ədəbiyyatının nəzərə çarpan bütün qadın yaradıcıları, əsasən, aşıq və şair olmuşlar. Yalnız XX əsrin ilk on ilində ədəbiyyatımıza bir sıra nasir qadınlar da gəlmişdir. Bunlardan "İki yetimə" kimi hekayənin müəllifi, ilk qadın jurnalistlərdən olan Şəfiqə xanım Əfəndizadə, yazıları "Məktəb" və başqa uşaq mətbuatında dərc olunan müəllimə Gövhər xanım Şövqiyyə, vətənpərvər şeirlərlə tanınmış Sona Axundova, "Molla Nəsrəddin" satirik məcmuəsi iştirakçılarından Böyük xanım Cəfərova və başqalarını göstərmək olar.

Məcmuəni tərtib edərkən bir çox qadın aşıq və şairin dəqiq tərcümeyi-halını əldə edə bilmədik. Əldə edə bildiyimizi kitabda yerləşdirməyə çalışmışıq. Tərtib zamanı aşıq və şairlərin əsərləri xronologiya üzrə düzülmüşdür. Hər bir şairə və aşıq haqqında mənbələrdə təsadüf olunan ən kiçik bioqrafik məlumat belə nəzərə alınmış, bu və ya başqa müəllifin əsərlərindən verilən nümunələrin əvvəlinə əlavə edilmişdir.

Bəzi qadın aşığın müəyyən bir dastanın qəhrəmanı olmaq ehtimalı var, lakin biz belə xətalardan bacardıqca qaçmağa səy etmiş, əsasən, yazılı mənbələri, cüng və təzkirələri nəzərə almışıq. Lazımi qeyd və izahatlar hər səhifənin ayağına əlavə edilmişdir.

Qadın aşıq və şairlərin əsərlərini toplarkən alim və tədqiqatçılarımızdan Abbasqulu ağa Bakıxanov, Mir Möhsün Nəvvab, Məhəmmədağa Müctəhidzadə, Firidun bəy Köçərli, Yusif Vəzir Çəmənzəminli, Rəşid bəy Əfəndiyev, Salman Mümtaz, Əliabbas Müznib, Hümmət Əlizadə, Qulam Məmmədli, Məhəmmədhüseyn Təhmasib, Əhliman Axundov və başqalarının əsərlərindən, məqalə və məcmuələrindən, eyni zamanda bəzi rayonlardan yığdığımız materiallardan istifadə edilmişdir.

***Əzizə Cəfərzadə***
*1991*

## KİTABDAKILAR

*İşıqlı həyat həsrətində* ....................................................................................4

Məhsəti xanım Gəncəvi..................................................................12
Rəziyyə Gəncəvi .............................................................................20
Gülşad.............................................................................................22
Sahib Sultan Dünbüli .....................................................................24
Fatma xanım Ani.............................................................................25
Xədicə Sultan xanım.......................................................................26
Gülgəz .............................................................................................27
Ağabəyim ağa Ağabacı...................................................................28
Güllər Pərisi ....................................................................................30
Heyran xanım..................................................................................32
Aşıq Pəri..........................................................................................48
Tahirə Qürrətüleyn..........................................................................56
Zöhrə xanım ....................................................................................57
Qonçabəyim ....................................................................................58
Gövhər yaxud “Gövhər” adlı şairələr ..............................................60
Xurşidbanu Natəvan........................................................................68
Aşıq Hamayıl ..................................................................................84
Aşıq Bəsti........................................................................................86
Nimtac xanım..................................................................................94
Fatma xanım Kəminə.......................................................................96
Rəncur Şahnigar xanım..................................................................100
Ziba xanım Ləli..............................................................................103
Güləndam.......................................................................................104
Mah xanım .....................................................................................105
Mahtab xanım.................................................................................108
Fatma..............................................................................................109
Xanbikə ..........................................................................................111
Məşədi xanım Leyli.......................................................................112
Qəmərbəyim Şeyda .......................................................................144
Pərnaz.............................................................................................116
Zeynəb Zərbəli qızı .......................................................................120
Gülgəz Maqsud qızı.......................................................................123
Sona Axundova ..............................................................................125
Asya Axundzadə ............................................................................126

Maral xanım Nəbizadə.....127
Başxanım Şəfi qızı.....129
Püstə Şikar qızı.....131
Nabırlı Badam.....132
Aşıq Savad Şəfi qızı.....133
Ağcaqız.....134
Cahansuz.....136
Ümmügülsüm.....139
Ülkər.....146
Pərvin xanım Ehtisami.....147
Aşıq Sənəm.....149
Dilşad.....150
Mina.....151
Mirvarid Dilbazi.....155
Nigar Rəfibəyli.....166
Aşıq Nabat.....177
Mədinə Gülgün.....178
Həkimə Billuri.....184
Mərziyyə Üskuyi (Dalğa).....189
Xanımana Əlibəyli.....192
Tükəzban Abbasquluqızı.....195
Narınc Xatun.....197
Zivər Ağayeva.....200
Kəmalə.....203
Nurəngiz Gün.....206
Firuzə Məmmədli.....211
Validə Hüseynova.....215
Elmira Qasımova.....217
Kamilə Nemət.....219
Rəfiqə Nuray.....222
Roza Qarabağlı.....226
Minayə Əliyeva.....228
Rüzgar Əfəndiyeva.....233
Dilarə Azaflı.....237
Səhər (Həmidə Rəiszadə).....242
Fəridə Ləman.....245

*Son söz*.....248

| | |
|---|---|
| Buraxılışa məsul: | *Umud Rəhimoğlu* |
| Texniki redaktor: | *Mübariz Piriyev* |
| Kompyuter səhifələyicisi: | *Azər Quliyev* |
| Korrektor: | *Rəhilə Quliyeva* |

Yığılmağa verilib 06.07.2005. Çapa imzalanıb 25.08.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 16. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 178.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.